NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

HEYDƏR ƏLİYEV



# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

31 oktyabr 2025-ci il, cümə № 6 (68)

# NDU-da Naxçıvan İnnovasiya Mərkəzinin açılışı olub və “İnnovasiya və davamlı inkişaf yeni ideyalar və həllər” mövzusunda I Beynəlxalq Elmi konfrans baş tutub

Naxçıvan Dövlət Universitetində (NDU) İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) və universitetin birgə təşəbbüsü ilə Naxçıvan İnnovasiya Mərkəzinin açılış mərasimi keçirilib.

Əvvəlcə Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, “İnnovativ texnologiyalar” adlı videoçarx nümayiş olunub.

Tədbirdə rəsmi qurumların, ölkə ali təhsil müəssisələrinin, Türkiyə universitetlərinin rəhbər heyəti və nümayəndələr, ziyalılar, universitetin müəllim-tələbə heyəti və digər dəvətlilər iştirak ediblər.

Tədbiri açıq elan edən NDU-nun rektoru Elbrus İsayev ölkədə təhsil siyasətinin uğurlu icrasından,



Prezident İlham Əliyevin təhsilin inkişafı ilə əlaqədar imzaladığı proqramlar çərçivəsində həyata keçirilən islahatlar və innovativ layihələrdən söz açıb. O, Naxçıvan İnnovasiya Mərkəzini təhsilalanların yenilikçi ideyalarının reallaşdırılmasında müasir texnologiyaların və tədris metodlarının tətbiqi baxımından dövrün tələbi, inkişaf meyarı olaraq dəyərləndirib. Eləcə də Mərkəzin yalnız NDU üçün deyil, ümumilikdə region üçün innovativ yanaşma potensialına təkan verəcəyini əlavə edib. Rektor son dörd il ərzində ali təhsil ocağının startap uğurlarını xatırladıb: “2021-ci ildə I Startap müsabiqəsi, 2022-ci ildə “İdeyadan Biznesə”, 2023-cü ildə ASAN Xidmət “Ekoloji Hakaton”, Robotex İnternational, Enactus Milli Çempionatı, StartupFest Naxçıvan, 2024-cü ildə AgroChat startapı “INMerge Innovation Summit”də iştirak, IDDA Awards-da “İlin Kəşfi” nominasiyası, 2025-ci ildə Innostart Grand Final (Bakı), İstanbul Bilişim Vadisi və digər bir çox layihələrdə, proqramlarda iştirak, ardıcıl qazanılan qalibliklər regional ekosistemdə NDU-nun rolunu gücləndirib” – deyə E.İsayev vurğulayıb.

İRİA-nın İdarə heyətinin sədri Fərid Osmanov



çıxışında ekosistemi sürətlə inkişaf edən ölkələrdə innovasiya məkanlarının aparıcı rol oynadığını ifadə edib. Bildirib ki, “Azərbaycanın rəqəmsal gələcəyini qururuq” devizi ilə fəaliyyətimiz çərçivəsində bu gün ölkədə artıq üçüncü innovasiya mərkəzinin açılışını etdiyimiz Naxçıvan İnnovasiya Mərkəzi genişlənən innovasiya şəbəkəsinin növbəti mərhələsidir. Bu mərkəz həm də Azərbaycan ali təhsil müəssisələri arasında ilk dəfədir Naxçıvan Dövlət Universitetində fəaliyyətə başlayıb. O, həmçinin bildirib ki, bu mərkəzlər təkcə binalar və laboratoriyalar deyil, ideyaların yarandığı, biliklərin paylaşıldığı və innovasiya mədəniyyətinin formalaşdığı məkanlardır. Fərid Osmanov: “Əməkdaşlıq bu mərkəzin əsas istiqamətlərindən biri olacaq. Universitetlərlə elmi layihələr, şirkətlərlə tex-



nologiya transferi, startaplar üçün inkubasiya və akselerasiya proqramları, dövlət qurumları ilə STEAM təşəbbüsləri və beynəlxalq qrant proqramlarına çıxış bu Mərkəzin fəaliyyətinin tərkib hissəsində yer alacaq” - deyə qeyd edib.

Açılış mərasimində çıxış edən Naxçıvan MR Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini, nazir səlahiyyətlərini müvəqqəti icra edən Azər Məmmədrəhimov vurğulayıb ki, Naxçıvan İnnovasiya Mərkəzi dövlətimiz tərəfindən ölkəmizdə innovativ yeniliklərin tətbiqi yönündə uğurlu fəaliyyətlərin davamıdır və bura müxtəlif innovasiyayönümlü layihələr həyata keçirilməsində texnoloji sahibkarlar, startapçılar və innovatorlar üçün vahid mərkəz rolu oynayacaq.

Sonra Ərzurum Texniki Universitetinin prorektoru Ceren Sultan Elmalı, Bakı Mühəndislik Universitetinin prorektoru Ağası Məlikov, İRİA-nın Texnoparklarla iş şöbəsinin müdiri Elvin Hacıyev, İstanbul Cərrahpaşa Universitetinin professoru Aysel Ersoy, NDU-nun İnformasiya Texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli, Azərbaycan-Britaniya Peşəkarları Assosiasiyasının (AABP) sədri İlhamə Cəfərli çıxış ediblər. Natiqlər innovasiya məkanlarının yaradılma-



sının innovativ təfəkkürlü yeni nəsil yetişdirmək yönündə mühüm və özünəməxsus önəm daşıdığını qeyd ediblər.

Çıxışlar dinlənildikdən sonra Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan-Britaniya Peşəkarları Assosiasiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb, sonda xatirə fotosu çəkdirilib.

Mərkəzin açılış mərasimindən sonra 1-2 oktyabr tarixlərini əhatə edəcək “İnnovasiya və davamlı inkişaf yeni ideyalar və həllər” mövzusunda I Beynəlxalq Elmi konfrans öz işinə başlayıb.

Qeyd edək ki, konfrans 6 bölmədə 28 panel olaraq işini davam etdirib. Konfransa 500-dən çox müraciət daxil olub, 413 iştirakçının tezisi şifahi təqdimat üçün qəbul olunub ki, beləliklə, 11-i xarici olmaqla 71 müəssisədən məruzəçi konfransda çıxış edib. Bölmə iclaslarında Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən 61 müəssisədən məruzəçilər dinlənilib. İki gün davam edən konfransın sonunda iştirakçılara sertifikatlar verilib.

***Kifayət Mahmudova***

# “Gizli Dədə Qorqud” kitabının ilk təqdimatı

Naxçıvan Dövlət Universitetində Azərbaycan Dillər Universitetinin rektoru, görkəmli alim, yazıçı-dramaturq, akademik Kamal Abdulla ilə görüş olub. Universitetin rəhbər heyəti və dilçi alimlərinin iştirakı ilə baş tutan görüşdə müəllif yeni çap olunan “Gizli Dədə Qorqud” kitabını ilk dəfə təqdim edib.



Rektor Elbrus İsayev qeyd edib ki, Kamal Abdulla Azərbaycanın görkəmli alimi, tanınmış yazıçısı, nüfuzlu ictimai xadimidir. Akademik ilə görüşü onun zəngin elmi, dilçi alim kimi geniş fəaliyyəti ilə daha yaxından tanış olmaq baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan rektor, yeni çap olunan “Gizli Dədə Qorqud” kitabının ilk dəfə məhz Naxçıvan Dövlət Universitetinə təqdim olunmasını xüsusi etimad adlandırıb.

Müasir Azərbaycan ədəbiyyatının ən çox oxunan, tanınan və sevilən müəlliflərindən biri olan Kamal Abdulla elmi və ədəbi fəaliyyətinin əsas istiqamətlərindən söz açıb, müxtəlif janrlarda qələmə aldığı bədii əsərlər, onların yazılma səbəbləri haqqında məlumat verib. “Kitabi-Dədə Qorqud” dastanı ilə bağlı araşdırmaları, mifologiyanın bugünkü həyatımıza təsiri barədə fikirlərini bölüşüb. Yazıçı yeni nəşr olunan “Gizli Dədə Qorqud” kitabını ilk dəfə təqdim edib və Universitetin Elmi Kitabxanasına bağışlayıb. Kitab haqqında məlumatları diqqətə çatdıran yazıçı vurğulayıb ki, monoqrafiya əvvəlki nəşrlərin ümumiləşdirici variantı olmaqla yanaşı, bir sıra yeni fəsillər, bölmələr və əlavələrlə təkmilləşdirilib.

Sonda görüş iştirakçıların alimin Azərbaycan dilçilik elminin nəzəri məsələlərinə dair tədqiqatlarına, “Yarımçıq əlyazma”, “Sehrbazlar dərəsi”, “Unutmağa kimsə yox”, “Gizli Dədə Qorqud” və digər əsərlərinə dair sualları ətrafında müzakirələrlə davam edib.





# *Türk Tarix Qurumunun fəxri üzvü Naxçıvan Dövlət Universitetinin dəvəti ilə Naxçıvanda səfərdə olub*

Tanınmış türkiyəli tarixçi-alim, Türk Tarix Qurumunun fəxri üzvü, yazıçı İlbər Ortaylı Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı və dəvəti ilə 20-23 sentyabr tarixlərində Naxçıvanda səfərdə olub.

Tanınmış tarixçi və yazıçı İlbər Ortaylı, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və ali təhsil ocağının rəhbər heyəti Türk dünyasının böyük liderləri – Ümummilli Lider Heydər Əliyevin və böyük öndər Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan abidələrini ziyarət edib, önünə gül dəstələri qoyublar.



İlbər Ortaylının Naxçıvan səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbində imza günü keçirilib.

Görüşdə ali təhsil ocağının rəhbər heyəti, müəllim-tələbələri, şagirdlər və media nümayəndələri iştirak ediblər.



Universitet rəhbəri Elbrus İsayev çıxış edərək qeyd edib ki, İlbər Ortaylının səfəri ali təhsil ocağı üçün xüsusi əhəmiyyət daşıyır. Bu görüş tələbə və müəllimlərin intellektual dünyagörüşünü zənginləşdirir, gənclərin elmə, araşdırmaya və yaradıcı düşüncəyə marağını daha da artırır. Professor İlbər Ortaylı sosial, tarixə dair çıxışlarında hər zaman toplumu məlumatlandırıb. Yazdığı əsərlər dünyanın bir çox dillərinə tərcümə olunub. Kitabları oxunma səviyyəsinə görə geniş oxucu auditoriyası olan alimimizdir.

Universitetin fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev və tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev İlbər Ortaylının yaradıcılıq yolu və əsərləri haqqında da danışıblar.

Daha sonra İlbər Ortaylı çıxışında onun haqqında



öz fikirlərini qeyd edən tarixçi alimlərə təşəkkür edərək Naxçıvan Dövlət Universiteti barədə xoş təəssüratlarını dilə gətirib. "Muxtar respublika uzun illərdir, blokada da yaşamasına baxmayaraq, elm və təhsil yüksək səviyyədə inkişaf edib. Burada çox gözəl gələcəyi olan savadlı gənclər yetişir. Tarixboyu belə mühitlərdə yaşayan insanlar fədakar olub və oxumağa



daha maraq göstəriblər. Şadam ki, Naxçıvanda elmli insanlar daha çoxdur. Qeyd etməliyəm ki, Naxçıvan Dövlət Universiteti hər zaman hafizəmdə örnək universitetlər sırasında qalacaq. Ali təhsil ocağında yaradılan imkanlar məni çox fərəhləndirdi"-deyə o qeyd edib.

Elbrus İsayev xatirə olaraq alimə yağlı boya ilə çəkilmiş portretini hədiyyə edib.

Professor çıxışdan sonra media nümayəndələrinin ona ünvanladığı sualları cavablandırıb.

İmza günü yazıçı İlbər Ortaylı oxucuları ilə görüşərək imzalı kitablarını təqdim edib.

Səfər müddətində Həmçinin Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə professor İlbər Ortaylının yerli ictimaiyyətlə görüşü olub.

Görüşdə dövlət və hökumət rəsmiləri, deputatlar, universitetin professor-müəllim heyəti, tələbələr, ictimaiyyət nümayəndələri və bir sıra tanınmış şəxslər iştirak ediblər.

Tədbir professor İlbər Ortaylının həyat və fəaliyyətini əks etdirən videoçarxın nümayişi ilə başlanıb. Sonra Naxçıvan Dövlət Universitetin rektoru Elbrus İsayevin rəhbərliyində beş modul üzrə İlbər Ortaylının çıxışları dinlənilib. İlbər Ortaylı Naxçıvanda ilk dəfə olduğunu və məmnunluq duyduğunu söyləyib və xüsusi diqqət üçün hər kəsə təşəkkürünü bildirib. Ortaylı proqram çərçivəsində "Azərbaycan və Naxçıvan tarixi", "Tarix və müasirlik", "Türk dünyası", "Gənclik və zaman", "Təhsil və elm" başlıqlı mövzularda zəngin bilgilərini bölüşüb. Professor Azərbaycan dili, ədəbiyyatı, mədəniyyəti, tarixi haqqında çıxış edib. Tanınmış elm xadimi İlbər Ortaylı bildirib ki, Böyük öndər Heydər Əliyev necə gözəl ifadə edib: "Bir millət, iki dövlətik". Bu fikir sehirli bir düstur,



tarixi ifadədir. Türkiyə və Azərbaycanı birləşdirən bir çox dəyərlər, mənəvi bağlar var. Bu iki dövlət ortaq mədəniyyət, din, dil, sənət biliklərinə sahib ölkələr olub, bir-birinə dostluq, qardaşlıq münasibətləri ilə bağlıdır. İlbər Ortaylı Naxçıvanın tarixən önəmli region olduğunu, Osmanlı dövründə, XIII, XIV, XV



əsrlərdə xüsusən diqqət mərkəzində olduğunu bildirib. Qeyd edib ki, "Bu gün də Türk dünyasına açılan qapı Naxçıvanda, bu universitetdə anadolulu gənclərinin də təhsil aldığını, buradakı tələbələrlə gözəl ünsiyyət qurduğunu görmək məni xoşbəxt etdi".

Görüş tədbir iştirakçılarının ünvanladığı suallarla davam edib.

Sonda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev görüşdən xatirə olaraq Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı Möminə xatun türbəsinin yağlı boya ilə çəkilmiş rəsm əsərini hədiyyə edib.

***Badəm Əliyeva***

# Naxçıvanda mədəniyyətlə aydınlanan dörd gün

### Professor İlbər Ortaylının təəssüratları

*Türkiyənin tanınmış tarixçisi, alim və publisisti professor İlbər Ortaylı Naxçıvana etdiyi son səfər zamanı bu qədim diyarın mədəni və elmi həyatına dair təəssüratlarını oxucularla bölüşüb. Aşağıda təqdim olunan yazıda müəllif Naxçıvanın mədəni həyatı, təhsil mühiti, musiqi ənənələri, tarixi irsi və Azərbaycan–Türkiyə əlaqələrini öz unikal baxış bucağı ilə təsvir edir.*

*Professor Ortaylının bu yazısı həm elm adamının baxış bucağını, həm də iki qardaş xalq arasında mədəni bağlılığın səmimi təzahürünü əks etdirir.*

*Qəzetimiz yazını müəllifin orijinal mətninə toxunmadan təqdim edir:*

Geçtiğimiz hafta dört gün boyunca Nahçıvan'daydım. Sevimli bir Güney Kafkas şehri... Binaların mimarisi, şehrin yeşilliği, bahçeli evler, üniversite ve resmi binaların mütevazı ama görkemli görünümü beni derinden etkiledi. İran, Avrupa ve Anadolu burada birleşiyor...

Fakat asıl dikkatimi çeken başka bir ayrıntı vardı: Köylerde bile müzik okullarının bulunması ve Nahçıvan Devlet Üniversitesi'nin 150 kişilik bir senfoni orkestrasına sahip olması. Gurur duydum, hayran kaldım ve ister istemez kendi kendime sordum: "Atatürk'ün musiki devrimi yaptığı ülkemizde niye yok?" Konferanslar, orada karşılaştığım sorular, gösterilen ilgi beni büyüledi. Rektör Prof. Dr. Elbrus İsayev ve Azerbaycan Ombudsmanı, değerli hukukçu Sabina Aliyeva'nın davetiyle çıktığım bu yolculuk içimi aydınlattı.

Nahçıvan, mutfağıyla, sanatıyla, kültürüyle bambaşka bir ruh taşıyor. Kafkasya, Azerbaycan'ın varlığıyla şekilleniyor. Haydar Aliyev'in de dediği gibi: "Bir millet, iki devlet". Askerî, ekonomik ve diplomatik alanda sağlanan denge dikkat çekici. Cumhurbaşkanı temsilcisi Fuad Necefli Bey beni kabul etti. Bütün hemşerileri gibi musiki ve gramer bilgisinin getirdiği bir beceri var. İstanbul Türkçesi konuşuyor. Avrupa dillerine de hâkim. Türkçe anadilin verdiği bu özelliği maalesef bizim memleketimizdeki gençlik yanlış telaffuzla bozmaktadır. Yani artık Türkçeyi güzel konuşanları dinlemek için Azerbaycan'a gideceğiz. Azerbaycan halkı Türkiye'ye büyük bir ilgiyle bağlı; yayınlarımız takip ediliyor, tercümeler yapılıyor, üniversite gençliği Türk kültürüne gönülden yöneliyor. İki ülke arasındaki bağların en güçlü yönü sadece askerî ve ekonomik alanlar değil, aynı zamanda kültürdür. Bu da tarihsel mirasın doğal bir sonucudur.

Bugün Azerbaycan, Kafkasya'nın belirleyici unsuru. Dış politikada attığı adımlar başarılı. Bizim mensup olduğumu blok belli. Türk dünyası yeni insanlarla gelişiyor. Ursula von der Leyen'in rüşvet vermek için gittiği bölgeler gibi değil. Azerbaycan bu konuda öncüdür. Dış politikadaki ustalık, bürokraside benimsenmiş vaziyette. Fuad Necefli Bey'le bu meseleleri derinlemesine konuştuk. Ermenistan'la barış sürecini ilerletmiş durumda ve Türkiye'yi de aynı barışçıl yaklaşımın parçası olmaya davet ediyor.

Memnuniyetle gözlemlediğim bir başka konu da Millî Eğitim Bakanlığı'mızla eğitim alanında yapılan işbirliği. Yıllardır süren bir süreç. Üniversitelerimizde Azerbaycanlı öğrenciler, Azerbaycan'da da Türkiye'den öğrenciler var. Konservatuvarda müzik okuyanından mühendisliğe, edebiyattan tarihe kadar farklı sahalarda gençlerimiz karşılıklı olarak eğitim alıyor.

Nahçıvan'ın havası, suyu güzel. Kırsal alandaki problemleri eskiye göre çok düzelmiş. Karayolları gelişiyor. En önemlisi de Trump'ın açıkgözlü biçimde sahip çıktığı Zengezur Koridoru'dur. 40 kilometrelik yolun yapımına iki taraftan başlanmış; birleşme için temeli atan Azerbaycan, 40 kilometreyi de yapacak. Ama Trump üstüne oturuyor. Amerikan müdahalesinin, Ermenistan ile Azerbaycan'ın iktisadi hayatını geliştirecek ve Türkiye ile entegrasyonu sağlayacak bu projenin geciktirilmesinden başka bir işe yaramayacağı açık.

Nahçıvan, Türkiye tarihiyle de derin bağlara sahip. Özellikle 15. yüzyıldan 20. yüzyıl ortalarına kadar süren yakınlık dikkat çekicidir. Bu özelliği her daim göz önünde bulundurmak gerekir. Nahçıvan Devlet Üniversitesi her zaman hafızamda örnek üniversiteler arasında kalacaktır.

***Hürriyyət qəzeti***

# Professor İlbər Ortaylı NDU-nun Konservatoriyası və Simfonik orkestri ilə tanış olub

Tanınmış tarixçi alim və yazıçı İlbər Ortaylı Naxçıvan Dövlət Universitetində olub. Dəyərli elm



xadimi İlbər Ortaylı Universitetin Konservatoriyasının önündə qarşılanıb, İncəsənət fakültəsinin sərgi salonunda müəllim və tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub.

Görüşdə Universitetin rektoru Elbrus İsayev professor İlbər Ortaylını ali təhsil ocağında görməkdən məmnunluğunu ifadə edib. Rektor qeyd edib ki, Naxçıvan Dövlət Universitetinin tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır və bu gün də Ümummilli Liderin ideyalarını yaşadan dövlətçilik universitetidir. O ali təhsil ocağının qardaş Türkiyə universitetləri ilə qurulan əməkdaşlıq əlaqələrindən bəhs edib: “Türkiyənin 80 universiteti ilə birbaşa əlaqələr var və hazırda 1500-dən artıq türkiyəli tələbə təhsil alır”. Universitetdə Konservatoriyanın yaradılmasının da məhz dahi şəxsiyyət Heydər Əliyevin imzası ilə reallaşdığını bu gün İncəsənət fakültəsinin də çoxşaxəli tədris proqramı ilə kadr hazırlığında özünəməxsus yeri olduğunu söyləyib. O rəhbərlik etdiyi ali təhsil ocağının incəsənət kollektivləri sırasında universitetin 150 nəfərlik Simfonik orkestri, Tələbə Teatr Studiyası, “Qədim Xalq Çalğı Alətləri” ansamblı olduğunu və Simfonik orkestrin Azərbaycan ali məktəbləri arasında yaradılan ilk musiqi kollektivi olduğunu qeyd edib.

Tanınmış elm xadimi İlbər Ortaylı Universitetin Konservatriyası ilə yaxından tanış olub, müəllim və tələbələrlə görüşüb. Naxçıvan Dövlət Universitetinin “Orkestr alətləri və dirijorluq” kafedrasının professoru, Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundovun dərsində iştirak edən tarixçi alim, tələbələrin ifasında dünyaşöhrətli Azərbaycan musiqiçisi Müslüm Maqomayevin “Azərbaycan” mahnısını heyranlıqla dinləyib. Professor ali təhsil ocağında görüşün yaddaqalan olduğunu qeyd edib, starteji coğrafi mövqedə yerləşən Naxçıvanda Konservatori-



yası, Simfonik Orkestri olan Naxçıvan Dövlət Universitetində mənəvi dəyərlərin qorunması və yaşadılmasına yüksək dəyərləndirib. Tanınmış alim İncəsənət fakültəsində Türkiyənin bir çox bölgəsindən tələbələrin təhsil aldığını və bu sayın artacağına əminliyini ifadə edib.

Sonda orkestrin bir qrup heyəti ilə xatirə fotosu çəkdirilib və professor İlbər Ortaylı Universitetin Televiziyasına xüsusi müsahibə verib.

# İlbər Ortaylının Naxçıvan səfəri – elm və ruhun görüşü

Dünyaca məşhur tarixçi, Türkiyənin böyük düşüncə adamı, professor İlbər Ortaylının Naxçıvan Muxtar Respublikasına səfəri təkcə bir akademik görüş, bir mühazirə və ya universitet tədbiri deyildi. Bu, Naxçıvanın elm, mədəniyyət və maarif tarixində iz buraxacaq hadisə idi.

Hər ölkə, hər şəhər böyük ziyarətçilər görür. Amma hər şəhər bu ziyarətçiləri heyran buraxa bilmir. İlbər Ortaylının “Naxçıvanda hər kənddə musiqi məktəbi, Naxçıvan Dövlət Universitetində simfonik orkestr var. Atatürkün istədiyi cümhuriyyət bu idi” sözləri təkcə bir kompliment deyil, bir düşüncənin nəticəsi idi. Bu, muxtar respublikanın illərlə formalaşmış maarifçilik ənənəsinə verilən yüksək qiymət idi. Professorun bu ifadəsi, əslində, Naxçıvanın nə qədər dərin mədəni əsaslara malik olduğunu göstərir. Bəzən bir şəhərin inkişafını binalar, yollar, sənaye müəssisələri ilə ölçürlər. Amma Naxçıvanın böyüklüyü başqa yerdədir. Bura insana yatırılan sərma-yənin vətənidir. Burada elm, musiqi, mədəniyyət bir həyat tərzidir.

Bu səfərin əsas təşəbbüskarı və təşkilatçısı olan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev son illərdə bu ali təhsil ocağını yeni bir mərhələyə daşıyıb. Universitetin qapıları artıq yalnız tələbələrə deyil, dünyaca tanınmış elm adamlarına, ictimai xadimlərə də açıqdır. Hər belə görüş bir universitet üçün təkcə tədris hadisəsi deyil, həm də ruhi bir hadisə, tələbələrin dünyagörüşünə açılan pəncərədir.

Naxçıvan Dövlət Universitetinin tələbələri bu illər ərzində bir çox tanınmış alim və ziyalılarla bir araya gəliblər. Amma İlbər Ortaylının gəlişi həm miqyas, həm də mənəvi təsir baxımından fərqli idi. O, tarixi bir ensiklopediyanın canlı versiyasıdır. Hər cümləsində bir əsrin səsi, bir millətin ruhu var. Naxçıvanda söylədiyi fikirlər təkcə auditoriyada deyil, sosial şəbəkələrdə, mediada, insanların yaddaşında uzun



müddət qalacaq.

Bəzən bir şəhərin, bir bölgənin intellektual nüfuzunu bir səfər dəyişə bilir. İlbər Ortaylının Naxçıvana səfəri də belə idi , Naxçıvanın düşüncə xəritəsində yeni bir parıltı. O, buradan heyranlıqla ayrıldı. "Naxçıvan Dövlət Universiteti hər zaman hafizəmdə örnək universitetlər arasında qalacaqdır".

Bəlkə də bu heyranlığın səbəbi sadəcə qədim abidələr, təbiət, və ya tarixi binalar deyildi. Əsl səbəb insan idi, bu torpağın ziyalıları, tələbələri, musiqi sevən uşaqları, və ən əsası, mədəniyyətə göstərilən sevgi idi.

Bu hadisə həm də bir mesaj idi: Naxçıvan yalnız coğrafi baxımdan Azərbaycanın qərb qapısı deyil, elm və mədəniyyət baxımından da onun fəxarət qapısıdır.

İlbər Ortaylının ayaq basdığı torpaq bu dəfə daha da gur nəfəs aldı, çünki onu anlayacaq, onun dediklərini dəyərləndirəcək bir auditoriya vardı.

Rektor Elbrus İsayevin bu səfəri həyata keçirməklə göstərdiyi təşəbbüs tək bir tədbirin təşkilindən daha çoxdur və bu, maarifçilik ideyasının davamıdır. Hər belə layihə Naxçıvan tələbəsinin dünyagörüşünü bir az da genişləndirir, onu beynəlxalq düşüncə ilə tanış edir.

Bəli, İlbər Ortaylı istənilən ölkəyə dəvət edilə bilər, amma hər yer onun qəlbində iz buraxa bilmir. Naxçıvan bunu bacardı. Bu, bir uğurdan da artıqdır bu, mədəniyyətin qalibiyyətidir.

Nəticə etibarilə, bu səfər bir daha göstərdi ki, elm və mədəniyyət sərhəd tanımır. Naxçıvan Muxtar Respublikası öz intellektual enerjisi ilə bu gün təkcə regional deyil, milli səviyyədə də nümunə göstərir.

Və İlbər Ortaylının dediyi kimi “Atatürkün istədiyi Cümhuriyyət bu idi”

Onu qorumaq və yaşatmaq isə bizə borcdur.

***Tahir Tahirovic***
***Kinorejissor***

# NDU İlbər Ortaylını niyə təəccübləndirdi?

*"Bu gün Türkiyənin məşhur tarixçisi, çox hörmətli İlbər Ortaylının Naxçıvan səfəri və Naxçıvan Dövlət Universiteti ilə bağlı təəssüratlarını oxudum. Bildirdiyinə görə, Naxçıvana yerli universitetin rektoru Elbrus İsayev və Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili-Ombudsman Səbinə Əliyeva tərəfindən dəvət olunub. Olduqca gözəl təşəbbüsdür! Ölkəmizdə gördüyü qonaqpərvərlikdən də doğan müsbət rəyləri, albəttə, xoşuma gəldi".*

Bu barədə "Pragma" İctimai Birliyinin sədri Taleh Şahsuvarlı öz Facebook səhifəsində yazıb. İB sədri bildirib:

"İlk baxışdan bunlar təzadlı görünə bilər. NDU hara, dünya çaplı bir alim olan İlbər Ortaylının ağızdolusu danışması hara? Paytaxtdakı universitetlərimiz dünya reytinqlərinə güclə düşə bildikləri halda, bu nə öygü? Səbəbini deyim. Təxminən 3 il öncə Türkiyədə Cübbəli Hoca moizə oxuyurdu. Deyirdi ki, o dünyada sizdən "Big bang" deyil, namaz qılıb-qılmadığınızı soruşacaqlar. Sonra da öz qafasına uyğun olaraq astrofiziki tədqiqatları mənasız adlandırır, "bu araşdırmalara gərək yoxdur, siz ibadət edin" deyə cəmiyyətə səslənirdi. Videosu "Youtube"-də var, tapıb baxa bilərsiniz. Bu gün Türkiyənin əksər universitetləri genişləndirilmiş imam xətib liseyləridir. Avropaya gəlincə, Avropada, eləcə də post-sovet məkanında köklü universitetlər çoxdur. Ancaq bizim dövlət xətti ilə getməyən tələbələr daha çox oraların sırf post-sovet məkanından gələn əcnəbilərdən pul qoparmaq üçün qurulmuş "universitetlər"ə üz tuturlar. Odur ki, istər-inanın, istər inanmayın, Azərbaycanda Naxçıvan, Mingəçevir, Lənkəran, Gəncə kimi əyalət universitetlərində belə sözügedən qəbildən olanlardan qat-qat üstün elm və təhsil mühiti var. Odur ki, gənclərimizin önünü açmaq, DİM-in yaratdığı süni əngəllərə son qoymaq lazımdır. Qoy gənclərimiz Türkiyənin, post-sovet ölkələrinin, Şərqi Avropanın danqalaq universitetlərində diplom dalınca sürünməkdənsə, öz ölkəmizdə qalıb təhsil alsınlar. Bu səbəbdən də düşünürəm ki, strategiyamız tələbə köçünün qarşısını almaq və universietlərimizi inkişaf etdirmək istiqamətində qurulmalıdır".

***AzNews.az***

# Naxçıvanın tarixi irsi tanınmış türk tarixçisinin gözü ilə



Səfər çərçivəsində professor İlbər Ortaylı, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, ali təhsil ocağının rəhbər heyəti və əməkdaşları tarixi abidələri də ziyarət ediblər.

Məşhur elm xadimi İlbər Ortaylının səfərinin ilk günündə Naxçıvanın möcüzəli şəfa ocağı "Duzdağ Müalicə Mərkəzi" ilə tanışlığı təşkil olunub. Mərkəzdə gəzinti zamanı duz mədənlərində yaradılmış yeraltı müalicə mərkəzinin unikallığı, duz layları ilə örtülü divarları, şəraiti alimdə zəngin təəssürat yaradıb. Bununla yanaşı, naxçıvanlı sənətkarların qaya duzundan hazırladığı əl işləri alimin diqqətini çəkib.

Naxçıvan şəhərindəki "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində yerləşən XVIII əsrə aid "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində olan dəyərli elm xadimi sarayın orijinal memarlıq üslubunu heyranlıqla izləyib. Naxçıvan xanlarına aid şəxsi əşyalar, eləcə də digər eksponantlar ilə xüsusi olaraq maraqlanıb. Professor İlbər Ortaylı tarixi fotolara baxarkən Kəngərlilər tayfasına aid fotolarla yaxından tanış olub. Dəyərli elm xadimi Kəngərlilərin Naxçıvan tarixində tanınmış tayfa olduğunu vurğulayıb və tarixi fotolar arasında Fikrət bəy Kəngərlini tanıdığını bildirib. O qeyd edib ki, "kaş ki daha çox vaxtım olardı və Naxçıvandakı bütün tarixi arxiv materiallarını tədqiq edə bilərdim".







Naxçıvan şəhərindəki tarixi abidələrlə yanaşı, Culfa rayonunda da qonaq olan professor İlbər Ortaylı hürufilik təriqətinin əsasını qoymuş sufi alim, şair, filosof Fəzlullah Nəiminin Xanəgah kəndi yaxınlığında yerləşən orta əsrlər dövrünə aid türbəsini də ziyarət edib. Həmçinin Əlincə qalanın şərq yamacında inşa edilən XV əsrə aid Əmirxan türbəsində olub. Kəndin ecazkar gözəlliyi və bu günədək qorunub saxlanan tarixi abidələri onun diqqətini cəlb edib.

Daha sonra Ordubad rayonu ərazisində Zəngəzur dəhlizinə açılan qapı – Kotam kəndini gəzən professor ərazinin tarixən çox önəmli, xüsusi strateji məkan olduğunu bildirib. Həm də əsrlərboyu bu torpaqların tarixi şəxsiyyətlər yetirdiyini qeyd edib.

Professor gəzinti zamanı Ordubad şəhərinin qədim məhəllələrindən olan Sərşəhər meydanını gəzib, eyniadlı məscid, bulaq və həmin meydandakı tarixiliyi özündə ehtiva edən evlər və digər tikililərlə yaxından tanış olub. İlbər Ortaylı Ordubadda olmağı çoxdan arzuladığını bildirib. Tarixçi-alim: "Bu gün qoca çinarın altında oturub tarixi irsi özündə əks etdirən evlərin əhatəsində dayanmaq, təbii ki, insana nostalji hisslər bəxş edir. Burada olub buranın adət-ənələrini və memarlıq quruluşunun dərindən bilmək lazımdır" – deyə söyləyib. Eləcə də Sərşəhər meydanında olarkən professor şəhər sakinləri və oradakı qonaqlarla maraqlı söhbət edib, xatirə şəkilləri çəkdirib.

Günün sonunda Ordubad mətbəxinə aid kulinariya nümunələrinin dadına baxan görkəmli elm xadimi Azərbaycan ənənələrini, mədəni inkişafı qədimdə olduğu kimi saxlayan Naxçıvanın bundan sonra da mədəni irsi ilə inkişafını davam etdirəcəyini ifadə edib.

# Bir kampus, bir dünya – Naxçıvan Dövlət Universiteti



Uzaqlıq – bir məsafə deyilmiş. Bəzən səssiz-sədasız bir şəhərdə elə güclü bir səs ucalır ki, dünyanın hər tərəfinə yayılır. Bəzən coğrafi sərhədlərin içində, ruhun sərhədsizliyini sübut edən bir ocaq alışır. Naxçıvan Dövlət Universiteti – adı sakit, özü gur bir universitet...

Deyirlər, Naxçıvan bağlı diyardır. Amma heç kim görmək istəmir ki, bağlı diyarlardan da yollar açılar – göylərə, qitələrə, ürəklərə…

Bu gün o auditoriyalarda bir tək Naxçıvanlı gənclər yox, Kamerundan gəlmiş Musa, Pakistanlı Amina, Tacikistandan gəlmiş Zəhir, Seneqallı Fatima da əyləşir. Onlar buraya sadəcə diplom almağa gəlməyib. Onlar səssiz çağırışı eşidib gəliblər – "Gəlin, burada bir yurd var, bir ümid var" çağırışını.

Bəzən bir salam, bir vətən qədər isti olur...

Kampusun həyətində qarşına çıxan bir qara dərili tələbənin Azərbaycan dilində "Salam, necəsiz?" deməsi insanda qəribə bir kövrəklik yaradır. Bir insan necə bu qədər uzaqdan gəlib, bu torpağı bu qədər tez sevə bilər? Axı o, bu dağları tanımır, bu küçələrdə böyüməyib. Amma bu gün o, "mən buradayam" deyirsə – bu, artıq təkcə təhsil deyil, tənhalığın tərki, mənsubiyyətin başlanğıcıdır.

Ən gözəli də odur ki, bu tələbələr burada əcnəbi yox, "bizimkilər" olurlar. Çünki NDU-da ürəklər milliyyət tanımır. Burada adlar fərqli olsa da, arzular eynidir – öyrənmək, yüksəlmək, faydalı olmaq.

Erasmusla gedən tələbə, vətənə qayıdan aydın

Bu universitetin pəncərələrindən yalnız Araz görünmür – oradan Berlin, Praqa, Varşava, İstanbul da görünür. Erasmus+ layihələri ilə Avropaya yollanan tələbələr qayıdarkən çamadanlarında yalnız kitab gətirmirlər. Onlar fikirlərini dəyişdirirlər, perspektivlərini genişləndirirlər və ən əsası – NDU-ya bir dünya baxışı gətirirlər.

Çünki bu universitet artıq yerli bir elm məkanı yox, beynəlxalq bir düşüncə laboratoriyasıdır. Bəziləri hələ də "region universiteti" deyib kiçiltməyə çalışsa da, bu ocaq yüksəklərdən danışır.

Ana qucağı kimi isti auditoriyalar

Bu şəhərdə soyuq qışlar olur, bəzən şaxtalar əlləri üşüdür. Amma NDU-nun auditoriyaları elə istilik yayır ki, ən uzaqdan gələn qəlblər belə donmur. Müəllimlərin baxışlarında ata nəvazişi, tələbə yoldaşlarının gülüşündə qardaşlıq gizlidir.

Burada öyrənilənlər təkcə fənlər deyil. Burada insanlar bir-birinə qaynayır, millətlər dostlaşır, mədəniyyətlər qardaşlaşır.

Bir gün Fatima da yazacaq...

Bəlkə bir gün Seneqallı Fatima öz ölkəsinə qayıdacaq və orada Naxçıvandan danışacaq:

"Orada günlər qısa idi, amma sıxılmağa vaxt yox idi. Orada çaylar soyuq, amma ürəklər isti idi. Orada mən qonaq deyildim, orada mən evdə idim..."

Bax, bu cümlə üçün yaşayır bu universitet.

Uzaqda, amma ümidə yaxın...

NDU – təpələrin qoynunda, səssiz çayların yanındadır. Amma onun səsi dünyanın universitetlərini oyadır. O, bir kampus deyil – bir çağırışdır. Deyir: "Gəlin! Elm üçün, sülh üçün, birlik üçün gəl!"

Və biz bilirik – bu universitet hələ çox yol gedəcək. Hələ çox Fatima, çox Musa, çox Amina, çox Zəhir buradan keçəcək. Və onların hər biri Naxçıvanı öz daşıdığı ölkəyə aparacaq.

Uzaqda bir universitet var...

Və o, yaxın gələcək üçün işıq saçır.

*Məhərrəm Tağızadə*

# NDU-nun rektoru Elbrus İsayev Türkiyədə “Dədə Qorqud” dastanına həsr olunmuş beynəlxalq konfransda iştirak edib

10 oktyabr tarixində Azərbaycanın Qarsdakı Baş Konsulluğu, “İğdır Azərbaycan Evi”, eləcə də İğdır Universiteti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Türkiyənin İğdır Universitetində “Dədə Qorqud” dastanına həsr olunmuş beynəlxalq konfrans keçirilib.

Konfransda Azərbaycanın İğdırdakı baş konsulu Zamin Əliyev, İğdır vilayətinin valisi Ercan Turan, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və İğdır Universitetinin rektoru Ekrem Gürel iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən vali Ercan Turan “Dədə Qorqud” dastanını oğuz türklərinin “mədəni kodu” adlandırıb. “İğdır adı elə oğuz tayfalarından birinin adından yaranıb. Dastandakı rəvayətlər və mahnılarda təbliğ edilən dəyərlər bu günədək öz əhəmiyyətini itirməyib” – deyə vali qeyd edib. O, türk xalqlarının güclənməsi yolunun birliyə və həmrəyliyə aparan yoldan keçdiyini vurğulayıb. E.Turan Türkiyə və Azərbaycan prezidentləri arasında mövcud sıx əməkdaşlıq və dialoqu “bölgədə sülhün və sabitliyin təminatı” adlandırıb.







Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək “Dədə Qorqud”un Türk dünyasını birləşdirən unikal irs olduğunu diqqətə çatdırıb və onun tədqiqini, bu mövzuda əsərlərin yazılmasını, kitabların nəşrini bütün türk dünyası üçün töhfə olacağını vurğulayıb. Eləcə də, “Dədə Qorqud kitabı”nı təkcə türk epik irsinin deyil, ümumdünya dastan yaradıcılığı üçün misilsiz mənbə adlandıran rektor Elbrus İsayev gəncləri zamanın sınağından çıxmış bu məşhur dastanı hərtərəfli öyrənməyə və yüksək dəyərləndirməyə çağırıb.

İğdır Universitetinin rektoru Ekrem Gürel çıxışında “Dədə Qorqud” dastanının əhəmiyyətindən bəhs edib. Rektor Ekrem Gürel: “Səmimi qəlbdən inanıram ki, Türkiyə və Azərbaycanın tanınmış alimlərinin iştirakı ilə keçirilən bu konfransın nəticələri ədəbiyyat, tarix, dilçilik, incəsənət və sosiologiya da daxil olmaqla, bir çox sahələrdə yeni uğurlu başlanğıclara təkan verəcək” – deyə vurğulayıb.

Azərbaycanın Qarsdakı baş konsulu Zamin Əliyev “Dədə Qorqud” dastanının beynəlxalq səviyyədə tanınmış bir əsər olduğunu vurğulayıb. O qeyd edib ki, “Dədə Qorqud kitabı” UNESCO-nun bəşəriyyətin Qeyri-maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib. “Dastanın beynəlxalq səviyyədə tanınması bizim üzərimizə məsuliyyət qoyur. Türkiyə və Azərbaycanın ortaq tarixi və mədəni kökləri bizi eyni ailənin üzvlərinə çevirir”, – deyə Z.Əliyev qeyd edib.

“İğdır Azərbaycan Evi”nin rəhbəri Ziya Zakir Acar çıxışında bildirib ki, “Dədə Qorqud” dastanı təkcə Azərbaycanda deyil, Türkiyədə də nəsildən-nəslə öyrənilib və yaşadılıb. “Bu əsər Türkiyə ictimaiyyətinə, xüsusən də İğdır əhalisinə yaxşı tanışdır. Türk milli kimliyini formalaşdıran əsas dəyərlər olan ailə, torpaq sevgisi, igidlik, qonaqpərvərlik, böyüyə hörmət, kiçiyə qayğı bütün bunların hamısı ‘Dədə Qorqud’un səhifələrində öz əksini tapır”, – deyə o vurğulayıb.

Sonda beynəlxalq tədbirin fəxri qonağı, Azərbaycan Dillər Universitetinin rektoru professor Kamal Abdullanın 75 illik yubileyinə həsr olunmuş videoçarx təqdim olunub.

Tədbir Azərbaycan və Türkiyə alimlərinin iştirakı ilə iki sessiya ilə işini davam etdirib.

*Fəxriyyə Səyyadova*

# NDU-nun rektoru Elbrus İsayev beynəlxalq forumda iştirak edib

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycan və Özbəkistan arasındakı 30 illik diplomatik əlaqələrə həsr olunmuş forumda iştirak edibNaxçıvan Dövlət Universitetinin (NDU) rektoru Elbrus İsayev, Azərbaycan və Özbəkistan arasında diplomatik əlaqələrin 30 illiyinə həsr olunmuş "Diplomatiya körpüsü kimi təhsil: Özbəkistan-Azərbaycan akademik və mədəni əməkdaşlığının 30 illiyinin qeyd edilməsi" adlı beynəlxalq forumda iştirak edib. Forum onlayn formatda təşkil olunub və NDU-dan 30-a yaxın əməkdaş tədbirə qoşulub. Forumda çıxış edən rektor Elbrus İsayev, iştirakçılara salamlarını çatdıraraq bildirib ki, bu günlərdə türk dövlətləri birgə böyük uğurlara imza atır və bu birlik elm adamlarına yeni vəzifələr yükləyir. O, akademik forumların təşkilinin ölkələr arasındakı strateji əməkdaşlığa müsbət təsir göstərdiyini vurğulayıb və görüşü Özbəkistan və Azərbaycan alimlərinin bir araya gəlməsi baxımından mühüm bir təşəbbüs kimi qiymətləndirib. Rektor, həmçinin, Naxçıvan Dövlət Universitetinin Özbəkistan universitetləri ilə birgə həyata keçirdiyi ortaq konfransları və perspektivdəki əməkdaşlıq planlarını diqqətə çatdırıb. "Bu il ərzində bir neçə dəfə Özbəkistan universitetləri ilə ortaq konfranslarda iştirak etmişik. Gələcəkdə dövlətlərimiz arasındakı təhsil prioritetləri çərçivəsində görüşlərin keçirilməsi və birgə araşdırma mərkəzinin yaradılması planlaşdırılır" – deyə o əlavə edib. Forumun əhəmiyyətini qeyd edən rektor, bu cür tədbirlərin, həmçinin, Azərbaycan və Özbəkistan arasında ədəbi və mədəni əlaqələri möhkəmləndirəcəyini və türkdilli ölkələr arasında təhsil, elm və tədqiqat sahələrində əlaqələrin daha da inkişaf etdiriləcəyini vurğulayıb.



# “Dövlət suverenliyi və milli birliyin qorunmasının ideoloji əsaslarının təhlili” mövzusunda panel müzakirə

“Konstitusiya və Suverenlik İli” çərçivəsində Bakı Politoloqlar Klubu və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Dövlət suverenliyi və milli birliyin qorunmasının ideoloji əsaslarının təhlili” mövzusunda panel müzakirə keçirilib. Naxçıvan Dövlət Universitetində baş tutan tədbirdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin deputatları, yerli professorlar, ziyalılar, ali təhsil ocağının müəllim və tələbə heyəti iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin “Ümumi hüquq” kafedrasının müəllimi Əziz Qasımovun moderatorluğunda keçirilən tədbirdə konstitusiya və suverenlik anlayışının sosial-hüquqi mahiyyətindən, dövlət suverenliyi və milli birliyin sarsılmaz dayaqlarından, eləcə də, müstəqillik illərində Azərbaycanın inkişaf strategiyasında xüsusi yer tutan dövlət gənclər siyasətində ideoloji əsaslara dair panel iştirakçılarına çıxış üçün suallar ünvanlanıb və mövzular ətrafında geniş fikir müzakirəsi aparılıb.





Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, bu il xüsusilə əlamətdardır, çünki, ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunmasının 5-ci, müstəqil dövlətçiliyimizin hüquqi əsası olan Konstitusiyanın qəbulunun isə 30-cu ildönümünü qeyd edirik. Rektor qlobal informasiya müharibələrinin, ideoloji təxribatların və hibrid təhlükələrin artdığı bir dövrdə milli birliyin möhkəmlənməsində bu kimi maarifləndirmə tədbirlərinin təşkilinin mühüm aktuallıq daşıdığını qeyd edib. Xüsusilə sərhədyanı və strateji bölgələrdə, o cümlədən Naxçıvanda belə görüşlərin olmasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Elbrus İsayev: “Ali təhsil ocağında keçirilən bu cür elmi-ideoloji müzakirələr gənclərin milli şüurunun formalaşmasına, onların dövlətçilik prinsiplərinə sədaqətinin güclənməsinə və milli ideoloji immunitetin möhkəmlənməsinə xidmət edir”- deyə, əlavə edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Arzu Abdullayev çıxış edərək qeyd edib ki, cənab Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının 30 illiyini və Vətən müharibəsində qazanılan tarixi zəfərimizin 5 illiyini özündə səciyyələndirir. Bu Sərəncam həm də əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan dövlətçilik ənənələrinin, milli maraqlarının, strateji hədəflərinin ümumilikdə konsepsiyasını təşkil edir. Arzu Abdullayev bildirib ki, dövlət suverenliyinin qorunması yalnız siyasi və hüquqi müstəvidə deyil, eyni zamanda mənəvi və ideoloji baxımdan da olduqca mühüm məsələdir. Bu çərçivədə hər bir vətəndaş, xüsusilə gənclər milli dəyərlərin, tarixi yaddaşın və vətənpərvərlik ruhunun qorunması üçün fəal mövqe sərgiləməlidirlər. Sədr müavini bu kimi müzakirələrin gənc nəslin milli dəyərlərə, tarixi irsə və dövlətçilik ideallarına bağlılığını möhkəmləndirmək üçün olduqca uğurlu fəaliyyət adlandırıb. O, gəncləri müasir informasiya məkanında ayıq-sayıq olmağa, milli kimliyimizi, mənəvi bütövlüyümüzü və dövlət maraqlarını qorumağa çağırıb.




Milli Məclisin deputatı Vüqar Rəhimzadə ideoloji çağırışlar, informasiya təhlükəsizliyi və dövlətin ideoloji siyasətinin həyata keçirilməsi mexanizmləri barədə ətraflı çıxış edib. Vurğulanıb ki, Azərbaycan xalqı və dövləti uzun əsrlərdən sonra tarixi ədaləti bərpa edərək işğala son qoyub, ərazi bütövlüyünü təmin edib. Bu nailiyyətlər təkcə hərbi qələbə ilə məhdudlaşmayıb, həm də diplomatik, siyasi və iqtisadi sahələrdə aparılan kompleks siyasətin nəticəsi olaraq qazanılıb. Vüqar Rəhimzadə hazırda informasiya müharibələrinin geniş vüsət aldığı şəraitdə Azərbaycan dövlətinin həyata keçirdiyi ideoloji və media siyasətinin milli maraqların müdafiəsində mühüm rol oyndığını diqqətə çatdırıb. Milli Məclisin deputatı gənc nəslin milli ideologiyaya sadiq, vətənpərvər və informasiya savadlılığına malik şəkildə yetişdirilməsinin dövlətin uzunmüddətli strateji məqsədlərindən biri olduğunu əlavə edib.

Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov hazırki çağırışlar fonunda milli birliyin vacib amil olduğunu və bu kimi görüşlərin həmsərhəd bölgələrdə keçirilməsinin siyasi – ideoloji mahiyyətindən söz açıb. Politoloq qloballaşma dövründə informasiya məkanında baş verən proseslərin təkcə sosial şüura deyil, həm də dövlətlərin siyasi sabitliyinə birbaşa təsir göstərdiyini qeyd edib. O, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən ideoloji siyasətin əsas istiqamətlərindən bəhs edərək ölkəmizin bu mövzuda dünyada özünəməxsus yer tutduğunu xüsusilə vurğulayıb. Eləcə də, vətəndaş – dövlət həmrəyliyi kimi dəyərlərin qlobal informasiya mühitində qorunmasının strateji əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıb və gələcəyimiz olan gənclərin özlərində bu gündən fəal vətəndaşlıq mövqeyi formalaşdırması gərəkdiyini vurğulayıb.

Sonra panel müzakirədə qeyd olunan mövzulara dair tədbir iştirakçılarının sualları cavablandırılıb, sonda xatirə fotosu çəkdirilib.

*Kifayət Mahmudova*
*NDU Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

# NDU-da “Psixoloji xidmət və uşaq inkişaf mərkəzi”nin açılışı olub

Naxçıvan Dövlət Universitetində “Psixoloji xidmət və uşaq inkişaf mərkəzi”nin açılışı olub.



Universitetin rektoru Elbrus İsayev çıxış edərək qeyd edib ki, “Psixoloji xidmət və uşaq inkişaf mərkəzi”nin açılışı yüksəkixtisaslı psixoloq kadrların hazırlanması üçün olduqca önəmlidir. Çünki, universitetdə 2021-ci ildən bakalavriat səviyyəsində

“Psixologiya” ixtisası, magistratura səviyyəsində isə 2025-2026-cı tədris ilindən “İnkişaf psixologiyası” ixtisaslaşması üzrə kadr hazırlığı aparılır. Rektor ali təhsil ocağında bütün istiqamətlərdə olduğu kimi, “Psixologiya” ixtisasının da xüsusilə diqqətdə olduğunu, bu istiqamətdə yeniliklərin izlənildiyini vurğulayıb. Bildirilib ki, bu gün açılışı keçirilən Mərkəz də zəngin maddi-texniki baza ilə təchiz olunub və tələbələr bu imkanlardan yararlanaraq həm tədris prosesində, həm də dərsdənkənar məşğələlərdə müxtəlif simuliyasiyalar təşkil etməklə praktik bacarıqlar əldə edə bilərlər. Elbrus İsayev həmçinin akademik bilgilərin də zənginləşməsi üçün keçirilən tədbirlərdən söz açıb, xüsusilə ilk dəfə Naxçıvan Dövlət Universitetində keçirilən Azərbaycan Psixoloqlarının I Forumunu diqqətə çatdırıb. Vurğulanıb ki, həm təşkilatı tədbirlər, həm bu gün açılışı olan mərkəz demayə əsas verir ki, bu istiqamətdə əldə olunan nəticələr NDU-da Psixologiya ixtisasında tədrisin keyfiyyətini daha da yüksəltməklə yanaşı, ümumilikdə, ölkədə bu sahənin inkişafına dəstək olacaq.



Magistratura və doktorantura mərkəzinin direktoru, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev Mərkəzin yaradılması məqsədi və fəaliyyət istiqamətləri haqqında məlumatları diqqətə çatdırıb. Qeyd olunub ki, psixoloji xidmət və tədris məqsədli qurulan mərkəzdə iki istiqamətdə xidmət aparılması planlaşdırılır. Mərkəz daxilindəki “Psixoloji konsultasiya” otağında psixoloji dəstəyə ehtiyacı olan universitet kollektivinə psixoloji xidmət göstəriləcək. “Uşaq inkişaf mərkəzi”ndə isə “Psixologiya” ixtisasında təhsil alan tələbələrin tədrisinin praktik əsaslarla aparılmasını təmin etmək imkanı olacaq.

Naxçıvan Dövlət Universitetinin psixoloqu Nuranə Səlimova isə “Uşaq inkişaf mərkəzi”nin fəaliyyəti, mərkəzdə mövcud olan avadanlıqlar haqqında məlumat verib.

Qeyd olunub ki, burada diqqət əksikliyi olan və hiperaktiv uşaqlara yardım məqsədli “Play Attention” aparatı, müxtəlif fobiyaları və adaptasiya problemlərini aradan qaldırmaq məqsədilə “Virtual reallıq” aparatı, nitq problemi olan uşaqlara inkişafetdirici dəstək məqsədilə “Forbrain” aparatı və uşaqlarda sensor adaptasiya, müxtəlif psixoloji inkişaf ləngimələrini aradan qaldırmaq üçün müxtəlif vəsaitlər var.



Qeyd edək ki, tədbirdən sonra rektor Elbrus İsayevin “Psixologiya” ixtisasının tələbələri ilə görüşü olub, tələbələrin təklifləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

# Xalq artisti Mənsum İbrahimova Naxçıvan Dövlət Universitetinin "Fəxri professoru" diplomu təqdim olunub

Oktyabrın 8-də Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Xalq artisti Mənsum İbrahimov və sənətkarın 65 illik yubileyi çərçivəsində Naxçıvanda konsert proqramı ilə çıxış edəcək nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikasının Xalq artisti Elçin Həşimov, Əməkdar artistlər Elnur Əhmədov, Nuriyyə Hüseynova, Təyyar Bayramov, Elnur Zeynalov, Muğam Televiziya müsabiqəsinin qalibi Güllü Muradova, həmin müsabiqənin laureatı Gülzar Fərəcova və universitetin rəhbər şəxsləri iştirak ediblər.

Rektor Elbrus İsayev qonaqları salamlayıb, dəvəti qəbul edib iştirak etdikləri üçün təşəkkürünü bildirib.





Rektor "Şöhrət" və "Şərəf" ordenli, professor Mənsum İbrahimovu 65 illik yubileyi münasibəti ilə təbrik edib, sənətkarın Azərbaycan muğam sənətinin inkişafında müstəsna xidmətlərindən bəhs edib. Elbrus İsayev Xalq artistinin dəfələrlə Univeritetdə qonaq olduğunu xatırladıb, dəyərli sənətkarın professor-müəllim heyəti ilə görüşüb və Universitetin Konservatoriyasında kadr hazırlığında təmənnasız dəstək olduğunu, ustad dərsləri keçdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, Mənsum İbrahimovun Azərbaycan muğamının inkişafında xüsusi xidmətləri var və onun zəngin ifaçılıq məktəbi, ustad sənətkarın yetişdirdiyi gənc xanəndələr milli musiqi mədəniyyətimizin gələcəyi üçün xüsusi əhəmiyyət daşıyır.

Görüşdə ali təhsil ocağının kolektivi adından çıxış edən natiqlər Azərbaycan musiqisinin canlı əfsanəsi, Prezident mükafatçısı, Azərbaycan Milli Konservatoriyasının professoru, Muğam kafedrasının müdiri Mənsum İbrahimov ilə ali təhsil ocağındakı görüşün xüsusi və yaddaqalan tarix olduğunu bildiriblər.

Xalq artisti Mənsum İbrahimov görüşdən məmnunluğunu ifadə edib, ölkəmizdə hər zaman mədəniyyət, incəsənət xadimlərinə xüsusi diqqətin, dövlət dəstəyinin olduğunu vurğulayıb. "Muğam mədəniyyət musiqisidir və biz sənətdə illərdir ölkəmizin, Qarabağın səsi olduq " – deyə qeyd edən sənətkar ali təhsil müəssisəsində belə bir görüşün təşkilindən çox şad olduğunu diqqətə çatdırıb. Qalib ölkənin ifaçılarının yetişdirilməsində pay sahibi olmağın böyük qürur olduğunu söyləyən Mənsum İbrahimov: "Məni Naxçıvana bağlayan çox böyük dəyərlər var" – deyə qeyd edib.

Rektor Elbrus İsayev universitetdə milli dəyərlərimizin və onu yaşadan sənətkarların hər zaman əsas tutulduğunu bildirib və ali təhsil ocağının Elmi Şurasının qərarı ilə böyük sənətkar Mənsum İbrahimova "Naxçıvan Dövlət Universitetinin Fəxri professoru" diplomunu təqdim edib, görüşdən xatirə olaraq Azərbaycan milli musiqi alətlərinin yağlı boya ilə çəkilmiş rəsm əsərini hədiyyə edib.



Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı və dəvəti ilə gün sonunda Heydər Əliyev Sarayında Xalq artisti Mənsum İbrahimovun 65 illik yubileyinə həsr olunmuş konsert proqramı təqdim olunacaq.

# "Azərbaycan təsviri incəsənətində Mirzə Qədim İrəvaninin yaradıcılığı" mövzusunda elmi-praktik konfrans və sərgi keçirilib

Naxçıvan Muxtar Respublikası Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan MR Rəssamlar



Birliyinin təşkilatçılığı ilə Mirzə Qədim İrəvaninin 200 illik yubileyinə həsr olunmuş "Azərbaycan təsviri incəsənətində Mirzə Qədim İrəvaninin yaradıcılığı" mövzusunda elmi-praktik konfrans və sərgi keçirilib.

Öncə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Dövlət Himni səsləndirilib.

Konfransı giriş sözü ilə açıq elan edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva tədbirin mahiyyətindən geniş söz açıb. Bildirilib ki, görkəmli rəssam Mirzə Qədim İrəvani Azərbaycan dəzgah boyakarlığının banisidir, eləcə də, yaradıcılığında bir çox sahələri klassik Şərq miniatürü və qədim xalq sənətinin zəngin ənənələrini, Avropa realist boyakarlığının nailiyyətlərini ahəngdar şəkildə vəhdət edərək orijinal üslub formalaşdırmışdır. Vurğulanıb ki, Azərbaycan mədəniyyətinə daim böyük diqqət göstərən Ümummilli Lider Heydər Əliyevin, dahi liderin siyasi irsini davam etdirən ölkə başçısı cənab İlham Əliyevin Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd edilməsi haqqında 2025-ci il 14 fevral tarixli Sərəncamı Azərbaycanın bu görkəmli rəssamının sənətinə və şəxsiyyətinə hörmətin ifadəsi kimi bütün sənətsevərlərin sevincinə səbəb olub.

AMEA Naxçıvan Böməsinin sədri, akademik İsmayıl Hacıyev Mirzə Qədim İrəvani kimi yaradıcı insanların fəaliyyətlərinin araşdırılmasında xüsusi rol oynayan dövlət dəstəyindən söz açıb, 50 il ömür yaşamış rəssamın dərin sənət yolunun bu gün də yaradıcı sənət adamlarının əsərlərində öz əksini tapdığında vurğulayıb. Qeyd olunub ki, Mirzə Qədim İrəvani yaradıcılığı, xüsusilə də Azərbaycan memarlığının şah əsərlərindən olan İrəvandakı Sərdar sarayındakı rəsm kompozisiyaları tədqiqatçılarımızın araşdırmalarında, maraq dairəsində hər zaman öz yerini alır.

Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev çıxış edərək Azərbaycan təsviri sənətinin tarixində yeni mərhələnin başlanğıcını qoymuş rəssamın irsindən bəhs edən



faktlardan danışıb. Cənab Prezident İlham Əliyevin Sərəncamının bütövlükdə rəngkarlıq sənətinə, bu məktəbə və eyni zamanda İrəvan ədəbi-mədəni, eləcə də incəsənət mühitinə verilən böyük dəyərin ifadəsi olduğunu vurğulayıb. Elbrus İsayev Sərəncamdan irəli gələn və qarşıda duran fəaliyyətlər çərçivəsində konfrans-sərginin keçirildiyini, bu tədbirin həm də Qərbi Azərbaycana Qayıdış konsepsiyasına bir töhfə olduğunu əlavə edib. Rektor xüsusi olaraq qeyd edib ki, Mirzə Qədim yaradıcı irsini yaşadan nümunələr arasında Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində zərif koloritli naxışlar və ornamentli şəbəkələrlə işlənmiş, bədii-estetik təsir gücünə malik tabloları tələbələrimizin işlərində də görmək sevindirici haldır. Qeyd olunub ki, monumental portret və kompozisiyaların kamil sənət nümunələri kimi yüksək dəyərini qoruyub saxlayan bu ənənə bu gün də kadr hazırlığının inkişafına müsbət təsirini göstərir.

Sonra, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Müəllimlər İnstitutunun kafedra müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva "Mirzə Qədim İrəvani yaradıcılığı miniatürdən realizmə", Naxçıvan Dövlət Universitetinin baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Sevda Xəlilova "Mirzə Qədim İrəvani irsinin yaradıcılıq mərhələləri", AMEA Naxçıvan Bölməsinin İncəsənət, dil və ədəbiyyat İnstitutunun Təsviri və dekorativ-tətbiqi Sənətlər şöbəsinin müdiri Şəmsiyyə Zalova "Milli kimliyini imzasında qürurla daşıyan rəssam", Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Fizzə Quliyeva "Mirzə Qədim İrəvaninin yaradıcılığında Qacar üslubunun interpretasiyası", Naxçıvan Müəllimlər İnstitutunun dosenti, sənətşünas Nizami Aliyev "Mirzə Qədim İrəvani yaradıcılığı" mövzusunda çıxış ediblər.

Sonda "Azərbaycan təsviri sənətində Mirzə Qədim İrəvani yaradıcılığı" adlı sərgi açıq elan olunaraq, baxış keçirilib. Qonaqlardan Türkiyə Respublikasının Naxçıvandakı baş konsulu Asip Kaya, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Tamam Cəfərova



sərgi iştirakçılarını təbrik edib, yaradıcılıq uğurları arzulayıblar. Sərgidə iştirak edən rəssamlara təşəkkürnamələr təqdim ounub.

*Aidə İbrahimova*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU və Referans Naxçıvan Tibbi Mərkəzi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb



Naxçıvan Dövlət Universitetində keçirilən görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev, Referans Naxçıvan Tibbi Mərkəzinin direktoru Ülvi Əkbərov və hər iki qurumun rəhbər şəxsləri iştirak ediblər.

Qarşılıqlı əməkdaşlığın müzakirə olunduğu görüşdə tərəflər perspektivdə planlaşdırılan sahələrdə mövcud təcrübələrin bölüşülməsi, ortaq fəaliyyətlərin aktiv işbirliyinə hədəfləndiyi və uğurlu əməkdaşlığın nəzərdə tutulduğunu ifadə edib. Görüşdən məmnunluq qeyd olunub, kadr hazırlığında keyfiyyətin daha da yüksəldilməsinə, əmək bazarında peşəkar kadrların formalaşmasına təşəbbüskar tərəflər kimi gözləntilərin olduğu vurğulanıb. Həmçinin dövlət-universitet işbirliyi ilə yanaşı, özəl qurumlar ilə əməkdaşlığın da önəminə diqqət edilib.

Memorandum çərçivəsində hər iki tərəf yerli və əcnəbi tələbələrin tibbi müayinələrdə iştirakının təşkil olunması istiqamətində razılığa gəlib. Eyni zamanda Türkiyə Respublikasından və Bakı şəhərindən dəvət olunmuş professorlar, həkimlər və digər tibb mütəxəssislərinin iştirakı ilə universitet daxilində praktiki dərslərin keçirilməsinin təmini yönündə birgə fəaliyyətlər nəzərdə tutulub. Eləcə də tələbələr və əməkdaşlar üçün Referans Tibb Mərkəzinin bütün filial və müəssisələrində tibbi xidmətlərdə güzəştlər və endirimlərin tətbiqi, Tibb fakültəsinin tələbələri üçün klinik baza imkanını təşkil etmək yönündə razılıq əldə olunub.

Tərəflər arasında birgə əməkdaşlıq sahələrində planlaşdırılan ortaq fəaliyyətlərin təşkili, memorandumdan irəli gələn məsələlərin operativ həlli məqsədilə məsul şəxslər təyin edilib, işçi qrupların yaradılmasına qərar verilib.

Sonda Naxçıvan Dövlət Universiteti və Referans Naxçıvan Tibbi Mərkəzi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb, qarşılıqlı hədiyyələr təqdim olunub və birgə xatirə fotosu çəkdirilib.

*Kifayət Mahmudova*
*NDU Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

# NDU-da "Code for Future" layihəsi çərçivəsində infosessiya



Naxçıvan Dövlət Universitetində "Code for Future" Layihəsi Çərçivəsində Görüş və İnfosessiya KeçirilibNaxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, "Alqoritmika" şirkəti və universitetin birgə əməkdaşlığı ilə həyata keçirilən "Code for Future" layihəsi çərçivəsində görüş və infosessiya təşkil olunub.Tədbirdə iştirak edən universitetin rektoru Elbrus İsayev çıxış edərək, tələbələrin peşəkar bacarıqlarının inkişafı və onların pedaqoji fəaliyyətində innovativ texnologiyaların tətbiqinin vacibliyini vurğulayıb. O, layihənin səmərəli əməkdaşlıq çərçivəsində universitet üçün faydalı nəticələr verəcəyinə ümid etdiyini qeyd edib. "Code for Future" layihəsinin rəhbəri Nəzrin Əliyeva layihənin məqsəd və istiqamətləri barədə təqdimatla



çıxış edərək iştirakçılara ətraflı məlumat verib. Layihə, gələcək müəllimlərin peşəkar inkişafına dəstək vermək və onların müasir texnologiyalarla tanış olmalarını təmin etməyi məqsədini güdür.Layihə çərçivəsində, "Riyaziyyat və informatika müəllimliyi" ixtisası üzrə təhsil alan 50 tələbə, "Proqramlaşdırma dilləri: Python və Rəqəmsal Bacarıqlar" adlı iki əsas tədris proqramı üzrə intensiv kurslara cəlb olunacaq. Görüşün ardından, universitetin "Riyaziyyat və informatika müəllimliyi" ixtisasının IV və V kurs tələbələri üçün infosessiya keçirilib. Sessiyada tələbələr, layihə çərçivəsində keçiriləcək kurslar, onların məzmunu və gələcək imkanlar barədə məlumatlandırılıb, həmçinin interaktiv müzakirələr aparılıb.



# Beynəlxalq təqaüd proqramının qalibi olan tələbələrlə görüş

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ali təhsil ocağının "Türkiyə Bursları" proqramı çərçivəsində beynəlxalq təqaüd imkanı qazanan tələbələri ilə görüşüb. O, 11 tələbənin 2025-2026-cı tədris ilinin ilk semestrində Türkiyənin nüfuzlu ali təhsil müəssisələrində beynəlxalq təqaüd proqramında iştirak hüququ qazanmasını yüksək qiymətləndirib. Vurğulanıb ki, bu uğur yalnız fərdi bilik və bacarıqların göstəricisi deyil, eyni zamanda universitetdə beynəlmiləlləşmə istiqamətində görülən işlərin real nəticəsidir. Eləcə də, tələbələrin beynəlxalq təhsil mühitinə çıxışı universitet üçün həm akademik, həm də strateji baxımdan önəmlidir.

Görüş zamanı tələbələr də onlara göstərilən etimada və dəstəyə görə təşəkkürlərini bildiriblər. Onlar mübadilə proqramı çərçivəsində qazanacaqları beynəlxalq təcrübənin gələcək karyeralarında mühüm rol oynayacağını qeyd ediblər.

Naxçıvan Dövlət Universitetində tələbələrin beynəlxalq təhsil imkanlarından yararlanması üçün geniş əməkdaşlıq əlaqələri var. Bu fəaliyyətlərin nəticəsidir ki, akademik göstəricilərə əsasən seçilən 11 tələbədən 10-u Hacettəpə Universitetində, 1-i isə İstanbul Universiteti – Cərrahpaşada təhsil alacaqlar.





Qeyd edək ki, Türkiyə uzun illərdir dünyanın müxtəlif ölkələrindən gələn tələbə və tədqiqatçılara təqaüd imkanları təqdim edir. 2012-ci ildən "Türkiyə Bursları" adı ilə tanınan proqram Yurtdışı Türklər və Akraba Topluluklar Başkanlığının (YTB) koordinatorluğu ilə həyata keçirilir. Proqram Türkiyə Bursları, Yükseköğretim Kurulu, Kredi və Yurtlar Genel Müdürlüğü, Göç İdaresi Başkanlığı və Dışişleri Bakanlığı kimi aidiyyəti qurumlarla əməkdaşlıq çərçivəsində icra olunur.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*



# NDU-nun Beynəlxalq Kembric Məktəbinin akademik heyəti üçün təlim keçirilib

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbinin akademik heyətinin peşəkar inkişafını dəstəkləmək məqsədilə təlim təşkil olunub.

Təlim Bakı-Oksford məktəbindən dəvət edilmiş, Kembric kurikulumu üzrə ixtisaslaşmış, həmin məktəbin tam orta təhsil üzrə direktor müavini və kurikulum rəhbəri Dr. Rəna Ələsgərova tərəfindən aparılıb.

Təlimin əsas məqsədi müəllim heyətinin Kembric metodologiyası, tədris sistemi və imtahan standartları haqqında biliklərini daha da dərinləşdirməkdir. Təlimdə Beynəlxalq Kembric Məktəbinin hazırkı və bu ildən fəaliyyətə başlayan ümumilikdə 20-dən çox müəllimi iştirak edib.

Təlim zamanı effektiv dərs planlaşdırılması, Kembric standartlarına uyğun formativ və summativ qiymətləndirmə, Kembric imtahanlarının keçirilmə prosesi, ümumi Kembric resurslarının tətbiqi və Kembric platformasından səmərəli istifadə mövzuları müzakirə edilib.

Qeyd edək ki, iki gün davam edən təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# NDU-da tanınmış dilçi alim, professor Mahirə Hüseynovanın 65 illik yubileyi qeyd olunub

*Naxçıvan Dövlət Universitetində filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, Prezident təqaüdçüsü, tanınmış şairə Mahirə Hüseynovanın 65 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.*





Tədbirdən öncə Universitetin Konservatoriyasının önündə "Şərur" Xalq Yallı Ansamblının ifasında yallı xalq rəqsləri təqdim olunub.

Tanınmış dilçi professorun həyat və yaradıcılığına həsr olunmuş tədbirdə ictimaiyyət nümayəndələri, mədəniyyət və elm xadimləri, ziyalılar, Yazıçılar Birliyinin əməkdaşları, universitetin professor-müəllim heyəti, tələbələr və yubilyarın ailə üzvləri iştirak ediblər.

Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarovun moderatorluğunda keçirilən tədbirdə professor Mahirə Hüseynovanın həyatı, elmi və bədii yaradıcılığına dair məlumatlar diqqətə çatdırılıb.

Tədbirin rəsmi hissəsində açılış nitqi ilə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev dəyərli elm xadimi Mahirə Hüseynovanı zəngin elmi irsi, səmərəli pedaqoji fəaliyyəti və yüksək insani keyfiyyətləri ilə seçilən alim olaraq səciyyələndirib. Qeyd edilib ki, o, uzun illər ərzində Azərbaycan dilçiliyinin inkişafında xidmətləri olan dəyərli pedaqoq, tanınmış ictimai xadim və məhsuldar şairədir. Rektor Naxçıvan Dövlət Universitetinin "Fəxri professor"u Mahirə Hüseynovaya ali təhsil ocağına verdiyi töhfələrə görə öz dərin təşəkkürlərini bildirib, həmçinin dəyərli alim Mahirə Hüseynovanın NDU-da keçirilən tədbirlərdə iştirakını əks etdirən foto və məlumatların yer aldığı xatirə kitabı və rəsm əsəri hədiyyə edib. Elbrus İsayev yubilyarı təbrik edib, cansağlığı və gələcək elmi fəaliyyətində uğurlar arzulayıb.







Sonra yubilyarın elmi və pedoqoji fəaliyyəti ilə bağlı məruzələr dinlənilib. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar dəyərli şairə Mahirə Hüseynovanın bədii yaradıcılığından nümunələri yada salaraq, ideya, dil və üslub xüsusiyyətlərindən söz açıb. Filologiya elmləri doktoru, professor Sədaqət Həsənova dilçi alimin elmi-nəzəri baxışlarından danışıb, seçilmiş şeirlərini səsləndirərək yubilyarın müasir Azərbaycan filologiya elmində və poeziyasında öz dəstixətti ilə seçildiyini diqqətə çatdırıb. Filologiya üzrə fəlsəfə doktoru, dosent Aypara Behbudova isə bir çox elmi əsərlərin və bədii kitabların müəllifi olan Mahirə xanımın dilçilik elminə gətirdiyi yeniliklərdən bəhs edib, şeirlərindən parçalar səsləndirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar Rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın təbrik çıxışları dinlənilib. Natiqlər yubilyara təbriklərini çatdırıb, hədiyyələr təqdim ediblər. Həmçinin AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası adından professor Mahirə Hüseynovanın çoxşaxəli elmi fəaliyyəti yüksək dəyərləndirilərək fəxri fərmanlar təqdim olunub.





Azərbaycan Respublikasının "Qabaqcıl təhsil işçisi" döş nişanı, "Qızıl qələm" Media Mükafatı Laureatı, "İlin Alimi" Media Mükafatı Laureatı kimi bir çox diplom və mükfatlara layiq görülən dilçi professor Mahirə Hüseynova pedaqoji və bədii yaradıcılığına göstərilən yüksək diqqətə görə təşəkkürünü bildirib.

Tədbir universitet tələbələrinin və "Turan" Ansamblının təqdimatında bədii proqramla davam edib. Sonda Azərbaycan Respublikasının Xalq artisti Gülyanaq Məmmədovanın tədbirdə iştirakı, "Mən bu ömrü elə belə yaşadım" və "Azərbaycan" mahnılarını ifa etməsi isə bütün tədbir iştirakçılarında xoş təəssürat yaradıb.

# Naxçıvanda Xalq artisti Mənsum İbrahimovun 65 illik yubileyi konsert proqramı ilə qeyd olunub



Naxçıvanda Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin dəvəti və təşkilatçılığı ilə Azərbaycan Respublikasının Xalq artisti, “Şöhrət” və “Şərəf” ordenli xanəndə, professor Mənsum İbrahimovun 65 illik yubileyinə həsr olunmuş konsert proqramı təqdim olunub.

Konsert proqramında dövlət, hökumət rəsmiləri, Ali Məclisin deputatları, şəhid ailələri, qazilər, mədəniyyət və incəsənət xadimləri, Yazıçılar Birliyinin əməkdaşları və digər təşkilatlar, ziyalılar və şəhər ictimaiyyəti qonaq qismində iştirak ediblər.

Öncə Xalq artisti Mənsum İbrahimovun həyatı və səhnə fəaliyyətini əks etdirən videoçarx təqdim olunub.

Tədbirin rəsmi hissəsində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Xalq artisti Mənsum İbrahimovu 65 illik yubileyi münasibəti ilə təbrik edib, sənətkarın Azərbaycan musiqi mədəniyyətinə bəxş etdiyi zəngin töhfələrdən söz açıb. Dövlətin ən ali mükafatlarına layiq görülən görkəmli sənətkara Universitetin Elmi Şurasının qərarı ilə “Fəxri professor” diplomunun da təqdim olunduğunu diqqətə çatdırıb. Elbrus İsayev yubilyara görüşdən xatirə plaketi və NDU-nun Konservatoriyasının “Qədim musiqi alətləri emalatxanası”nda hazırlanan qədim “Çovur” musiqi alətini hədiyyə edib.





Muğam sənətinin görkəmli nümayəndəsi, müxtəlif dövrlərdə dörd dəfə Prezident mükafatına, 2024-cü ildə “Heydər Əliyevin 100 illiyi (1923–2023)” yubiley medalına, UNESCO səviyyəsində “Yaşayan insan xəzinəsi” adına layiq görülən sənətkar Mənsum İbrahimov muğam sənətinin inkişafında və təbliğində göstərilən dövlət dəstəyindən danışıb. Sənətkar xüsusilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən böyük layihələrin, muğam müsabiqələrinin müstəsna rolunu qeyd edib və “Bu gün muğam yeni dövrünü yaşayır” - deyə vurğulayıb. Yubilyar Naxçıvan tamaşaçılarını sevdiyini, burada olmaqdan məmnunluğunu ifadə edərək tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

Konsert proqramının bədii hissəsində tarda Xalq artisti Elçin Həşimov, kamançada Əməkdar artist Elnur Əhmədovun müşayiəti ilə Azərbaycan Respublikasının Əməkdar artistləri Nuriyyə Hüseynova, Təyyar Bayramov, Elnur Zeynalov, Muğam Televiziya müsabiqəsinin qalibi Güllü Muradova və həmin müsabiqənin laureatı Gülzar Fərəcovanın ifasında musiqi nömrələri dinlənilib. Eləcə də, NDU-nun gənc və istedadlı müəllimləri zərb alətlərində Nəcəf Hacılı, nağarada Munis Əliyev və sintezatorda Səxavət Rəhimovun müşayiəti ilə sənətkar Mənsum İbrahimovun repertuarında yer alan bir-birindən zəngin xalq mahnıları və muğamlardan ifa olunan parçalar alqışlarla qarşılanıb, tamaşaçılarda dərin təəssürat yaradıb.

Tədbir çərçivəsində Naxçıvan ziyalıları adından çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, çıxış üçün Naxçıvan musiqiçiləri adından söz verilən Əməkdar mədəniyyət işçisi, görkəmli tarzən Əkrəm Məmmədli Mənsum İbrahimovu 65 yaşının tamam olması münasibətilə təbrik edərək onun həyat və yaradıcılığından, muğamlarımızın inkişafındakı xidmətlərindən, yaratdığı ölməz obrazlardan söz açıblar.

Konsert proqramı sonda Xalq artisti Mənsum İbrahimovun təkrarsız ifası və tanınmış muğam ifaçıları ilə birgə səsləndirilən “Yaşa mənim xalqım” mahnısının sədaları altında yekunlaşıb.

*Kifayət Mahmudova*
*NDU Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

# “Milli Musiqi Günü” təntənə ilə qeyd olunub



Naxçıvan Dövlət Universitetində “Milli Musiqi Günü”nə həsr olunmuş tədbir təşkil edilib. Əvvəlcə İncəsənət fakültəsinin I və II kurs tələbələrinin ifasında fortepianoda yerli və xarici bəstəkarların musiqi nömrələri səsləndirilib. Daha sonra, “Rəngkarlıq”, “Təsviri sənət müəllimliyi” və “Dizayn” ixtisaslarında təhsil alan tələbələrin əl işlərindən ibarət rəsm sərgisinə baxış olub.

Tədbir öncəsi, Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbirə giriş nitqi ilə başlayıb. Rektor, Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin 140 illik yubileyi münasibətilə keçirilən “Milli Musiqi Günü”ndən bəhs edib. Rektor qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müvafiq fərmanı ilə, dahi bəstəkarın anadan olmasının 110 illiyi ərəfəsində 18 sentyabrın “Milli Musiqi Günü” kimi qeyd olunması qərara alınıb. Həmçinin, bu il xüsusi əlamətdar bir il olduğunu vurğulayıb, çünki 2025-ci il fevralın 3-də Prezident İlham Əliyev, Üzeyir Hacıbəylinin 140 illik yubileyi ilə bağlı Sərəncam imzalayıb.

Elbrus İsayev, ölkənin yeganə Konservatoriyası olan Naxçıvan Dövlət Universitetinin, musiqişünaslığın və musiqi təhsilinin inkişafında önəmli rol oynadığını və dahi bəstəkarın yaradıcılığını yaşatmağın universitet üçün böyük qürur olduğunu bildirib. Rektor, Konservatoriyanın yaradılmasının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu və bu gün də dövlətin yüksək qayğısı ilə universitetin qarşısında böyük məsuliyyətin dayandığını vurğulayıb. Həmçinin, universitetin incəsənət kollektivlərinin, o cümlədən 150 nəfərlik “Simfonik orkestrin”, “Qədim Xalq Çalğı Alətləri” Ansamblının və “Nəfəsli Alətlər” orkestrinin ölkə və region miqyasında keçirilən tədbirlərdə uğurlu çıxışları ilə fəxri duyduqlarını qeyd edib. Sonda rektor, musiqi ictimaiyyətini, Konservatoriyanın kollektivini və musiqisevərləri “Milli Musiqi Günü” münasibətilə təbrik edib.

İncəsənət fakültəsinin Musiqinin Tarixi və Nəzəriyyəsi kafedrasının baş müəllimi Rumiyyə Məmmədova çıxış edərək, “Milli Musiqi Günü”nün təşkilatçısı, çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında məlumat verib.

Tədbir, İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında musiqi nömrələrinin təqdimatı ilə davam edib. Dahi bəstəkarın məşhur əsərləri, o cümlədən “Əsgərin mahnısı”, “Sevgili canan”, “Gülçöhrənin ariyası” və digər əfsanəvi parçalar dinləyicilərə təqdim olunub.





# Müstəqilliyimizin bərpasının tarixi və hüquqi əsasları mövzusunda elmi-praktik konfrans

Naxçıvan Dövlət Universitetində Magistratura və Doktorantura Mərkəzinin təşkilatçılığı ilə "Müstəqilliyimizin bərpasının tarixi və hüquqi əsasları" mövzusunda elmi-praktik konfrans təşkil olunub.

Tədbiri giriş sözü ilə açan universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov qeyd edib ki, 34 il əvvəl – 1991-ci ildə Azərbaycan Respublikası Ali Soveti tərəfindən "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edilib. Müstəqillik əldə olunduqdan sonra ölkə ciddi təhlükələrlə üzləşsə də, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyin qorunması və inkişafı mümkün olub. Nicat Yaqubov bildirib ki, Ümummilli liderin irsi, siyasi kursu bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasət nəticəsində Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında keçirilən lokal antiterror tədbirləri ilə öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib.

Konfrans çərçivəsində mərkəzin birinci kurs magistrantlarının mövzu ətrafında məruzələri dinlənilib. Tarixin tədrisi ixtisaslaşması üzrə təhsil alan Nazlı Əliyeva isə "Əsrlərin arzusundan gerçəkliyə: Azərbaycanın müstəqilliyinin bərpası", Azərbaycanın yeni və ən yeni tarix ixtisaslaşması üzrə Yağmur Mahmudova "Müstəqilliyin bərpasından öncə və sonrakı dövrdə Azərbaycan Respublikasının Dövlət Quruculuğunda tarixi davamlılıq və dəyişikliklər", Cinayət prosesi, kriminalistika, məhkəmə ekspertizası və əməliyyat-axtarış fəaliyyəti ixtisaslaşması üzrə Sumayə Səlimzadə "Milli ruh və hüquqi sistem: 18 oktyabrın hüquqi mirası" mövzularında çıxış ediblər.





Çıxışlarda hüquqi, tarixi və milli baxışların vəhdətində müstəqilliyin bərpasının əhəmiyyəti elmi və analitik yanaşmalarla təqdim olunub.

# Naxçıvan Dövlət Universiteti İstanbul Universiteti - Cərrahpaşa ilə əməkdaşlığı genişləndirir

Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Türkiyənin ən nüfuzlu ali təhsil ocaqlarından biri olan İstanbul Universiteti - Cərrahpaşada olub. Görüşdə hər iki universitetin nümayəndə heyətləri iştirak ediblər. Səfər çərçivəsində iki universitet arasında qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub.




Görüşdə ikili diplom proqramlarının icrası, tələbə mobilliyi, tələbələrin müxtəlif təcrübə proqramlarına cəlb edilməsi məsələləri diqqətdə saxlanılıb. Eləcə də birgə elmi-tədqiqat layihələrinin hazırlanması və icrası ilə bağlı təkliflər irəli sürülüb.

Görüş zamanı İstanbul Universiteti-Cərrahpaşanın professor-müəllim heyətinin NDU-da tədris və elmi-tədqiqat işlərinə cəlb olunması üçün danışıqlar aparılıb. Qarşılıqlı əməkdaşlıq hər iki universitetin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsinə, tədrisin keyfiyyətinin yüksəldilməsinə və tələbələr üçün daha geniş imkanların yaradılmasına hədəflənib.

Qeyd edək ki, elmi-tədqiqat sahəsində fərqlənən, xüsusən Tibb fakültəsinin uğurları ilə dünya miqyasında tanınan İstanbul Universiteti-Cərrahpaşa beynəlxalq elmi əməkdaşlıqlarda aparıcı mövqeyə malikdir.

***Fəxriyyə Səyyadova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Tibb tələbələri Gömrük Hospitalında peşəkar təcrübə qazanırlar

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi və Naxçıvan Dövlət Universiteti arasında imzalanmış əməkdaşlıq Memorandumuna əsasən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin VI kursunda təhsil alan bir qrup tələbə Mərkəzi Gömrük Hospitalında cərrahiyyə, daxili xəstəliklər, təcili tibbi yardım, ailə sağlamlığı və seçmə fənn üzrə müxtəlif şöbələrdə təcrübə proqramına başlayıblar.

Təcrübə proqramının ilk günü - 15 sentyabr 2025-ci il tarixində Mərkəzi Gömrük Hospitalında Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin təcrübə proqramına başlayan tələbələri ilə görüş keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının Ümumi Cərrahiyyə şöbəsinin ümumi cərrahı, tibb elmləri doktoru Dr. Aynur Səfiyeva, Dövlət Universitetinin Tibb fakültəsinin tələbələri iştirak ediblər.

Tədbirin sonunda tələbələrin müxtəlif mövzularda ünvanladıqları suallar cavablandırılıb, onların maraq doğuran sahələr üzrə fikirləri dinlənilib. Həkimlər tələbələrin gələcək peşəkar inkişafı ilə bağlı məsləhətlər verib, təcrübə proqramının gedişatı barədə ətraflı məlumat təqdim ediblər.



Daha sonra tələbələr Mərkəzi Gömrük Hospitalının müvafiq şöbələrinə yönləndirilib və hər biri seçdikləri sahə üzrə praktiki bilik və bacarıqlarını inkişaf etdirməyə başlayıblar.

# NDU-da fəlsəfə doktoru proqramı üzrə ixtisas fənnindən qəbul imtahanı keçirilib

Naxçıvan Dövlət Universitetində fəlsəfə doktoru proqramı üzrə ixtisas fənnindən doktoranturaya qəbul imtahanı keçirilib. Namizədlər müraciət etdikləri "İxtisas" fənni üzrə biliklərini nümayiş etdiriblər.



Qeyd edək ki, 2025–2026-cı tədris ili üzrə fəlsəfə doktoru proqramında doktoranturaya ümumilikdə 43 nəfər müraciət edib. Onlardan 21 nəfər xarici dil imtahanından müvafiq keçid balını toplayaraq "Fəlsəfə" fənnindən imtahanda iştirak etmək hüququ qazanıb. Onlardan 15 nəfər "Fəlsəfə" fənnindən məqbul nəticə alaraq "İxtisas" fənnindən imtahanda iştirak etmək hüququ qazanıb.

Ümumilikdə "İxtisas" fənnindən imtahanda 15 namizəd iştirak edib. Məqbul nəticə əldə edən namizədlər 2025-2026-cı tədris ilində Naxçıvan Dövlət Universitetində fəlsəfə doktoru proqramı üzrə doktorantura təhsilinə başlayıblar.

# İngilisdilli ixtisaslar üzrə səviyyə imtahanı

Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində tədrisi ingilis dilində aparılan ixtisaslar üzrə tələbələr üçün səviyyə imtahanında üç ixtisas üzrə ümumilikdə 50 tələbə iştirak edib.

İmtahan oxuma, yazma, danışıq və qrammatika bölmələrini əhatə edib. Ümumilikdə, 50 ballıq sistemlə qiymətləndirilən imtahanda keçid balı 25 olaraq müəyyənləşdirilib. Nəticələrə əsasən, tələbələrin ingilis dili üzrə səviyyəsi qiymətləndirilib və məqbul nəticə göstərənlər təhsillərini tədrisi ingilis dilində olan qrupda davam etdirəcəklər.



İmtahandan tələb olunan nəticəni əldə edə bilməyən tələbələr isə bir semestr müddətində həmin ixtisasların Azərbaycan dilində tədris olunan paralel qruplarında təhsil alacaqlar.

Qeyd edək ki, hazırda universitetdə beş ixtisasda ingilis dilində tədris həyata keçirilir. İnformasiya təhlükəsizliyi və Beynəlxalq münasibətlər ixtisaslarında 4+1 formatlı hazırlıq kursları tətbiq olunur, Kompüter mühəndisliyi, Tibb və İqtisadiyyat ixtisaslarında tələbələrin dil bilikləri səviyyə imtahanı ilə müəyyənləşdirilir.

# Rektor Elbrus İsayev I kurs magistrantlarla görüş keçirib

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 2025-2026-cı tədris ilində magistrant adını qazanmış təhsilalanlar ilə görüş keçirib.

Görüşdə rektor Elbrus İsayev qeyd edib ki, bu il ali təhsil ocağında 54 ixtisaslaşma üzrə magistraturaya 209 nəfər magistrant qəbul olub. Universitetdə akademik fəaliyyətin inkişafı üçün yaradılan şəraitdən bəhs edən rektor, magsitrantlara EBSCO, Clarivate, Taylor Francis kimi beynəlxalq elmi bazalara çıxış imkanı olan Elmi Kitabxanadan, müasir tədqiqatlara inteqrasiya üçün ingilis dilini mükəmməl səviyyədə mənimsəmə imkanı verən IELTS Qeydiyyat və İmtahan Mərkəzindən, əcnəbi alimlərin tədrisə cəlbi və tələbə mobilliyi kimi mövcud imkanlardan yararlanmağı diqqətə çatdırıb.

Rektor ixtisaslı kadrların hazırlanmasında magistr pilləsinin mühüm önəm daşıdığını, magistratura səviyyəsini bitirən məzunlardan təhsil sahəsinə innovativ yanaşmalar gətirəcəklərinə dair gözləntilərin



olduğunu qeyd edib. Bu çərçivədə ilkin əsas məqsədin magistrantların araşdırma, təhlil, yenilikçi yanaşma keyfiyyətlərini artırmaq, dissertasiya işlərinə özünəməxsus və ciddi hazırlaşmalarının vacibliyi vurğulanıb. Bildirilib ki, hər bir tələbə mövzusunu elmi və praktik əhəmiyyət kəsb edən aspektlər üzərində qurmalıdır, çünki bu elmi-tədqiqat işləri universitetin akademik səviyyəsini əks etdirən əsas göstəricilərdən biridir. Elbrus İsayev tədrisin keyfiyyətinin artırılması məqsədilə magistrantların və elmi rəhbərlərin üzərinə düşən vəzifələrdən də söz açaraq, yekunda tədrisin keyfiyyətini yüksəltməyə yönəlmiş təqdimatların ərsəyə gəlməsinin şərt olduğunu qeyd edib.

Universitetin Magistratura və doktorantura mərkəzinin direktoru Çapay Quliyev çıxış edərək bildirib ki, magistratura səviyyəsində təhsil proqramları yenilənib və bu il I kurs magistrantlar yeni tədris proqramı ilə dərslərə başlayıb. Bu isə onlarin elmi-tədqiqat istiqamətində daha yeni səriştələr əldə etməsinə imkan yaradır.

Tədbirin sonunda magistrantları maraqlandıran suallar cavablandırılıb, onların irəli sürdüyü təkliflərin nəzərə alınması üçün tapşırıqlar verilib.







# 18 oktyabr - Müstəqilliyin Bərpası Günü qeyd edilib

Naxçıvan Dövlət Universitetində 18 oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

NDU-nun strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli əlamətdar günün tariximizdəki yeri və mahiyyətindən söz açıb, həmçinin 17 oktyabr tarixini xatırladaraq qeyd edib ki, bu gün Füzuli rayonunun bir sıra kəndi və Füzuli şəhəri şanlı Ordumuz tərəfindən işğaldan azad edilib. Müstəqil Azərbay-



canın möhkəm təməllər üzərində yeni inkişaf yolunu tutduğunu qeyd edən Rəcəb Cəfərli vurğulayıb ki, 18 oktyabr - Müstəqilliyin Bərpası Günü Azərbaycan dövlətinin gücünü, qüdrətini, iqtisadi imkanlarını nümayiş etdirir. Uzaqgörən və qətiyyətli lider İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm uğurlara imza ataraq tarixi Zəfər qazanan xalqımız bütün dünyaya göstərdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir.

Tədbirdə tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov, tarix üzrə fəlsəfə doktoru Zamin Əliyev çıxış ediblər. Natiqlər bu il müzəffər Azər-



baycan xalqının dövlət müstəqilliyinin bərpasının 34 illiyini qeyd etdiyini vurğulayıb tarixə qısa nəzər salıblar. Qeyd olunub ki, 1991-ci ilin 18 oktyabr tarixində qəbul edilən “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı” ilə Azərbaycanın dövlət müstəqilliyi elan edilib. Ancaq ilk illərdə ölkəmiz xeyli çətinliklərlə üzləşib. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyevin fədakar əməyi nəticəsində sonrakı illərdə dövlət müstəqilliyimiz möhkəmlənib, dünya dövlətləri arasında ölkəmizin rolu və nüfuzu artıb. Ulu Öndərin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu, məqsədyönlü daxili və xarici siyasət nəticəsində isə Azərbaycan daha da güclənib, regionun lider dövlətinə çevrilib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şanlı tarixi Zəfərimiz nəticəsində ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunub. 2021-ci il oktyabrın 15-də Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə “Müstəqillik Günü haqqında” yeni Qanunu təsdiqləyib. Qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan olunub və bu tarix təqvimdə sıradan bir tarix deyil, Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik gündür.



Tədbir ali təhsil ocağının “Memarlıq və mühəndislik” fakültəsinin tələbələrinin ifasında “Şəhidə məktub” şeir parçası, “Anacan”, “Qarabağ” adlı musiqi nömrəsi, “Vətən yolunda” səhnəciyindən ibarət bədii hissə ilə davam edib.

Sonda “Qayıdışın səsi” adlı videoçarx nümayiş olunub.

## NDU-nun Beynəlxalq Məktəbində alman dilinin tədrisinə dair təlim keçirilib

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində alman dilinin tədrisinə dair təlim seriyası təşkil edilib. Təlim Höte (Geothe) İnstitutu, Alman Dili Tədris Mərkəzi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə baş tutub.

Təlimə başlamazdan öncə, Naxçıvan Dövlət Universitetinin strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli çıxış edərək qeyd edib ki, ali təhsil ocağının strateji fəaliyyətində xarici dillərin tədrisi və keyfiyyətinin artırılması xüsusilə diqqətdə saxlanılır. Bu qəbildən olan fəaliyyətlərin davamı olan bu günkü təlim də alman-dili müəllimləri, iştirakçı olan şagird və tələbələr üçün yeni bilgilər öyrənmək baxımından səmərəli platforma rolunu oynayır.

Alman Dili Tədris Mərkəzinin direktoru Zəhra Alıyeva Naxçıvan Dövlət Universitetinin dəstəyi ilə keçirilən təlim seriyasında çıxış etməkdən məmnun olduğunu söyləyib. Zəhra Alıyeva təlim iştirakçılarına müasir dövrdə alman dilinin perspektivlərindən və bu dil bilgisinə olan tələbat sferasından söz açıb. O, alman dili öyrənməyin təhsil və karyera sahəsində yeni qapılar açdığını qeyd edib və bu dilin də digər xarici dillər kimi öz tədris metodikası olduğunu bildirib.

Höte (Geothe) İnstitunun təhsil layihələri üzrə koordinatoru Luka Sepaşvili isə çıxışında, keçirilən təlimdə alman dilinə marağın yüksək olduğunu görməyin onda heyranlıq yaratdığını deyib. Bu cür yüksək səviyyədə təşkil olunan tədbirin təşkilinə görə Naxçıvan Dövlət Universitetinin rəhbərliyinə və əməyi olan əməkdaşlarına təşəkkürünü bildirib.

Günboyu davam edən altı təlim sessiyasında Naxçıvan Dövlət Universitetində alman dilini tədris edən müəllimlər, “Alman dili” ixtisasında təhsil alan tələbələr və muxtar respublikada alman dilini tədris edən orta məktəb müəllimləri iştirak ediblər. Həmçinin təlimdə muxtar respublikadakı orta məktəblərin, NDU nəzdində İngilis dili təmayüllü Gimnaziya və Beynəlxalq məktəbdə təhsil alan 7-14 yaşlı şagirdlərin də iştirakı təşkil olunub.



İnteraktiv təlimlər Alman Dili Tədris Mərkəzinin təlimçiləri və Höte (Geothe) İnstitutunun əməkdaşları tərəfindən verilib. Təlimlər ilə paralel olaraq Almaniyada təhsil imkanları və təqaüd proqramları haqqında info-sessiya da keçirilib.

Tədbirin yekununda isə təlim iştirakçılarına sertifikatlar təqdim edilib.

# “Milli Musiqi Günü” münasibətilə İncəsənət fakültəsinin müəllim və tələbələri ilə görüş



Görüşdə universitetin rektoru Elbrus İsayev “Milli Musiqi Günü” münasibəti ilə iştirakçıları təbrik edərək bildirib ki, “18 sentyabr Azərbaycan musiqi mədəniyyətinin ən xüsusi və əlamətdar günlərindən biridir. Bu gün həm də dahi bəstəkar, Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin doğum günüdür”. Rektor qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 3 fevral tarixli Sərəncamı ilə bəstəkarın anadan olmasının 140 illiyi ölkə üzrə yüksək səviyyədə qeyd olunur. Bu münasibətlə ali təhsil ocağında ilin sonunadək geniş konsert proqramlarının keçirilməsi nəzərdə tutulur.

Universitet rəhbəri vurğulayıb ki, NDU-nun Konservatoriyasında tədrisin keyfiyyətinin yüksəldilməsi daim diqqətdə saxlanılır, mütəmadi olaraq müəllim və tələbələrin iştirakı ilə konsertlərin təşkili, musiqi mədəniyyətinə töhfə verən tanınmış şəxslərin universitetə dəvəti ənənəvi xarakter daşıyır. Eləcə də tələbələrin fəallığı izlənilir, bu istiqamətdə gələcəkdə təhsil uğurları ilə fərqlənən tələbələrə xüsusi təqaüdlərin təsis olunması da nəzərdə tutulur. Beləliklə, gənclərin





həm musiqi, həm də ümumi yaradıcılıq fəaliyyəti dəstəklənir və stimul verilir.

Tədbirin sonunda 18 sentyabr — “Milli Musiqi Günü” münasibətilə Naxçıvan Dövlət Universitetində musiqinin, mədəniyyətin inkişafında göstərdiyi xidmətlərə görə İncəsənət fakültəsinin müəllim və tələbələrinə təşəkkürnamələr təqdim edilib.

*Fəxriyyə Səyyadova*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Dövlət Suverenliyi Günü”nə həsr olunmuş tədbir keçirilib

Naxçıvan Dövlət Universitetində 20 sentyabr – Azərbaycan Respublikasında “Dövlət Suverenliyi Günü” münasibətilə tədbir keçirilib.

Tədbir şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.

Universitetin Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarov çıxış edərək qeyd edib ki, Azərbaycan tarixində dövlətçilik ənənələri minilliklər boyu müxtəlif sınaqlardan keçib, xalqın yaddaşında və milli şüurunda silinməz iz buraxıb. Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və müdrik rəhbərliyi sayəsində müstəqilliyimiz qorunaraq möhkəmləndirilib, dövlətçiliyimizin sarsılmaz təməlləri qoyulub. Prezident İlham Əliyevin rəhbərliyi ilə isə bu gün Azərbaycan öz suveren hüquqlarını tam şəkildə təmin edib, ərazi bütövlüyünü bərpa edib, regionun aparıcı dövlətinə çevrilib. Ölkə başçısının 2024-cü ilin sentyabr ayının 19-da imzalanmış “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncamı ilə bu gün qeyd etdiyimiz əlamətdar tarixi gün yalnız dövlətçilik tariximiz üçün deyil, həm də milli kimliyimizin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Tarix-filologiya fakültəsinin dekan müavini Qadir Əkbərov çıxış edərək, 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik ili” elan olunmasının hüquqi və dövlətçilik tariximizdəki mühüm hadisələrin ildönümü ilə bağlı olduğunu vurğulayıb. Xüsusilə Azərbaycan Konstitusiyasının qəbulunun 30 illiyi və suverenliyin möhkəmləndirilməsi istiqamətində atılan addımları diqqətə çatdırıb.

Beynəlxalq münasibətlər kafedrasının müəllimi Nazlı Yaqubova çıxışında Qarabağ iqtisadi rayonunda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatının mahiyyətindən bəhs edib və qeyd edib ki, bu tarixi günlər ölkəmizin dövlətçilik yolunda yeni bir mərhələ açıb. 23 saat davam edən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələri tərksilah olunub və Azərbaycan Respublikasının konstitusiya quruluşu həmin ərazilərdə bərpa edilib. Bildirilib ki, Azərbaycan dövlətinin qətiyyətli mövqeyi bir daha sübut etdi ki, milli maraqlarımızı təmin etmək üçün hər cür vasitə ilə, amma beynəlxalq hüquqa uyğun şəkildə hərəkət etməyə qadirik və bu gün Azərbaycan bayrağı suveren ərazilərimizdə qürurla dalğalanır.

Sonda “Dövlət Suverenliyi Günü”nə həsr olunmuş videoçarx nümayiş etdirilib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Şəhid övladlarına dəstək” tibbi müayinə aksiyası

Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı, Ali Məclisin deputatı, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Stomatologiya kafedrasının müdiri, “İmplant-Dent-Naxçıvan” stomatoloji klinikasının baş həkimi Rauf Cəfərovun rəhbərliyi ilə “Şəhid övladlarına dəstək” tibbi müayinə aksiyasına start verilib.

Aksiyanın açılışında universitetin prorektoru Nicat Yaqubov və layihənin rəhbəri Rauf Cəfərov çıxış edərək aksiyanın şəhid ailələrinin sağlamlığına, rezident və tələbələrin təcrübə qazanmasına dəstək baxımından əhəmiyyətli olduğunu vurğulayıblar.

“Şərur Regional Tibb Mərkəzi” publik hüquqi şəxsində şəhid ailələri ilə müəllim, rezident və tələbələrin görüşü keçirilib. Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. “Şərur Regional Tibb Mərkəzi” publik hüquqi şəxsinin direktoru İlham İsmayılov, Ali Məclisin deputatı, Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, “İmplant-Dent-Naxçıvan” stomatoloji klinikasının baş həkimi Rauf Cəfərov və universitetin Tibb fakültəsinin müəllimləri çıxış ediblər. Çıxışlarda Vətən müharibəsinin qazanılmasında Azərbaycanın qəhrəman oğullarının keçdiyi şərəfli döyüş yolundan bəhs edilib, dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan söhbət açılıb.





Şəhid ailələri adından şəhid Zülal Mədətlinin atası Rəhim Mədətli, şəhid Seymur Cabbarovun atası İlham Cabbarov və şəhid Ənvər Əliyevin atası Nizami Əliyev layihəyə görə minnətdarlıq edib, aksiyanın şəhid ailə üzvlərinin, övladlarının sağlamlığına verilən önəmin təzahürü kimi qiymətləndiriblər.

“Şərur Regional Tibb Mərkəzi” publik hüquqi şəxsində şəhidlərimizin xatirəsinə yaradılan “Vətən sizə minnətdardır” guşəsi ilə tanışlıqdan sonra aksiya başlayıb. Aksiya çərçivəsində Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Stomatologiya kafedrasının müəllim, rezident və tələbələri şəhid ailə üzvləri və övladlarını ümumi həkim müayinəsi, stomatoloji müayinə və profilaktikadan keçirib, sağlamlıq haqqında ilkin məsləhətlər veriblər. Həmçinin sağlam həyat tərzi ilə bağlı maarifləndirici söhbətlər aparılıb, aksiyada iştirak edən şəhid övladlarına hədiyyələr təqdim olunub.

Qeyd edək ki, “Sağlam həyat, sağlam gənclik” şüarı ilə keçirilən aksiya 27 sentyabr – Anım Gününə həsr olunub və 8 Noyabr – Zəfər Gününədək davam edəcək. Layihənin məqsədi şəhidlərimizin əziz xatirəsini yad etmək, şəhid övladlarına mənəvi dəstək olmaq, onların tibbi baxışını aparmaq və pulsuz stomatoloji xidmət göstərmək, tələbələrin həm peşəkar, həm də mənəvi baxımdan inkişafına töhfə verməkdir. Aksiya çərçivəsində muxtar respublika üzrə, ümumilikdə, 100-dən artıq şəhid övladına stomatoloji xidmət göstərilməsi nəzərdə tutulub.

*Kifayət Mahmudova*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

# FOLKLORUMUZA HEYDƏR ƏLİYEV SEVGİSİ

Ömrü boyu Azərbaycan ziyalılarının qayğısını çəkən, ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi böyük övlad sevgisi ilə yorulmadan təbliğ edən ümumilli liderimiz Heydər Əliyev xalqını, vətənini daha çox sevən, onun hər uğuruna ürəkdən sevinən ən böyük azərbaycanlı idi. O, Azərbaycanın bütün sahələrdə böyük uğur qazanmasında misilsiz xidmətlər göstərən dahi şəxsiyyət idi.

1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi ədəbiyyatımızda, mədəniyyətimizdə, folklorumuzda böyük uğurların qazanılmasına gətirib çıxardı. Ədəbiyyatımızla yanaşı memarlıq, xalçaçılıq, xalq musiqisi, folklor və etnoqrafiya kimi müxtəlif istiqamətləri birləşdirən milli-mənəvi dəyərlərimiz də özünün çiçəklənmə dövrünü yaşamağa başladı.

Heydər Əliyev ədəbiyyatımızı milli sərvətimiz kimi dəyərləndirərək demişdir: "Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm. Bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm".

Ötən əsrin 70-80 illəri, eləcə də müstəqillik illəri Azərbaycan ədəbiyyatının və mədəniyyətinin, iqtisadiyyatının, təhsil və səhiyyəsinin, bir sözlə, Azərbaycanın sürətli inkişaf dövrü kimi tarixin yaddaşına həkk olunub.

Akademik İsa Həbibbəylinin dediyi kimi: "Böyük dövlətçilik təcrübəsinə, yüksək liderlik qabiliyyətinə malik olan bu qüdrətli dövlət xadiminin yenidən siyasi cəbhəyə qayıdışını təkcə xalq deyil, həm də zaman tələb edirdi. Çətin sınaqlarda möhkəmlənmiş zəngin siyasi təcrübəyə malik Heydər Əliyev Azərbaycan xalqı qarşısında həmin məsuliyyətli tarixi vəzifəni qəbul etmiş, böyük xilaskarlıq missiyasını dönmədən, qətiyyətlə həyata keçirmişdir". Xalqımızın keçdiyi çətin, lakin şərəfli dövrü ulu öndərimiz Heydər Əliyev 1994-cü ildə noyabr ayının 2-də dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyə Böyük Millət Məclisindəki tarixi çıxışında belə səciyyələndirmişdir: "Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında deyil, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində də çox məşhur olmuşdur. ...Azərbaycan xalqının həyatı böyük, çətin mərhələlərdən keçmişdir. Ancaq bütün çətinlikləri keçməkdə Azərbaycan xalqına onun böyük insanlarının, böyük şəxsiyyətlərinin yaratdıqları sənət əsərləri kömək etmişdir. Füzuli bunların arasında görkəmli yer tutur".

Heydər Əliyev dövründə klassik şairlərimizin əsərlərinin çapı, təbliği ilə yanaşı şifahi xalq ədəbiyyatı nümunələrimiz də unudulmadı. Folklor nümunələrinə göstərilən diqqət və qayğı həm də xalqımızın özünü tanıması, özünə qayıdışı kimi dəyərləndirilməlidir. Dilimizdə yasağa çevrilən "Dədə Qorqud", "Oğuz", "Oğuz yurdu", "Ozan", "Türk mədəniyyəti", "Qan yaddaşı" anlayışları geniş surətdə işlənməyə başladı. Tarix - diyarşünaslıq muzeylərimizin bütün rayonlarda fəaliyyətə başlaması, folklor qruplarının yaradılması, "Aşıq Pəri Məclisi"nin, "İrs", "Gülüstan", "Yallı" və sair xalq kollektivlərinin yaradılması, "Bulaq", "Ozan" verilişlərinin açılması, saz bayramlarının, folklor festivallarının keçirilməsi milli kökə, milli dəyərlərə qayıdışın bariz ifadəsinə çevrildi.

Klassik şair və yazıçılarımızın yubileylərinin keçirilməsi ilə yanaşı, folklor tədqiqatçısı olan alimlərimizin, qüdrətli aşıqlarımızın yubileylərinin keçirilməsi də yaddan çıxmadı, unudulmadı.

Milli varlığımızın tərcümanı "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik



yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından Heydər Əliyev qaldırdı. YUNESKO yubileylə bağlı təklifi qəbul etdi. Yubileylə bağlı hazırlıq işləri görüldü. Dastanla bağlı elmi kitablar yazıldı. Xatırladaq ki, elə 70-ci illərdə xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilən "Dədə Qorqud" filminin xeyir-duasını da Heydər Əliyev vermişdir.

Ulu öndər dastana yüksək qiymət verərək demişdir: "Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanı yüksək bəşəri ideyalar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur .

2000-ci il aprel ayının 10-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi Bakı şəhərində təntənə ilə qeyd olundu. Həmin zirvə toplantısında Heydər Əliyev demişdir: "Azərbaycanda "Kitabi-Dədə Qorqud" irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar dastanı bizim xalqımıza, bütün türk dünyasına, türkdilli xalqlara yenidən tanıtmış və onun nə qədər zəngin sərvət olduğunu bütün dünyaya nümayiş etdirmişdir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu ənənəni əzmlə davam etdirib. Dövlət başçısı 2007-ci ildə "Dədə Qorqud heykəli və Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi məqsədi ilə Sərəncam imzalayıb. 2013-cü ildə Dədə Qorqud parkı salınıb və "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılıb. Abidənin açılış mərasimində Prezident İlham Əliyev dastanı Azərbaycan xalqının milli sərvəti adlandıraraq qeyd edib ki, hər bir azərbaycanlı üçün əziz olan bu əsərdə xalqımızın keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunub. Həmin il Prezident İlham Əliyev "Dədə Qorqud" dastanı əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi ilə bağlı Sərəncam imzalayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixli Sərəncamı bu dastanın xalqımız üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini bir daha dünyaya bəyan etməklə yanaşı, Heydər Əliyev ideyalarına sədaqətini də bir daha nümayiş etdirdi.

"Kitabi-Dədə Qorqud" dastanları ilə bağlı böyük tədqiqat aparan Xalq yazıçısı Anarın bir fikri olduqca maraqlıdır. Anar yazır: "Hər hansı xalq ədəbi irsi nə qədər zəngin olsa da, bir, ya iki əsas kitaba, təməl kitaba, Ana kitaba malikdir. Belə baş kitab xalqın varlığını ən dolğun və bitkin şəkildə əks etdirir... Xalqımızın şah əsəri, Ana kitabı Dədə Qorqud dastanıdır" .

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bu dastanı "Ata kitabı"mız adlandıraraq yazır: "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyi haqqında imzaladığı Fərman ulu Ata kitabımızın yenidən araşdırılması, beynəlxalq səviyyədə məqsədyönlü şəkildə təbliği, dünya dillərinə tərcümə olunması, yeni nəşrlərin meydana çıxması baxımından geniş imkanlar açır .

Ulu öndərin qayğısı sayəsində folklor kitablarının, klassik ədəbiyyat nümunələrinin nəşrləri onu göstərdi ki, Azərbaycanda bu sahədə çox böyük işlər görülüb. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Aşıq Ələsgərin 150 illik (1972), Aşıq Alının 180 illik (1981) yubileyləri böyük təntənə ilə qeyd olunmuşdur. Aşıq Ələsgərin 1972-ci ildə 150 illik yubileyi Bakı ilə yanaşı, Moskvada da qeyd olunmuşdur.

El içərisindən çıxmış bir aşığın yubileyinin Moskvada keçirilməsi həmin dövr üçün böyük nailiyyət idi. Həmin tədbirə Sovetlər Birliyinin bütün respublikalarından söz-sənət adamlarının Kremlin Qurultaylar Sarayına toplaşması əslində Azərbaycan saz-söz sənətinin qüdrətini göstərirdi. 1996-cı ildə Heydər Əliyev Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi ilə bağlı yeni Sərəncam imzaladı. Aşıq Ələsgərin əsərləri yenidən nəşr olundu. 2001-ci ildə isə Aşıq Ələsgərin 180 illik yubileyi qeyd olundu.

1981-ci ildə Aşıq Alının 180 illiyi Heydər Əliyevin təşəbbüsü ilə qeyd olundu, Aşıq Alının şeirləri ayrıca kitab şəklində oxuculara çatdırıldı. Ötən əsrin 70-80 ci illərində aşıqlardan Abbas Tufarqanlının, Sarı Aşığın, Dilqəmin, Xəstə Qasımın, Hüseyn Bozalqanlının, Aşıq Hüseyn Cavanın və başqalarının şeirləri toplanıldı, kitabları çap olundu.

Ötən əsrin yetmiş-səksəninci illərində istedadlı el sənətkarlarının yaradıcılıq və ifaçılıq sahəsində qazandığı böyük uğurlar da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir Qocayev, Aşıq Şakir Hacıyev, Aşıq Əkbər Cəfərov, Aşıq Ədalət Nəsibov, Aşıq Pənah Pənahov və Aşıq İmran Həsənov "Əməkdar incəsənət xadimi", musiqi folklorunun bənzərsiz ifaçıları olan İzzətalı Zülfüqarov, Ələsgər Şəkili və Əli Kərimov isə "Azərbaycanın Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görüldülər. Müstəqillik illərində də bu ənənə davam etdirildi. Ədalət Nəsibov, İsfəndiyar Rüstəmov kimi qocaman ustadlara fəxri Prezident təqaüdünün verilməsi, Aşıq Əhliman Rəhimov və Ədalət Dəlidağlının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi dediklərimizə əyani sübutdur.

Bu gün Azərbaycanın ayrı-ayrı rayonlarında musiqi məktəblərində saz dərnəklərinin fəaliyyət göstərməsi ənənəsi də müstəqillik illərində ulu öndərin saza-sözə dəyərinin nəticəsi kimi qiymətləndirilməlidir. Saz-söz bayramlarının keçirilməsi, dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq tədbirlərdə Azərbaycan aşıqlarının, folklor qruplarının çıxışları bir daha sübut edir ki, bu gün Azərbaycan folkloru dünya səhnələrinə də yol tapa bilib.

Professor Məhərrəm Qasımlı "Heydər Əliyev və Azərbaycan folkloru" adlı geniş məqaləsində ulu öndərin folklorumuza sonsuz sevgisini dolğun çalarlarla oxuculara təqdim edib. Məhərrəm Qasımlı adı çəkilən məqaləsində yazır: "Dilimizin, ruhumuzun incəliklərinə, tariximizin dərin qatlarına, ədəbi, mədəni abidələrimizə müdrik meyarlar və dəqiq elmi-nəzəri ölçülərlə qiymət verən Heydər Əliyev təkcə Azərbaycan hüdudlarında dəyərləndirmələr aparmırdı. Onun mülahizə və düşüncələri Azərbaycan mənəvi-mədəni gerçəkliklərini Şərq mədəniyyəti kompleksi, ümumtürk konteksti daxilində təqdim və təhlil edirdi" .

Ümummilli liderimiz Heydər Əliyev təkcə Azərbaycan folklorunu deyil, eləcə də türk xalqlarının qədim dastanlarını, klassik şairlərini, el sənətkarlarını böyük məhəbbətlə sevir və onların yubiley tədbirlərində də iştirak edirdi. Heydər Əliyev böyük fəxrlə qeyd edirdi ki, qədim dövrlərdə "Dədə Qorqud", "Manas","Alpamış", "Koroğlu" dastanları, xalqımızın hamısına mənsub olan şairlərimiz, yazıçılarımız- Nizami, Yunis Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhdimqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir.

Heydər Əliyev böyük şəxsiyyət kimi elə arxalanmış, ana dilimizi ən güclü silah saymış, ədəbiyyatımızı, folklorumuzu sevə-sevə təbliğ etmiş, xalqın gücünə arxalanaraq zirvələr fəth etmişdir. Tarixdə xalqa, onun milli dəyərlərinə, ədəbiyyatına bağlı Heydər Əliyev kimi ikinci bir dühə, şəxsiyyət tapmaq qeyri-mümkündür. Bu dahi şəxsiyyət xalqımızın fəxri olmaqla yanaşı, həm də dilimizin, folklorumuzun ən böyük qoruyucusu kimi tarixdə bundan sonra da yaşayacaqdır.

*Sədaqət Nemətova*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Görkəmli Memar Əcəmi Əbubəkr oğlu Naxçıvani haqqında qeydlər

Məlum olduğu kimi, UNESCO-nun Baş Konfransının 7-22 noyabr 2023-cü ildə keçirilən 42-ci sessiyasında görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin 900 illik yubileyi 2024-2025-ci illər ərzində UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilmişdir. Azərbaycan xalqının minilliklər boyu yaratdığı mədəni irsə və görkəmli şəxsiyyətlərə daim diqqət və qayğı ilə yanaşan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 sentyabr 2025-ci ildə bu qüdrətli sənətkarın xatirəsinin əbədiləşdirilməsi məqsədilə onun Naxçıvan şəhərində abidəsinin ucaldılması haqqında Sərəncam imzalamışdır.

Əcəmi Əbubəkr oğlu Naxçıvani Orta əsr Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan memarlıq məktəbinin çox görkəmli nümayəndələrindən biridir. Ancaq, təəssüf ki, Orta əsr qaynaqlarında bu görkəmli memar haqqında əsaslı bir məlumat yoxdur. Ona görə də onun haqqında məlumatı biz onun özünün yaratdığı möhtəşəm abidələr və onların üzərindəki kitabələrdən alırıq.

Bir sıra yerlərdə çoxlu memarlıq abidələri inşa etsə də Əcəmi Naxçıvaninin yaratdığı abidələrdən zəmanəmizədək ancaq Naxçıvan şəhərində iki abidə – Yusif Kuseyir oğlu və Möminə xatun türbələri gəlib çatmışdır. Memarlıq ədəbiyyatı materiallarından aydın olur ki, Naxçıvan şəhərində XIX yüzilliyə qədər qalıqları qalan başqa abidələr də o cümlədən Atabəylər memarlıq kompleksinə daxil olan Qoşa minarəli baştağ və Came məscidi də bu görkəmli memarın yaradıcılığının məhsulu olmuşdur. XII əsrdə Naxçıvan şəhərində yaradılan Atabəylər memarlıq kompleksinə daxil olan Eldənizlər sarayı (Dar ül-Mülk), Xanəgah və s. kimi inzibati və mülki binalar da XII əsrdə Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. Hətta elmdə 1979-cu ildə Ordubad rayonundakı Orta əsr Xaraba Gilan yaşayış yerində təsadüfən aşkar olunan türbənin Əcəmi Naxçıvani tərəfindən XII yüzilliyin 80-ci illərində inşa edilməsi haqqında fikir vardır. Naxçıvan şəhərinin cənub tərəfində, Möminə xatın türbəsindən təxminən 400-500 metr aşağıda yerləşən Nuh peyğəmbərin qəbirüstü türbəsinin ətrafından aşkar olunan kitabə fraqmentlərinin, abidələrin inşasında istifadə olunan inşaat materiallarının, yan üzlərin bəzədilməsində tətbiq edilən ornament-naxışların, kaşı nümunələrinin çox oxşar olduqlarına əsasən, ehtimal etmək olar ki, bu türbə Naxçıvan memarlıq məktəbinə məxsusdur və bu məktəbin çiçəklənmə dövrü keçirdiyi XII yüzilliyin ortalarında Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Yusif Küseyir oğlu türbəsindən az sonra inşa olunmuşdur.

Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində inşa etdiyi abidələrdən bir neçəsinin, o cümlədən Yusif Kuseyr oğlu və Möminə xatun türbələrinin və qoşa minarəli baştağın kitabələri XIX yüzilliyin ortalarından etibarən tədqiq edilmişdir. Bu tədqiqatların nəticəsi olaraq həmin abidələrin təyinatı, sifarişçisi, inşa tarixi və memarı haqqında məlumatlar elmi dövriyyəyə daxil edilmişdir. Beləliklə, bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin adı elmi ictimaiyyətə məlum olmuşdur.

Əcəmi Əbubəkr oğlu Naxçıvani yaratdığı dünya şöhrətli abidələrdən Yusif Küseyir oğlu türbəsinin üzərində imzasını "Bənna Əcəmi Əbubəkr oğlu Nəşəvinin əməlidir", Möminə xatun türbəsinin üzərində isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" şəklində təqdim etmişdir. Kitabəsindən göründüyü kimi, memar Əcəmi Əbubəkr oğlu Naxçıvani ilk yaradıcılıq məhsulu olan Yusif Küseyir oğlu türbəsinin üzərində özünü "Nəşəvi" nisbəsi (doğulduğu və ya yaşadığı yerin adı) ilə təqdim etmişdir. Nəşəva, Nəşəvi orta əsrlər zamanı Naxçıvan şəhərinin adlarından biri olmuşdur. Orta əsr ərəb coğrafiyaşünası Yaqut əl-Həməvi Yusif Küseyir oğlu türbəsinin inşasından az bir müddət sonra, XIII əsrin əvvəllərində qələmə aldığı "Mücəm əl-Buldən" ("Ölkələrin əlifba sırası ilə sıralanması") əsərində Naxçıvan şəhəri haqqında iki dəfə bəhs edir. O, Naxçıvan şəhərinin adını birinci dəfə Naxcuvan, Nakcuvan, ikinci dəfə isə Nəşəva kimi qeyd etmişdir. Yaqut əl-Həməvi şəhər haqqında birinci dəfə yazır: "Naxcuvan və yaxud bəzilərinin dediyi kimi Nakcuvan Azərbaycanda şəhərdir, hansı ki, biz onun haqqında yenə danışacağıq". Müəllif ikinci dəfə isə şəhər haqqında belə yazır: "Nəşəva Azərbaycanda şəhərdir. ...Xalq arasında Naxcuvan, yaxud Nakcuvan kimi məşhurdur". Müəllifin fikrindən aydın olur ki, şəhər XIII əsrin əvvəllərində Nəşəva adlansa da, xalq arasında Naxcuvan, yaxud da Nakcuvan kimi məhşur olmuşdur. XII əsrdə olduğu kimi şəhər XIII əsrin əvvəllərində də Nəşəva adlanmış, bununla belə həm də Naxcuvan, Nakcuvan kimi də adlanmışdır. Məhz bu səbəbdəndir ki, memar Əcəmi Əbubəkr oğlu Naxçıvani Yusif Küseyir oğlu türbəsindən 24 il sonra, 1186-cı ildə inşasını başa çatdırdığı Möminə xatun



türbəsinin kitabəsində özünü "Naxçıvani" nisbəsi ilə təqdim etmişdir.

Daşıdığı "Nəşəvi" və "Naxçıvani" nisbələri birmənalı şəkildə təsdiq edir ki, Əcəmi Əbubəkr oğlu Naxçıvani XII yüzillikdə Naxçıvan şəhərində anadan olmuş, orada yaşayıb fəaliyyət göstərmişdir. Orta əsr mənbələrindən məlumdur ki, Naxçıvan şəhəri XII əsrdə yüksək inkişaf səviyyəsində olmuş, anonim "Əcaib əd-dünya" əsərinin məlumatına görə, Eldənizin dövründə yüksək tərəqqiyə çatmış, intibah dövrünü yaşamışdır. Şəhər Azərbaycanın mühüm elm, təhsil və mədəniyyət mərkəzlərindən biri kimi 1136-cı ildə tarix səhnəsinə çıxan Azərbaycan Atabəyləri dövlətinin paytaxtlarından birinə çevrilmişdi. Əcəmi Naxçıvani belə bir mühitdə Naxçıvan şəhərində doğulmuşdur. Ancaq təəssüf ki, bu görkəmli memarın anadan olduğu və vəfat etdiyi tarix dəqiq məlum deyildir. Orta əsr qaynaqlarında da bu haqda elə bir məlumat yoxdur. Bu səbəbdən də memarın doğum və ölüm tarixi haqqında ancaq onun yaratdığı abidələr əsasında müəyyən mülahizələr yürütmək, bu tarixləri təxmini də olsa müəyyən etmək olar.

Qeyd olunduğu kimi, Əcəmi Naxçıvaninin zəmanəmizədək gəlib çatan abidələrindən Yusif Kuseyir oğlu türbəsinin inşası 1162-ci ildə, Möminə xatun türbəsinin inşası isə 1186-cı ildə başa çatmışdır. Əzəməti, möhtəşəmliyi, naxışlarının və kitabələrinin mükəmməlliyi ilə Möminə xatun türbəsi Yusif Kuseyir oğlu türbəsini geridə qoyur. Bu da təbii bir haldır. Çünki inşa tarixlərindən də göründüyü kimi Yusif Kuseyir oğlu türbəsini memar nisbətən gənc və ya cavan yaşlarında inşa etmişdir. Möminə xatun türbəsini isə ondan bir neçə il sonra, yaşının və sənətinin kamillik çağında ucaltmışdır. Fikrimizcə, Yusif Kuseyir oğlu türbəsini inşa edərkən memar 30-35 yaşlarında, Möminə xatun türbəsini tamamlayarkən isə 55-60 yaşlarında olmuşdur. Bu iki türbənin inşa tarixlərini əsas götürərək Əcəmi Naxçıvaninin doğum tarixini təxminən XII yüzilliyin 20-ci illərinə aid etmək olar. Görünür, UNESCO-nun Baş Konfransının 42-ci sessiyasında Əcəmi Naxçıvaninin 900 illik yubileyinin UNESCO çərçivəsində 2024-2025-ci illər ərzində qeyd olunacaq yubileylər siyahısına daxil edilməsi haqqında qərar qəbul edilərkən də bu cəhət əsas götürülmüşdür.

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin təvəllüd tarixi kimi, vəfat tarixi də dəqiq bilinmir. Fikrimizcə, 1186-cı ildə Möminə xatun türbəsini, bundan az sonra onun yaxınlığında Came məscidi kimi daha möhtəşəm bir abidəni inşa edən Əcəmi Naxçıvani qeyd olunduğu kimi həmin vaxt sənətinin və yaşının kamillik dövrünü yaşamışdır. İnsanın, xüsusi ilə kişilərin orta ömrünün 70-75 il olduğunu nəzərə alaraq böyük memarın XII yüzilliyin sonlarında vəfat etdiyini ehtimal etmək olar.

Dünyasını dəyişdikdən sonrakı dövrlərdə Əcəmi Naxçıvani yaradıcılığının və onun yaratdığı məktəbin təsiri ilə çox geniş bir ərazidə möhtəşəm memarlıq abidələri yaradılmışdır. Bu memarlıq məktəbinin təsiri elə Naxçıvan bölgəsində indiyədək qalan, bəlkə də Əcəmi Naxçıvaninin özü tərəfindən inşa edilmiş Gülüstan türbəsində (XII-XIII əsr), Qarabağlar memarlıq kompleksində (XII-XIV yüzillik), Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani tərəfindən inşa edilmiş Bərdə türbəsində (1322-ci il), Cənubi Azərbaycanın Marağa şəhərindəki Göy günbəzdə (1196-cı il), Səlmas türbəsində (XIV əsr) və digər abidələrdə aydın şəkildə izlənir.

Ümumiyyətlə, Naxçıvan memarlıq məktəbinin təsir coğrafiyası çox genişdir. Azərbaycan hüdudlarını aşıb keçən bu coğrafiya Yaxın və Orta Şərq ölkələrini də əhatə etmişdir. Bu ölkələrdə yetişən bir sıra görkəmli memarlar öz yaradıcılıqlarında Azərbaycan memarlığının Naxçıvan məktəbində Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tətbiq olunan bir sıra memarlıq ünsürlərindən geniş şəkildə istifadə etmişlər. Orta Asiyada, xüsusilə Səmərqənd şəhərində inşa edilən memarlıq nümunələrində də Əcəmi Naxçıvani sənətkarlığının izlərinə rast gəlinir. Bilindiyi kimi, Orta Asiya fatehi Əmir Teymur tutduğu ərazilərdə fəaliyyət göstərən görkəmli sənətkarların hamısını əsir götürərək paytaxt Səmərqəndə aparırdı. Həmin sənətkarlardan Səmərqənddə möhtəşəm memarlıq abidələrinin inşasında istifadə olunurdu. 1387-ci ildə Naxçıvanı tutduqdan sonra buradan da yerli sənətkarlar, o cümlədən memarlar Səmərqəndə köçürülmüş və onlar paytaxtın abadlaşdırılmasında iştirak etmişlər. Ona görə də bu abidələrdə Naxçıvan memarlıq məktəbinə məxsus xüsusiyyətlər öz əksini tapmışdır.

Uzun müddət Səfəvilər dövlətinin paytaxtı olmuş İsfahan şəhərinin memarlıq abidələrində, XVI yüzillikdə yaşamış məşhur türk memarı Sinanın İstanbulda inşa etdiyi abidələrdə də Əcəmi Naxçıvani yaradıcılığının təsiri özünü aydın şəkildə göstərir. Bunu türk tədqiqatçıları da öz əsərlərində təsdiq edirlər. Görkəmli türk sənətşünas alimi Oqtay Aslanapa "Türk sənəti" adlı dəyərli əsərində qeyd edir ki, Anadoludakı Səlcuqlu dövrü memarlıq abidələrinin bəzək motivləri, Cənubi Azərbaycanın Qəzvin məscidlərindəki eyni motivlər Naxçıvan abidələri vasitəsi ilə Anadoluya gəlib çıxmışdır. Müəllif hətta Sivasdakı nümunədən bəhs edərkən qeyd edir ki, "burada daş portalın üst kənarında bir-birini kəsən altıbucaqlıda Naxçıvan günbəzlərindəki motivlərin yenidən dəyərləndirildiyi görünməkdədir. Türk alimi Dalokay Vedat da bu cəhətə toxunmuş, Sinanın İstanbulda inşa etdiyi Xosrov paşa türbəsi haqqında danışarkən qeyd etmişdir ki, "burada Atabəylərdən qalma günbəzlərdən bir nəfəs gəlir".

Sinan yaradıcılığında Əcəmi Naxçıvani yaradıcılığının belə qabarıq şəkildə əks olunması isə heç də təsadüfi deyildir. Memar Sinan gənclik vaxtlarında mühəndis kimi Osmanlı ordusunda xidmət edərkən Sultan Süleyman Qanuninin 1535-ci ildə Azərbaycana yürüşü zamanı ordu ilə birlikdə Naxçıvana gəlmiş, Naxçıvan şəhərində Əcəmi Naxçıvani yadigarlarını görmüşdür. Memar Sinan Naxçıvanda olarkən Əcəmi Naxçıvani yadigarlarından indiyədək qalan Yusif Küseyir oğlu və Möminə xatun türbələri ilə yanaşı, həmin vaxt salamat vəziyyətdə olan qoşa minarəli baştağı, Came məscidi və digər abidələri də seyr etmişdir. Bu abidələr onun yaddaşında böyük təsir buraxmışdı. Həmin təsir bütün yaradıcılığı boyu görkəmli memarı izləmiş, yaratdığı abidələrdə özünü göstərmişdir.

Əcəmi Naxçıvani dövrünün çox böyük memarı, kamil sənətkarı olmuş, sənətinin incəliklərinə yiyələnmiş və zirvəsinə yüksəlmişdir. Onun yaradıcılığını təhlil edərkən belə bir qəti qənaətə gəlmək olur ki, o, dövrünün görkəmli memarı olmaqla bərabər, həm də zəmanəsinin bir sıra elmi biliklərinə, xüsusilə həndəsə, riyaziyyat, astronomiya kimi dünyəvi və dini elmlərə dərindən yiyələnmiş, hərtərəfli inkişaf etmiş şəxsiyyət, böyük bir filosof olmuşdur. Təsadüfi deyildir ki, başqa həmkarlarından daha çox üstünlüklərə və elmi biliklərə malik olduğu üçün Əcəmi Naxçıvani müasirləri tərəfindən "Şeyxül-Mühəndisin" ("Mühəndislərin başçısı", "Mühəndislərin şeyxi") kimi dəyərləndirilmişdir.

Əcəmi Əbubəkr oğlu Naxçıvani inşa etdiyi abidələr üzərində yazdığı kitabələrdə özünü "bənna" kimi təqdim etmişdir. XI-XIII əsrlərdə Azərbaycan memarlığında, xüsusilə onun Naxçıvan məktəbində "bənna" titulu daha üstün və məna tutumuna görə, daha genişmiqyaslı olmuşdur. Bu səbəbdən də həmin vaxt öz sənətinin zirvəsinə yüksəlmiş, çox möhtəşəm abidələr yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvani "bənna" titulu daşımış, ucaltdığı abidələr üzərində imzasını "bənna" kimi təqdim etmişdir.

Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış Azərbaycan memarlığının şah əsərlərindən olan Yusif Küseyr oğlu və Möminə xatun türbələri yüzillikləri adlayaraq insanlara yüksək estetik zövq verməklə memarın yaradıcı dühasını bu gün bizə əyani olaraq nümayiş etdirir. Bu əsərlər Əcəmi irsinin, memarlıq sənətinin ölməz əsərləri sırasına daxil olduğunu göstərir. Bu memarlıq irsi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin öz dövrünün – XII əsrin misli-bərabəri olmayan memarı olduğunu inamla söyləməyə əsas verir.

Qərbdə memarlıq yaradıcılığı imzasız olduğu bir vaxtda Əcəmi memarlığın bir sıra şah əsərlərinin müəllifi kimi bizim gözlərimiz önündə parlaq, təkraredilməz yaradıcılıq siması olan bir sənətkar, bədii və mühəndis düşüncəsinin nəhəng siması kimi canlanır. Tədqiqatçıların da qeyd etdiyi kimi XII əsrin memarlıq tarixi onunla yanaşı dayana biləcək digər bir layiqli memar tanımır. Yaratdığı möhtəşəm memarlıq nümunələrinə əsasən mübaliğəsiz demək olar ki, müsəlman intibahı dövründə – XII əsrdə Gəncə şəhərində Nizami, Naxçıvan şəhərində isə Əcəmi Naxçıvani kimi dahi şəxsiyyətlər yetişmiş, yaşamış və fəaliyyət göstərmişdir.

*ardı 16-cı səhifədə*

Fikrimizcə, Nizami Gəncəvi ədəbiyyatda hansı zirvəyə yüksəlmişsə, Əcəmi Naxçıvani memarlıqda həmin zirvəni fəth etmişdir. Hər hansı bir tarix-mədəniyyət abidəsi, o cümlədən türbə, məscid, xanəgah, körpü, karvansara, hamam, qala, istehkam, qəbirüstü xatirə abidəsi və s. hər bir xalqın torpağa vurduğu möhürdür. Dünyaya gələn hər bir sənətkar ömrünü başa vurduqdan sonra dünyasını dəyişir. Ancaq onun yaratdığı əsər uzun müddət yaşayır, gələcək nəsillərə öz mənsubiyyəti, onu yaradan sənətkar, tikildiyi tarix və s. haqqında dəyərli məlumatlar çatdırır, beləliklə, öz yaradıcısının tarixdə yaşamasına səbəb olur. Görkəmli memar Əcəmi Naxçıvani də sanki bütün bunları nəzərə alaraq özünün şah əsəri olan Möminə xatun türbəsinin üzərində belə bir beyt yazmışdır:

"Biz gedirik, ancaq qalır ruzigar, Biz ölürük, əsər qalır yadigar".

Həqiqətən dünya memarlıq xəzinəsinə Möminə xatun türbəsi kimi möhtəşəm bir nümunə bəxş edən Əcəmi Naxçıvani öz ömrünü çoxdan başa vursa da, hətta qəbrinin yeri belə unudulsa da, yaratdığı bu nadir memarlıq abidəsi 1186-cı ildən bəri, 839 ildir ki, Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalır, seyr edənləri öz gözəlliyi ilə heyran edir, müəllifinə rəhmət oxutdurur. Azərbaycan qadınının xatirəsinə ucaldılan və Haçadağla birlikdə Naxçıvanın simvoluna çevrilən bu abidə 1632-1653-cü illərdə Hindistanda Mümtaz Mahalın şərəfinə inşa edilmiş Tac Mahal məqbərəsi ilə birlikdə dünyada qadına, anaya ucaldılan ən möhtəşəm abidə kimi diqqəti cəlb edir və əzəməti ilə heyrət doğurur. Çox maraqlıdır ki, Əcəmi Naxçıvani özü də yaratdığı abidənin gözəlliyini qiymətləndirmiş, hətta onun üzərində fars dilində kufi xətti ilə "İlahi, bəd nəzərdən uzaq elə!" sözlərini yazmışdır.

Orta əsrlər zamanı Əcəmi Əbubəkr oğlu Naxçıvani də daxil olmaqla bütün sənətkarlar xalq kütlələri içərisindən çıxmış adamlar idi. Ona görə də onlar hakim sinfin tələblərinə uyğun olaraq çox vaxt yaratdıqları abidələrin üzərində öz imzalarını qoya bilmirdilər. Başqa sözlə desək, abidələr anonim tikilirdi. Yaratdığı möhtəşəm memarlıq nümunələrinin, hətta Naxçıvan şəhərinin rəisi Yusif Küseyir oğlunun türbəsi, yaxud da Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin arvadı və dövlətin ən qüdrətli hökmdarlarından olan Atabəy Məhəmməd Cahan Pəhləvanın və Qızıl Arslanın anası Möminə xatunun qəbirüstü xatirə abidəsi üzərində öz imzasını qeyd etməsi, onun yaşadığı dövrdə çox yüksək elm, hörmət və nüfuz sahibi olmasından irəli gəlmişdir.

*Hacıfəxrəddin Səfərli*
*AMEA-nın müxbir üzvü,*
*Naxçıvan Dövlət Universitetinin professoru*

# *Mahirə Nağıqızının "İpək köynək" hekayəsində psixoloji və tərbiyəvi məqamlar*



Mahirə Nağıqızı Azərbaycan ədəbiyyatının müasir nəsr ənənəsində özünəməxsus mövqe tutur. Onun yaradıcılığı həm dilin zənginliyi, həm də psixoloji dərinliyi ilə seçilir. Nağıqızının əsərlərində ailə, uşaqlıq xatirələri, təbiət müşahidəsi və ekoloji mühit mövzuları birləşərək oxucuya həm estetik, həm də emosional təcrübə təqdim edir. Müəllifin nəsri Azərbaycan ədəbiyyatında həm realist, həm də introspektiv yanaşmanın uğurlu nümunəsi kimi qiymətləndirilə bilər. O, gündəlik həyatın detallarını, insan və təbiət əlaqələrini elmi, psixoloji və bədii qatlarla təqdim edir.

"İpək köynək" hekayəsi müəllifin Azərbaycan ədəbiyyatında tutduğu əhəmiyyətli mövqeyin canlı nümunəsi kimi diqqət çəkir. Hekayədə həm uşaqlıq xatirələri, həm ailəvi bağlar, həm də təbiət müşahidəsinin psixoloji qatları ön plana çıxır. Bu əsər Mahirə Nağıqızının nəsrində keçmiş və indiki zamanın sintezi, insan və təbiət münasibətinin psixoloji təhlili və intergenerasional sevgi anlayışının nümayişidir.

Hekayə İzmir səfəri ilə başlayır və burada məkan həm vizual, həm də simvolik qatlarla təqdim olunur. Qəhrəmanın otel otağından dənizə baxışı və mehin sərinliyini hiss etməsi, eyni zamanda ipək köynək motivi, oxucuda nostalji və empatiya hissi yaradır:

"Otel otağının dənizə baxan balkonuna çıxanda sifətimə dəyən mehin sərinliyini hiss etdim… Sultan üçün söz verdiyim ipək köynəyi almaq istəyirdim".

Bu səhnə müəllifin məkan vasitəsilə psixoloji dərinliyi oxucuya çatdırmaq strategiyasını nümayiş etdirir, Egey dənizinin təsviri, həmçinin emosional rezonans və bədii realizm baxımından hekayəyə universal dəyər əlavə edir.

Hekayədə İzmir şəhəri, palma və xurma ağacları, Egey dənizinin, Naxçıvanın vizual cazibəsi müəllifin psixoloji rahatlığını artırır. Bu təsvir nostalji və emosional keçid üçün funksional rol oynayır. Müəllif nəvəsi üçün ipək köynək axtararkən uşaqlıq xatirələri canlanır və psixoloji intergenerasional bağlılıq yaranır.

Hekayədə zaman və məkanın sintezi çox maraqlıdır. Belə ki, indiki zaman – İzmir səfəri və keçmiş-uşaqlıq xatirələri paralel təqdim olunur. Əsərin emosional qatında – keçmiş xatirələrin Egey dənizinin fonunda canlanması oxucuda nostalji və empatiya hissini yaratması təşkil edir.

Qeyd etdiyimiz kimi, hekayənin başlanğıcında müəllif İzmirdə otelin eyvanından Egey dənizinə baxır. Dənizin sonsuzluğu, ulduzlu səma və mehin sərinliyi, müəllifin introspeksiyasını və uşaqlıq xatirələrinin canlanmasını stimullaşdırır. Əsərin sonu, yəni xəyallar isə qəhrəmanı Naxçıvana, Xalxala, uşaqlığa aparır.

Hekayənin məkan anlayışına gəldikdə isə palma və xurma ağacları ilə dolu sahil, dənizin genişliyi və otelin vizual cazibəsi müəllifin psixoloji sakitliyini ifadə edir. Məkan həm də uşaqlıq xatirələrinə emosional keçid üçün kontekst rolunu oynayır.

Əsərin zaman anlayışı da çox diqqətəlayiqdir. Müəllifin nəvəsi üçün ipək köynək axtarışı, keçmiş xatirələrlə sintez edilərək intergenerasional emosional əlaqə yaradır.

Hekayənin əsas hissəsi qəhrəmanın uşaqlıq xatirələrinə keçid edir. İpəkqurdlarının böyüməsini və tut yarpaqlarına olan marağı uşaqlığın təbii maraq və müşahidə qabiliyyətini nümayiş etdirir: "Balaca qurdların sürətlə böyüdüyünü və tut yarpaqlarına necə iştahla girişdiyini müşahidə edirdik".

Bu epizodlar uşağın empatiya və diqqətini vurğulamaqla yanaşı, təbiət hadisələrinə elmi və analitik yanaşmanı göstərir. Uşaqlıq xatirələri hekayədə həm bioloji, həm də psixoloji inkişaf kontekstində təqdim olunur.

Hekayədə ipəkqurdlarının böyüməsi, rəng dəyişiklikləri və barama hazırlaması həm ekoloji mühitin tərkib hissəsi, həm də simvolik metafora kimi işlənmişdir: İpəkqurdlarının qida ehtiyacı, böyümə mərhələləri və barama toxunması uşaqlar üçün canlı bir mikro-ekosistem rolunu oynayır.

Müəllifin uşaqlıq xatirələrində ipəkqurdlarının böyüməsi, yemlənməsi və barama hazırlaması ekoloji mühit və canlı-nəzəri əlaqə baxımından təqdim olunur.

Belə ki, uşaqlar ipəkqurdlarının davranışlarını izləyir, onların ehtiyaclarına diqqət göstərirlər. Bu, əlbəttə ki, təbiətə qarşı empatiya və öyrənmə bacarığı yaradır.

Ananın ipəkqurdları ilə davranışı, onların qorunması və inkişafını təmin etməsi mərhəmət və məsuliyyətin simvoludur. Bu, uşaqlarda etik və emosional dəyərlərin formalaşmasına xidmət edir.

Hekayədə maraqlı psixoloji emosional məqamlar da var. Belə ki, ana diqqətini qurdlar üzərinə yönəltdiyi zaman uşaqlarda əvvəl qısqanclıq yaranır, lakin sonradan bu empatiya və anlayışa çevrilir.

Ümumiyyətlə, ananın təsviri hekayədə psixoloji təhlil baxımından xüsusi əhəmiyyət kəsb edir; onun zəhmətkeşliyi, halallığa önəm verməsi, hər kəsə təmənnasız xidmət göstərməsi və uşaqlara nümunəvi münasibəti psixoloji və emosional liderlik nümunəsidir.

Hekayədə ananın xarakteri diqqət və zəhmət simvolu kimi işlənmişdir. O, ipəkqurdlarının böyüməsinə xüsusi məsuliyyətlə yanaşır və mərhəmət göstərir: "Anam bu asan olmayan işi təkbaşına başa çatdırdı… və bizi bütün vasitələrlə təhlükədən qorumağa çalışdı." "Atam hamımızın xüsusi iştirakı ilə qablaşdırdığımız barama topalarını qəbul məntəqəsinə təhvil verdi. O, məntəqədən gələndə 780 kiloqram barama təhvil verdiyimizi bildirdi, hamımız bunu böyük hadisə kimi qarşılayıb bir-birimizi təbrik edəndə, gözüm qapının ağzındakı qaz sobasının üstündə poqquldayan qazanın qapağını qaldıran anama sataşdı. O, baş verənlərin ona aid olmadığı adamlar kimi, biş-düş işləri ilə məşğul idi.

Mənə elə gəlirdi, yoxsa doğrudan elə idi, bilmirəm, amma əmin olduğum həqiqət anamın baramaya müqəddəs bir şey kimi baxdığını deyirdi".

Bu nümunələr müəllifin ana obrazı üzərindən zəhmət və diqqət motivlərini simvolik təmsil etməsi baxımından əhəmiyyətlidir. Hekayədə ananın rolunun təqdimatı sosial psixologiya və etik dəyərlər perspektivindən də araşdırıla bilər.

Onu da qeyd edək ki, müəllifin xatirələrində ana sadəcə ailənin qayğıkeş üzvü deyil, həm də mənəvi dayağı, mənsub olduğu mədəniyyətin ən ali dəyərlərinin daşıyıcısıdır. Mahirə Nağıqızı ananı həyatın fırtınaları qarşısında sarsılmayan, övladlarını həm əxlaqi, həm də mənəvi cəhətdən formalaşdıran müqəddəs varlıq kimi təsvir edir. Onun zəhmətkeşliyi, fədakarlığı və sevgi dolu qayğısı oxucuda dərin hörmət hissi oyadır. Bu obraz oxucunu analara hörmət və minnətdarlıq göstərməyə, ailə bağlarının əhəmiyyətini dərk etməyə çağırır.

Eyni zamanda, müəllifin ana ilə bağlı xatirələri gənc nəslin milli-mənəvi köklərə bağlanmasının, ənənəvi dəyərlərin qorunmasının zəruriliyini vurğulayır. Ana obrazının müqəddəsliyi, onun həyat məktəbi kimi təqdim olunması tərbiyəvi baxımdan böyük təsir gücünə malikdir. Bu hekayələrdən öyrənilən əsas dərs odur ki, ana sadəcə ailənin dayağı deyil, həm də millətin mənəvi gücünün rəmzidir; onun şəfqəti və zəhməti insan xarakterinin formalaşmasında əvəzsizdir.

Ananın ipəkqurdlarının böyüməsini izləməsi və baramaların hazırlanması uşaqlar üçün psixoloji və etik təlim funksiyası daşıyır. Burada ananın mərhəməti və zəhməti uşaqlara məhsuldarlıq və səbrin simvolunu öyrədir. Uşaqlar ananın hərəkətlərini müşahidə edərək etik və emosional davranış nümunəsi qazanır.

Burada maraqlı məqamlardan biri də odur ki, ipəkqurdlarının yetişməsi insan zəhməti və ailəvi bağlılıq ilə paralel qoyulur. Baramanın yaranması prosesi müəllif üçün həm nostalji, həm də estetik dəyər yaradır.

Ekoloji mühitə inteqrasiya da əsərdə mövcuddur. İpəkqurdlarının yetişdirilməsi ilə bağlı qaydalar və mərhələli proseslər uşaqlara təbiət və canlıların inkişafı haqqında dərin anlayış verir.

Müəllifin uşaqlıq müşahidəsində ipəkqurdlarının böyüməsi və barama istehsalına qatılması həyat və öyrənmə prosesinin metaforasıdır; uşaqlıq müşahidəsi psixoloji və intellektual inkişaf üçün təməl rol oynayır.

Hekayədəki şeirdə də müəllif nəvəsinə sevgisini və qoruyucu instinktini ifadə edir:

Köynəyin kətandımı,
Canına yatandımı?...
Mən sənə qurban olsam,
Bu dünya batandımı?...

Şeir sevgi, qayğı və nostalji hissləri birləşdirir. İpək köynək zəhmət və ailəvi bağlılıq simvolu kimi çıxış edir. Şeirin psixoloji təsiri hekayənin tematik əsasını gücləndirir və müəllifin uşaqlıq xatirələri ilə indiki duyğular arasında emosional körpü yaradır.

Nəticədə Mahirə Nağıqızının "İpək köynək" hekayəsi Azərbaycan ədəbiyyatında həm milli, həm də universal psixoloji və emosional motivləri birləşdirən nümunəvi əsərlərdən biridir. Əsər uşaqlıq təcrübələri, təbiət müşahidəsi və səbrin simvolik təsviri baxımından diqqət çəkir.

Mahirə Nağıqızının bədii nəsri həm milli, həm də beynəlxalq müstəvidə psixoloji tərbiyənin əhəmiyyətini özündə ehtiva edir. Hekayə Azərbaycan ədəbiyyatında uşaq təxəyyülü və təbiət müşahidəsi motivlərinin unikal təmsilçisi kimi qiymətləndirilə bilər.

Mahirə Nağıqızının avtobioqrafik hekayələri Azərbaycan ədəbiyyatında ailə dəyərlərinin, milli-mənəvi tərbiyənin və mənəvi irsin qorunmasının canlı nümunəsidir. Müəllif öz şəxsi xatirələrinə əsaslanaraq oxucunu təkcə fərdi həyat hekayəsi ilə deyil, həm də bütöv bir nəslin və bir dövrün düşüncə və yaşam tərzi ilə tanış edir. Bu baxımdan Mahirə Nağıqızının yaradıcılığı tərbiyəvi məzmun daşıyır, çünki burada ailə bağlarının möhkəmliyi, valideynə ehtiram və əməksevərlik oxuculara nümunəvi şəkildə çatdırılır.

Beləliklə, Mahirə Nağıqızının avtobioqrafik hekayəsi həm ədəbi, həm də pedaqoji baxımdan dəyərli nümunədir. O, ananın müqəddəsliyini ucaldaraq oxucunu ailə dəyərlərinə sədaqətə, fədakar əməyə və insanpərvərlik ruhuna səsləyir.

*Məlahət Babayeva*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

# Regionun sosial-iqtisadi inkişafında Naxçıvan Dövlət Texniki Kollecinin əhəmiyyəti: 100 illik perspektiv

Naxçıvan Dövlət Texniki Kolleci Azərbaycan təhsil tarixində mühüm yerə malik olan, yüz illik ənənələri ilə tanınan elm və maarif ocaqlarından biridir. XX əsrin əvvəllərində əsası qoyulan bu təhsil müəssisəsi ötən yüz il ərzində minlərlə gəncin bilik, bacarıq və ixtisas sahibi olmasında əvəzsiz rol oynamışdır. Kollecin yaranması Azərbaycan maarifçiliyinin inkişafı ilə bağlıdır. O dövrdə ölkənin sənaye və iqtisadi sahələrinə yüksək ixtisaslı mütəxəssislərə ehtiyac duyulduğundan, texniki biliklərin tədrisi xüsusi önəm kəsb edirdi. Bu məqsədlə yaradılan təhsil müəssisəsi sonrakı illərdə müxtəlif ixtisaslar üzrə təhsil verərək regionun sosial-iqtisadi inkişafına böyük töhfələr vermişdir.

Azərbaycan Respublikasının regionları arasında mühüm strateji, iqtisadi və mədəni mövqeyə malik olan Naxçıvan Muxtar Respublikası XX əsrin əvvəllərindən etibarən kənd təsərrüfatının inkişafına xüsusi diqqət ayırmışdır. Bu sahədə ixtisaslı kadr ehtiyacını qarşılamaq məqsədilə atılan mühüm addımlardan biri də 25 fevral 1925-ci il tarixində Naxçıvan Muxtar Respublikasının IV Sovetlər Qurultayında qəbul edilən qərarla Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun yaradılması olmuşdur. Bu qərar bölgədə peşəkar kadr hazırlığının təşkili istiqamətində təməl rolu oynamış və təhsilin inkişafında mühüm mərhələnin başlanğıcını qoymuşdur. Texnikum ilk tədris mərhələsində 41 nəfər tələbə qəbul etmişdir. Müəssisənin əsas məqsədi kənd təsərrüfatında tətbiq olunan yeni texnologiyaların mənimsədilməsi və həmin sahədə ixtisaslı mütəxəssislərin hazırlanması olmuşdur. Bu təhsil ocağı, yalnız kənd təsərrüfatı sahəsində deyil, həm də bölgədə ictimai və sosial münasibətlərin formalaşmasında mühüm rol oynamışdır. O dövrün tələblərinə uyğun olaraq texnikum həm nəzəri, həm də praktik biliklər verərək kənd təsərrüfatının müxtəlif sahələrində ixtisaslaşmış kadrların yetişdirilməsini təmin etmişdir.

Texnikumun fəaliyyəti dövrün ictimai-siyasi tələbləri ilə sıx bağlı olmuş, müxtəlif mərhələlərdə ad və struktur dəyişikliyinə məruz qalmışdır. 1920-1930-cu illər sovet dövrünün ideoloji istiqamətləri nəzərə alınaraq təhsil müəssisələri dövlətə sədaqətli kadrlar yetişdirməyə yönəldilmişdir. Bu səbəbdən texnikumun fəaliyyəti də həm ideoloji, həm də praktik baxımdan dövlət strategiyasının bir hissəsinə çevrilmişdir. Eyni zamanda, müəyyən ixtisaslarda, məsələn, coğrafiya və bitkiçilik fənləri üzrə müəllim çatışmazlığı səbəbilə bu ixtisasların müvəqqəti olaraq dayandırılması da təhsil sahəsindəki çətinliklərin göstəricisi olmuşdur.

1971-ci ilin sentyabr ayına qədər Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adı ilə fəaliyyət göstərən təhsil müəssisəsi həmin ildən etibarən Naxçıvan Sovxoz Texnikumu adlandırılmışdır. Texnikum Babək rayonunun Şıxmahmud kəndinə köçürülmüş, burada fəaliyyət göstərən toxumçuluq sovxozu ilə birləşdirilmiş və Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin adını daşımağa başlamışdır. Bu dəyişiklik kənd təsərrüfatının təşkilati və idarəetmə strukturlarında baş verən yeniliklərlə paralel şəkildə həyata keçirilmişdir.

1980-1990-cı illər ərzində texnikumun strukturunda və tədris proqramlarında bir sıra dəyişikliklər aparılmış, baytarlıq və mühasibatlıq kimi ixtisaslar aparıcı sahələrə çevrilmişdir. Sonrakı mərhələdə aqronomluq, meyvə-tərəvəzçilik, mexanikləşdirmə və digər ixtisaslar üzrə yeni şöbələr yaradılmışdır. Lakin 1990-cı illərin əvvəllərində SSRİ-nin dağılması və ictimai təsərrüfatın ləğvi ilə əlaqədar olaraq texnikum Şıxmahmud kəndindən Naxçıvan şəhərindən tələbə yataqxanasına köçürülmüş və əvvəlki adını Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adını yenidən almışdır.

Müstəqillik dövründə texnikum bir neçə dəfə ad dəyişikliyinə məruz qalmışdır. 1997-1999-cu illərdə Naxçıvan Aqrar Sənaye Kolleci, 1999-2002-ci illərdə isə yenidən Naxçıvan Kənd Təsərrüfatı Texnikumu kimi fəaliyyət göstərmişdir. 26 avqust 2002-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 140 nömrəli qərarına əsasən təhsil müəssisəsinin adı dəyişdirilərək Naxçıvan Dövlət Texniki Kolleci adlandırılmışdır.

2000-ci ildən etibarən kollec Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərmiş, 2012-ci ildən isə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin strukturuna daxil edilmişdir. 2016-cı ildə müasir tələblərə cavab verən yeni inzibati binanın istifadəyə verilməsi kollecin infrastruktur imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. 784 yerlik bu binada 15 elektron lövhə ilə təchiz edilmiş sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, baytarlıq və STEAM laboratoriyaları, 71 kompüterlə təchiz olunmuş 3 kompüter otağı, 13 fənn kabinəsi, 120 yerlik iclas zalı və müasir kitabxana fəaliyyət göstərir. Kitabxana fondu 10.232 nüsxə kitabdan ibarətdir ki, bunun 5.517-si bədii ədəbiyyat, 4.715-i isə dərsliklərdən ibarətdir.

2023-cü ilin 31 iyul tarixində qəbul edilən qərara əsasən, Naxçıvan Dövlət Texniki Kolleci Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Dövlət Universitetinin nəzdinə verilmişdir. Bu addım kollecin təhsil imkanlarını və elmi-tədris potensialını daha da gücləndirmiş, universitetin geniş infrastrukturu və akademik bazasından istifadəyə şərait yaratmışdır.

Hazırda kollecdə 13 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. İxtisaslar iki əsas şöbə aqrar və iqtisadiyyat, texniki şöbələr üzrə bölünür. Hazırda fəaliyyətdə olan ixtisaslara bank işi, mühasibat uçotu, bələdiyyə işi, baytarlıq, aqrar təsərrüfatın təşkili, turizm işinin təşkili, proqram təminatı, kompüter şəbəkələri, istilik texnikası, informasiya təhlükəsizliyi, nəqliyyat vasitələrinin texniki istismarı, elektrik təchizatı və lokomotiv-elektrik qatarı təsərrüfatı kimi müasir əmək bazarına uyğun sahələr daxildir.

Təhsil prosesində Naxçıvan Dövlət Texniki Kolleci peşəkar və yüksək ixtisaslı müəllim heyəti ilə fərqlənir. Bu heyətin elmi və pedaqoji potensialı kollecin tədris keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Kollecin əsasən əyani təhsil forması üzrə təşkil etdiyi tədris proqramları 13 müxtəlif ixtisası əhatə edir. Kollecin kifayət qədər tələbəsi olması regionda təhsil imkanlarının geniş olduğunu və həm dövlət, həm də fərdi tələbələrin marağını əks etdirir. Tələbələrin bu qədər çox olması kollecin sosial və təhsil missiyasının genişliyini göstərir. Dövlət sifarişi ilə təhsil alan tələbələr xüsusilə regionun iqtisadiyyatına və sosial həyatına faydalı kadrların hazırlanmasına töhfə verir. Ödənişli əsaslarla təhsil alanlar isə öz şəxsi təşəbbüsləri və maraqları sayəsində kollecin müxtəlif ixtisaslarında bilik və bacarıqlarını artırır. Bütün bunlar Naxçıvan Dövlət Texniki Kollecinin həm təhsil keyfiyyətinə, həm də kadr hazırlığına ciddi yanaşdığını, həm tələbə, həm də müəllim potensialını maksimal şəkildə səfərbər etdiyini göstərir. Müasir dövrdə kollecin məqsədi yalnız ixtisaslı mütəxəssis yetişdirmək deyil, həm də tələbələrin şəxsiyyət kimi formalaşmasına, onların intellektual və sosial bacarıqlarının inkişafına şərait yaratmaqdır. Bu baxımdan kollecin tədris heyəti və tələbə kontingenti onun uğurlarının və perspektivlərinin əsas göstəricilərindən biridir.

Müasir dövrdə Naxçıvan Dövlət Texniki Kolleci regionun ən qabaqcıl təhsil müəssisələrindən biri kimi geniş nüfuza malikdir. Kollec yalnız zəngin tarixi irsi və ənənələri ilə deyil, həm də müasir təhsil infrastrukturuna uğurla uyğunlaşması, innovativ pedaqoji metodların tətbiqi və müasir kadr hazırlığı standartlarına cavab verən proqramları ilə seçilir. Əsasən peşəkar və yüksək ixtisaslı kadrların hazırlanması sahəsində əldə etdiyi uğurlar, kollecin dayanıqlı inkişaf strategiyasının təməlini təşkil edir. Kollec bu gün əmək bazarının sürətlə dəyişən tələblərinə uyğunlaşaraq tələbələrin həm nəzəri biliklərə, həm də praktik bacarıqlara yiyələnməsini təmin edir. Tədris prosesində müasir texnologiyaların, rəqəmsal resursların və innovativ təlim üsullarının geniş tətbiqi kollecin təhsil səviyyəsinin yüksəlməsinə şərait yaradır. Eyni zamanda kollecin proqramları müasir iqtisadiyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları və texniki sahələrdə əmək bazarının real ehtiyaclarını nəzərə alaraq formalaşdırılır ki, bu da məzunların iş bazarında rəqabət qabiliyyətini artırır. Kollecin müəllim heyəti isə yüksək peşəkarlıq və elmi potensiala malikdir. Burada fəaliyyət göstərən təlim-tərbiyə işçiləri daim öz bilik və bacarıqlarını təkmilləşdirir, elmi araşdırmalar aparır və tələbələrə müasir dünyagörüşü qazandırırlar. Bu isə kollecin təhsil müəssisəsi kimi nüfuzunu daha da artırır. Naxçıvan Dövlət Texniki Kolleci uzun illər ərzində formalaşmış ənənələrinə sadiq qalaraq innovasiyaya açıqdır və regionun sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfələr verir. Kollecin əsas missiyası müasir əmək bazarının tələblərinə uyğun, ixtisaslı, savadlı və peşəkar kadrlar hazırlamaq artıq bir əsrdən çoxdur ki, uğurla həyata keçirilir. Bu missiyanın davamlı təminatı üçün kollecdə tədrisin keyfiyyətinin artırılması, yeni ixtisasların tətbiqi və tələbələrin peşə bacarıqlarının inkişafı prioritet məsələlərdən hesab edilir. Tarixi ərzində kollecin adı, statusu və ixtisas istiqamətləri bir neçə dəfə dəyişsə də, onun başlıca missiyası gənclərin peşəkar hazırlığı və cəmiyyətə faydalı kadrların yetişdirilməsi daim qorunub saxlanılmışdır. Burada təhsil alan gənclər yalnız nəzəri biliklərlə kifayətlənməmiş, həm də praktiki bacarıqlar qazanaraq müxtəlif istehsalat, texnika və xidmət sahələrində öz fəaliyyətlərini uğurla davam etdirmişlər.

Bu gün Naxçıvan Dövlət Texniki Kolleci müasir maddi-texniki bazası, təcrübəli müəllim heyəti və zəngin ənənələri ilə Azərbaycan təhsil sistemində xüsusi yer tutur. Təhsil müəssisəsində informasiya texnologiyaları, mühəndislik, iqtisadiyyat, turizm və digər sahələr üzrə ixtisaslı kadrlar hazırlanır. 100 illik yubileyini qeyd edən kollecin fəaliyyəti yalnız bir təhsil müəssisəsinin tarixi deyil, həm də bütövlükdə Naxçıvan Muxtar Respublikasının elm, təhsil və mədəni inkişaf tarixinin ayrılmaz hissəsidir. Bu əlamətdar yubiley münasibətilə kollecin pedaqoji heyətini, tələbələrini və bütün məzunlarını təbrik edir, qarşıdakı illərdə də təhsil müəssisəsinin ölkəmizə savadlı, bacarıqlı və vətənpərvər gənclər qazandıracağına inanırıq.

***Asəf Ruşanov***
***Naxçıvan Dövlət Universitetinin nəzdində***
***Naxçıvan Dövlət Texniki Kollecinin direktoru,***
***Aqrar elmlər üzrə fəlsəfə doktoru***

# YORULMAYAN VARLIQ - ZAMAN

Düşünün, sadəcə qaçırıq, durmadan qaçırıq, bezmədən qaçırıq, yorulmadan qaçırıq. Bu mümkündürmü, sizcə? Məsələn, bir "Saat" düşünək. Əlbəttə ki, saat enerjisinin bitdiyi yerə qədər işləyə biləcək. Saat zamanı ölçür. Ancaq zamanla yarışa bilmir. Dəyişmədən, dayanmadan, tükənmədən tək davam edə bilən zamandır.

Zaman nədir? Bəzilərimizin ağlına saat tıqqıltısı, bəzilərimizin ağlına təqvimdə dəyişən günlər, bəzilərimizin ağlına isə əlimizdəki telefonun ekranında yazılan rəqəm gəlir. Əslində zaman bunlardan heç biri deyil. Zaman bizim yaşamımızı ölçür. Hər bir saniyə, hər bir salisə bizim ömrümüzün çevrilən vərəqləridir. Biz bu vərəqləri boş qoymadan, hər birini dolduraraq çevirməliyik. Bəzən o vərəq bizim ən çətin saniyələrimizlə, bəzən isə ən maraqlı saniyələrimizlə dolmalıdır. Zaman bizim ən çarəsiz anımıza da şahidlik edir. Amma dayanmadan öz yoluna davam edir. Biz isə o anda qalıb zamanın durduğunu düşünürük. Zaman heç bir vaxt durmur.

Biz həyatımızı zaman üçbucağı ilə yaşayırıq: keçmiş, indi, gələcək.

"Keçmiş" deyəndə ağlınıza nə gəlir? Hər insan keçmişində həm çətin, həm maraqlı, həm də sevinc və kədər yüklü göz yaşları ilə dolu çox an yaşamışdır.



Zamanın da yaddaşı var. Hər bir salisənin olduğu bir yaddaş. Keçmiş "kaş ki" lər və "yaxşı ki" lərlə doludur.

Hal-hazırda 10 saniyə sonra nə olacağını təxmin edə bilərik? Təbii ki, yox. Bizə az gələn bu 10 saniyə bəlkə də böyük hadisələrə şahidlik edəcək. Bizim "indi"miz belədir. Nəinki 10 saniyə, 1 saniyə sonra olacaqları belə təxmin edə bilmərik.

Gələcək isə bizim yaşama məqsədimizi yerləşdirdiyimiz dövrdür. Ona memarlığı biz edirik. Gələcəyin bünövrəsi keçmişdir və gələcəyin sağlam olmağı üçün indimizi diqqətlə inşa etməliyik.

Gələcək xəyallarla doludur. Bu xəyallar bizə zamanın hədiyyələridir. Bəs zamanın bizə cəzası nədir? Peşmanlıq.

Əlbəttə ki, hər kəs xətalar edir. Biz peşmanlıq hissi ilə deyil, dərs çıxararaq xatırlayacağımız xətalar etməliyik. Çünki zamanı nə durdura, nə də geriyə ala bilərik. Zaman arxasında peşman və ya qürurlu insanlar buraxaraq yoluna davam edir. Bəs zamanla mübarizə aparmaq olarmı?

Zamana qarşı çıxmağa çalışan insanlar var. Qısaca, ardında iz buraxaraq gedənlər zamana qarşı mübarizə aparanlardır. Misal olaraq XIX əsrdə yaşayıb yaratmış Fyodor Dostoyevskini deyə bilərik. O, 144 il qabaq həyata gözlərini yummuş olsa da, zaman ona gözlərini yummayıb. O, zamana qarşı mübarizə apararaq hələ də öz əsərləri ilə yaddaşımızda qalmağa davam edir. Yaxud vətən uğrunda gözlərini qırpmadan, qəhrəmancasına şəhid olanlar… Onlar göstərdikləri qəhrəmanlığa görə zamanda dərin bir iz buraxıblar. Zaman onları bizə unutdura bilməz.

Zaman hər kəsə eyni ədalətlə yanaşır. Hər bir insana gün ərzində 24 saat verilib. Bu 24 saatı düzgün dəyərləndirmək bizim əlimizdədir.

Zaman sanki görünməzdir, amma hər yerdədir. Bəzən zamanın içində yox oluruq, bəzən isə özümüzü tapırıq.

Zamanın sualı yoxdur amma cavab gözləyir. Görəsən cavablarımız zamanın yadında qalacaq?

***Aysu Fətəliyeva***
***Jurnalistika ixtisası üzrə***
***II kurs tələbəsi***

# ŞAİR ZEYQƏM VÜQARIN POEZİYA DÜNYASI

***Bu mövzuda – Vətən, yurd mövzusunda yazmayan yoxdur. Zeyqəm Vüqar yaradıcılığına bir nəzər yetirək. Yəni onun doğma Azərbaycana həsr etdiyi bəzi şeir parçalarından nümunələrə diqqət çəkək. “Azərbaycanım mənim” silsiləsindən:***

Dindirdikcə mən səni
Qadan alım, can dedin.
Elə mehr göstərdin
Mən sənə anam dedim.
Gəl öpüm gözlərindən
Ay anam, canım mənim –
Azərbaycanım mənim!

Sinəmi sipər etdin
Güllələrin önündə
Sevincim bir ümmandı
Müstəqillik günündə.
Qorxun yox yollarında
Axsa da, qanım mənim,
Azərbaycanım mənim!

Avropa Şurasında
Öz yerin, öz hörmətim,
Tərəfində durmusan
Sən haqqın, ədalətin.
Dalğalanan bayrağın
Şöhrətim, şanım mənim.
Azərbaycanım mənim!

Sabahının nurunu
Mən indidən görürəm
Adına vərəq üstə
Sözdən çələng hörürəm.
Səhər-səhər havası
Həbim, dərmanım mənim,
Azərbaycanım mənim! (14, s. 11-12)

Zeyqəm Vüqarın "Azərbaycanım mənim" şeirlər silsiləsi Vətənə olan sevgisini, bağlılığını və qürurunu ifadə edir. Bu şeirlər, Azərbaycanın tarixi, təbiəti və müstəqilliyi ilə əlaqəli mövzuları əhatə edir. Gəlin, bu silsilədən bəzi parçaları təhlil edək.

Vətənə olan sevgisini, ana sevgisi kimi təsvir etmək Vətəni də anaya bənzətmək şeirin maraqlı təsviri məqamlarındandır. Bəzi məqamlarda bu sevgi bu cür qeyd olunur. “Dindirdikcə mən səni” Vətənlə söhbət etmək, onunla ünsiyyət qurmaq istəyini ifadə edir. Bu, şairin Vətənlə olan dərin əlaqəsini göstərir. “Qadan alım, can dedin” Azərbaycanın şairə qarşı olan sevgisini və dəstəyini ifadə edir. Bu cümlə, Vətənlə olan qarşılıqlı məhəbbəti vurğulayır. “Elə mehr göstərdin / Mən sənə anam dedim”: Azərbaycanı ana kimi təsvir edir. Bu, Vətənə olan dərin bağlılığı və sevgini göstərir. “Gəl öpüm gözlərindən” Anaya olan sevgi və hörməti göstərir. Bu, Vətənin müqəddəsliyini və əzizliyini ifadə edir.

Şair tam müstəqillik arzusundadır və bunun yolunu düşmənə qarşı xalqın sinəsini sipər etməsində qorxusuzluğunda görür. “Sinəmi sipər etdin / Güllələrin önündə” Vətəninin müstəqillik uğrunda döyüşdüyünü və qoruyucu rolunu vurğulayır. Bu ifadə, Azərbaycanın qoruma və müdafiə funksiyasını göstərir. “Sevincim bir umuddu / Müstəqillik günündə” Azərbaycanın müstəqilliyinin şair üçün sevinc və ümid olduğunu göstərir. Bu, müstəqilliyin gətirdiyi xoşbəxtliyi ifadə edir. “Qorxun yox yollarında / Axsa da, qanım mənim”. Şair, Azərbaycanın gələcəyinə inamını və qorxusuzluğunu ifadə edir. Bu, şairin Vətəninə olan inamını və müstəqillik uğrunda hər hansı bir çətinlikdən qorxmadığını göstərir.

Şair digər bəndlərdə Azərbaycanın beynəlxalq təşkilatlardakı yerini və nüfuzunu ifadə edir. Bu, Azərbaycanın beynəlxalq arenada tanınması və hörmət qazanmasını göstərir. Azərbaycanın haqqın və ədalətin tərəfdarı olduğunu vurğulayır. Bu, Azərbaycanın ədalətli və doğru yolda olduğunu göstərir. Azərbaycanın bayrağının dalğalanması, şair üçün qürur mənbəyi olduğunu ifadə edir. Bu, bayrağın vətənpərvərlik və milli qürur simvolu olduğunu göstərir. Azərbaycanın parlaq gələcəyinə olan inamını ifadə edir. Bu, şairin ümid və optimizmini göstərir. Azərbaycanı təqdir və tərif edən şeirlər yazmağı ifadə edir. Bu, şairin Vətənini şərəfləndirmək istəyini göstərir. Azərbaycanın təbiəti və havası, şair üçün şəfa və rahatlıq mənbəyidir. Bu, Vətənin sağlamlıq və dinclik qaynağı olduğunu göstərir.

Zeyqəm Vüqarın "Azərbaycanım mənim" şeirlər silsiləsi, Vətənə olan dərin sevgini, qüruru və bağlılığı ifadə edir. Şair, Azərbaycanın təbiətini, müstəqilliyini, beynəlxalq arenadakı yerini və gələcəyinə olan ümidlərini təsvir edir. Bu şeirlər, oxucunu Azərbaycanla bağlı duyğulara aparır və vətənpərvərlik hisslərini gücləndirir.

Azərbaycanı – doğma yurdu, anam deyib bağrına basan Z.Vüqar Azərbaycanın müstəqilliyini alqışlayan ilk şairlərdən biri olub. Bu şeir parçasında da o, həm Azərbaycanın bu gününü, həm də sabahını görür və alqışlayır. Avropa Şurasında Azərbaycanın hörmətli yer tutmasını, haqq səsini qaldıran və bu ölkənin əsl demokratik ölkə kimi tanınmasını, dövlət siyasətini alqışlayan Z.Vüqar əsl vətəndaş şairidir. Şairin “Vətən torpağı olsun” şeirinə nəzər salaq:

Adi günlərin birində
mən öləndə
Harda istəsəniz badırın məni.
Mənimçün fərqi yoxdu,
Yurd adlanan torpağın
Yaxın, uzağı olsun
Şahbuzu, Naxçıvanı, Şəkisi.
Şəmkir, Qazağı olsun.
Ürəyimdən keçir ki,
Hər səhər başdaşımın
gözlərinə görünən
yurd adlı bu torpağın
dərəsi, dağı olsun.
Bu sonsuz kainatda
Təki başımın altda
Azərbaycan adlanan
Vətən torpağı olsun!

Bu şair haqda yazmamaq ən azı günahdı. Vətənin hər qarışını əziz bilən, doğma bilən, öz evi bilən Z.Vüqar diri ikən “vəsiyyət” edir ki, o öləndə harda olursa olsun, təki Azərbaycan sərhədləri daxilində olan doğma yurdda dəfn etsinlər.

Z.Vüqarın "Vətən torpağı olsun" şeiri, onun Azərbaycan sevgisini və doğma yurda bağlılığını dərindən ifadə edən bir əsərdir. Şair, Azərbaycanı təkcə doğma yurdu kimi deyil, həm də həyatının və varlığının mənası kimi dəyərləndirir. Bu şeirdə, şairin vətənə olan sonsuz məhəbbəti və bağlılığı, ölümündən sonra belə Azərbaycanın hər hansı bir yerində dəfn olunmağı arzulaması ilə vurğulanır. Şair, doğma torpağı olan Azərbaycanın hər qarışını sevir və ona olan bağlılığı şeirinin hər bir misrasından hiss olunur. Z.Vüqar, Azərbaycanı təkcə fiziki bir məkan kimi deyil, həm də mənəvi bir dəyər olaraq görür. Onun bu şeiri, vətənə olan sədaqətin, bağlılığın və vətənsevərliyin ən saf və təmiz ifadəsidir. Şairin bu düşüncələri, Azərbaycanın müstəqilliyini və beynəlxalq arenada tanınmasını alqışlayan bir vətəndaş şair olaraq, onun vətəninə olan sevgisini dərinləşdirir və onu bu dəyərlərə bağlı olan bir insan kimi təqdim edir. Bu şeir, həm Z.Vüqarın şəxsi vətənpərvərlik hisslərini, həm də ümumi olaraq Azərbaycanın müstəqilliyinə və onun gələcəyinə olan inamını əks etdirir. Şair, vətəninin hər yerini əziz bilir və ömrünün sonuna qədər ona sadiq qalmağı vəsiyyət edir. Bu şeirin nəticəsi olaraq, Z.Vüqarın vətənə olan sevgi dolu hissləri və onun Azərbaycanla olan mənəvi bağlılığı vurğulanır, bu da onu əsl vətəndaş şair kimi önə çıxarır.

Gənc yaşlarından yaradıcılığa başlayan, indi də yaşamaqdan – yazmaqdan doymayan, M.Araz torpağından, M.Araz şeirindən bəhrələnən Şahbuz şairlərindən biri də Z.Vüqardır. onun düşmənə - yəni Zori Balayanlara nifrəti güclü olduğu kimi, dosta, yoldaşa sədaqəti, vətənə, torpağa əsl vətəndaş sevgisi də güclüdən güclüdür. Şairin yaradıcılığında sevgi şeirləri az deyil. Onun sevgi şeirləri bir növü tövsiyyə xarakteri daşıyır. Hər kəsi təmiz məhəbbətlə sevməyə çağırır. Z.Vüqarın sevgi şeirlərində bir neçə parça:

Qarşında bir möcüzəyəm,
Bacarırsan, sevmə məni.
Eşqim səni edər dəli,
Bacarırsan, sevmə məni.

Mənə mehrin saldın xoşla,
Ötənləri unut, boşla.
Otur, düşün ağıl-başla,
Bacarırsan, sevmə məni.

...Ürəyimə salmışam xal,
Mən sərsəri, sən əhli-hal,
Öyüdümü eylə xəyal,
Bacarırsan, sevmə məni.
Gözün məni çəkir dara,
Olub qəlbim para-para.
Zülm etmə Zeyqəm Vüqara,
Bacarırsan, sevmə məni. (14, s. 43)

Şair heç də tərəfə yalvarmır, ancaq elə ifadələr işlədir ki, həmin qız əvvəlcə gizli sevirdisə, indi açıq-aşkar sevəcək.

Şeirin ümumi teması, sevgi və əlaqənin mürəkkəbliyini və qarşılıqlı duyğuları araşdırır. Şair, qarşısındakı şəxsə, ona qarşı duyulan sevginin çətinlik yarada biləcəyini və bunun onun həyatını necə təsir edə biləcəyini açıq şəkildə bildirir.

İlk bənddə, şair sevgilisinə açıq şəkildə müraciət edir və onun öz məhəbbətinə qarşı səbrli olmasını, özünü bu əlaqənin mürəkkəbliyindən qorumasını tövsiyə edir. Şair, öz sevgisinin, qarşı tərəfi dəliləşdirə biləcəyini iddia edir və bunu qızın sevgi



nümayiş etmə ehtimalını nəzərə alaraq ifadə edir. Burada bir tərəfdən şair, özünün dərin və təsirli bir şəxs olduğunu vurğulayır, digər tərəfdən isə qarşı tərəfi öz məhəbbətinə qarşı ehtiyatlı olmağa çağırır.

İkinci bənddə, şair qarşı tərəfin keçmişini unutmasını və düşünməyə başlamasını tövsiyə edir. Bu, şairin öz sevgisinin ciddi olduğunu və qarşı tərəfin özünü yalnızca şairə yönəltməsi lazım olduğunu vurğulayır. Burada, şair öz sevgisinin qarşı tərəfi düşündürməyə və təhlil etməyə məcbur edəcəyinə inandığını göstərir.

Üçüncü bənddə, şair öz xarakterinin və daxili vəziyyətinin təsvirini təqdim edir. Şair özünü sərsəri və qarşı tərəfi əhli-hal adlandırır, bu da onun nə qədər fərqli və mürəkkəb olduğunu göstərir. Şair, özünün bu əlaqədə necə mövcud olduğunu və qarşı tərəfin bu vəziyyətlə necə başa çıxacağını vurğulayır. Şair, özünü xüsusi bir şəxsiyyət olaraq təqdim edir, buna görə də qarşı tərəfi öz sevgisinə qarşı ehtiyatlı olmağa dəvət edir.

Son bənddə, şair, sevgisinin qarşı tərəfi necə təsirləndirdiyini və bunun nə qədər mürəkkəb olduğunu açıqlayır. O, qarşı tərəfi, ona zülm etməməyi və öz məhəbbətinin qarşısında ehtiyatlı olmağı tövsiyə edir. Şairin qəlbinin para-para olması, onun sevgisinin nə qədər çətin və təsirli olduğunu göstərir.

Nəticə olaraq, Zeyqəm Vüqarın şeiri, sevgilinin qarşısında durduqda yaşanacaq psixoloji vəziyyətləri və sevginin çətinliklərini təsvir edir. Şair, mürəkkəb bir sevgi əlaqəsinin bütün emosional tərəflərini əks etdirir və qarşı tərəfi bu münasibətlərdə diqqətli və ehtiyatlı olmağa dəvət edir. Şeirin dil və üslubu, şairin iç dünyasını və sevginin mürəkkəbliyini dərin şəkildə təsvir edir, bu da oxuculara şairin duyğusal vəziyyətini və düşüncələrini daha yaxşı anlamağa kömək edir.

Qeyd edək ki, bu sənətkar bütün məqamlarda ümidlidi. Torpaqlarımızın alınmasına da ümidliydi... Ümidi doğruldu. Sevgisinə də ümidlidi. Onun gənclərin və yaşlıların dilindən düşməyən, məclislərdə, toyda, bayramlarda deyilən şeirlərindən bir neçə bənd: Şeirin adı belədir “Gətirmişəm”:

Dağıt saçlarını, dağıt üzümə,
Çöhrənə təbəssüm, naz gətirmişəm.
Mən səni ilk dəfə görən bir gündən
Ömrümə çiçəkli yaz gətirmişəm.

Qəlbindən qəlbimə bir cığır, yol sal
Eşqinəm, eşqinin boynuna qol sal,
Məni alışdırmaq niyyətin olsa,
Ovcumda bir qədər köz gətirmişəm.

Olmadım taledən, bəxtdən narazı,
Pozulmaz tanrının yazdığı yazı,
Məni mənim kimi görməkçün azı,
Özümlə bir cüt də göz gətirmişəm.

Ömrümü, günümü qara eyləsən,
Qəlbimi, könlümü para eyləsən,
Kəsib ürəyimi yara eyləsən,
Səpməyə bir qədər duz gətirmişəm. (14, s. 82)

Şeir, sevgi və aşiqanə hisslərin şair tərəfindən təsvir edilməsinin nə qədər incə və poetik ola biləcəyini gözəl bir şəkildə nümayiş etdirir. Zeyqəm Vüqar burada, sevgi mövzusunu sadə, lakonik və eyni zamanda təsirli bir dillə təqdim edir. Şair, qarşı tərəfə sevginin dərinliyini və hər cür əzabını izah edərək, özünü və duyğularını açıq şəkildə ifadə edir.

Şeirin ilk bəndində, şair sevgilisinin gözəlliyini və onun təsirini təsvir edir. "Dağıt saçlarını" ifadəsi ilə sevgilisinə olan həsrətini və onun gözəlliyinə duyduğu ehtiramı göstərir.

*ardı 19-cu səhifədə*

Şairin bu ifadəsi, oxucuda bir gözəl və romantik təəssürat yaradır. Şair, sevgilisinin həyatına gətirdiyi müsbət dəyişiklikləri "çiçəkli yaz" metaforası ilə təsvir edir, bu da onun həyatında yaratdığı gözəlliyi və xoşbəxtliyi vurğulayır.

İkinci bənddə, şair, sevginin təbii və səmimi yönlərini ifadə edir. Sevginin qarşılıqlı münasibətlərdə necə təsir etdiyini və qarşı tərəfi necə alışdırmaq istədiyini qeyd edir. "Ovcumda bir qədər köz gətirmişəm" ifadəsi, sevginin yaratdığı əzabın və mübarizənin əlamətidir. Şair, qarşı tərəfi öz sevgisinə alışdırmaq niyyətində olduğunu, bunun üçün səy göstərdiyini bildirir.

Üçüncü bənddə, şair taleyin ona verdiyi yazının və bəxtin onun həyatında necə bir rol oynadığını vurğulayır. O, özünü və sevgisini təmsil edərək, qarşı tərəfi yalnız öz gözləri ilə deyil, həm də qəlbi ilə görməsini istəyir. Şair, sevgisinin qarşılıqlı anlayış və qəbul tələb etdiyini göstərir.

Sonuncu bənddə, şair öz sevgisini və onun əzabını təqdim edir. Hətta sevgi qaranlıq və ağrılı olsa belə, şair sevginin dəyərini artırmaq və onu daha da dərinləşdirmək üçün "duz" gətirdiyini bildirir. Bu ifadə, şairin sevgi yolunda çəkdiyi əzabın və verdiyi əziyyətin nə qədər böyük olduğunu göstərir.

Zeyqəm Vüqarın şeiri, sevgi və aşiqanə hisslərin poetik bir şəkildə ifadəsidir. Şairin sadə, lakonik və təsirli dili, sevginin dərinliyini və onun müxtəlif yönlərini vurğulayır. Şeir, oxuculara sevginin həm müsbət, həm də mənfi tərəflərini göstərərək, onun həyatımızdakı yerini və əhəmiyyətini təsvir edir. Şairin səmimi və açıq ifadələri, oxucuların şeiri dərindən anlamalarına və hiss etmələrinə kömək edir.

Bax, əsl şair, əsl sevən, əsl aşiq özünü sevgilisinə belə təqdim edər. Şeir çox lakonikdir, sadə dildədir, hər kəs tərəfindən başa düşülür, anlaşılır. Ədəbi-bədii dil qaydalarına tam riayət olunub. Sevən belə olar: qəlbində söz, ovcunda köz, yaraya səpməyə duz gətirər ki, yaraya səpəndə daha çox göynəsin. Əhsən belə aşiqə!

Hələ gənc yaşlarından şeir yaradıcılığına başlayan, artıq püxtələşmiş şair kimi tanınan Zeyqəm Vüqar təkcə Naxçıvan şairləri arasında yox, Azərbaycan ədəbi mühitində belə öz imzasını təsdiq edən sənətkarlardandır. Onun müraciət etdiyi mövzular rəngarəngdir: vətən, yurd, valideyn, məhəbbət, azərbaycançılıq mövzuları şairin yaradıcılığında üstünlük təşkil edir. Zeyqəm Vüqar bu mövzulara yanaşı, bəlkədə müəllim olduğuna görədir ki, gənc nəslin tərbiyəsinə aid xeyli şeirlər qələmə almışdır.

Z.Vüqar birinci Qarabağ savaşında qaçqın, köçkün düşmüş insanlara və bundan istifadə edib dünyanın bir sıra şəhərlərinə getmiş "kişilərə" müraciətlə bir neçə şeir həsr etmişdir. Onlardan birini təqdim edirik. Şeir "Durma, qayıt, od-ocağın üstünə" adlanır.

Ocaq sönüb ocaq daşı ağlayır,
Vətən ürək-ürək başı ağlaır.
O yerlərin sel-yağışı çağlayır…
Vərdiş olar yerini dinc istəmə,
Durma, qayıt od-ocağın üstünə.

…Düşünmə ki, gedən döyüş səngidi,
Ataş səsi – ölüm, itim cəngidi.
Qəriblikdə yetər bezdin, ləngidin.
Gözdəki yaş vallah bənddi bir himə,
Durma, qayıt, od-ocağın üstünə.

Qaçqın oldun, köçkün oldun, el getdi,
Bir gecədə sübhə qədər yol getdin.
Kimisində ayaq itdi, əl getdi,
Bu halda da unudulmur yurd yenə,
Durma, qayıt od-ocağın üstünə.

…O yerlərdə ana ahı dolanır,
Yan-göründə şər qarğışı dolanır,
Xəyalında o yerləri dolanır.
Bəlkə canın bir az qıza, istinə
Durma, qayıt od-ocağın üstünə.
Bütöv verdin, səngər-səngər al geri,
Aparandı qələbəyə, dön geri
Halın yoxsa, birdəfəlik öl, kiri.
Qalxırsansa, qalx ayağa şəstinən,
Durma, qayıt od-ocağın üstünə. (14, s. 22)

Z.Vüqarın "Durma, qayıt, od-ocağın üstünə" adlı şeiri, birinci Qarabağ müharibəsində qaçqın və köçkün düşmüş insanlara və onların yerinə yetməli olduğu vətənpərvərlik borcuna yönəlmiş bir müraciətdir. Şeir, oxuculara vətənə dönmənin, od-ocağı qorumanın və vətən uğrunda mübarizəni davam etdirməyin vacibliyini təlqin edir. Şeirdə vətən sevgisi, ayrılıq ağrısı və geri dönmənin əhəmiyyəti vurğulanır.

Şeir boyunca vətənə olan dərin sevgi və bağlılıq hiss olunur. "Ocaq sönüb ocaq daşı ağlayır" misrası ilə vətənə dönmənin vacibliyi vurğulanır və insanların vətən sevgisinin heç bir zaman sönməyəcəyi bildirilir. Şair, insanların doğma yurdlarını unutmaması və oraya geri dönməsini arzulayır.

Şeirdə, mübarizənin hələ bitmədiyi və insanların döyüşə davam etməsi mesajı verilir. "Düşünmə ki, gedən döyüş səngidi" misrası ilə, mübarizənin hələ davam etdiyi və insanların geri dönərək bu mübarizəyə qatılmasının vacibliyi vurğulanır. Şair, insanları vətən uğrunda mübarizəyə çağırır.

Şeirdə, ayrılıq ağrısı və vətənə dönməyin gətirəcəyi ümid hissi ön plana çıxır. "Gözdəki yaş vallah bənddi bir himə" misrası ilə, vətənə dönüşün gətirəcəyi sevinc və təsəlli hissi ifadə edilir. Şair, insanların doğma yerlərinə dönərək orada yeni bir həyat qurmasının əhəmiyyətini vurğulayır.

Şeir, insanlara dözüm və qərarlılıq aşılayır. "Bütöv verdin, səngər-səngər al geri" misrası ilə, insanların vətənlərini geri almaq üçün əzmli və qərarlı olmaları təlqin edilir. Şair, insanlara mübarizəni davam etdirməyin və sonuna qədər dözmənin əhəmiyyətini öyrədir.

Beləliklə, Z.Vüqarın şeiri, qaçqın və köçkün düşmüş insanların vətənə dönməsini və od-ocaqlarını qorumasını təbliğ edən dərin mənalı bir əsərdir. Şeir, vətən sevgisi, mübarizə, ümid və qərarlılıq kimi dəyərləri ön plana çıxararaq, oxuculara mənəvi güc və əzm aşılayır. Bu şeir, insanların vətən uğrunda mübarizəyə davam etməsinin və doğma yurdlarına dönərək orada yeni bir həyat qurmasının vacibliyini bir daha təsdiq edir.

Müəllif bir neçə bəndlik bu şeirdə Birinci Qarabağ savaşında öz yurd-yuvalarından didərgin düşmüş insanlara, xüsusən kişilərə və gənclərə üz tutub deyir ki, qayıdın geri, od-ocağınızın üstünə, ocağınız yenidən tüstülənsin. Bu poetik çağırışda şair böyük ümidlə, inamla təkid edir ki, qayıdın və güvənin Azərbaycan ordusuna, Silahlı Qüvvələrin Ali Baş Komandanına. Əli silah tutan hər bir Azərbaycan vətəndaşı, xüsusən köçkün qarabağlılar yenidən vuruşan əsgərlərə qoşulmalı, ata torpağımız, ana vətənimizin dilbər guşəsi Qarabağı düşmən tapdağından azad edin. Həqiqətən də, bu belə oldu. 44 günlük Vətən müharibəsində - ikinci Qarabağ savaşında qədirbilən xalqımızın monolit birliyi, igid əsgərlərimizin qəhrəmanlığı, silahlı qüvvələrin Ali Baş Komandanı İlham Heydər oğlu Əliyevin qəti iradəsi, siyasi gücü, savadı, özünəməxsus manevrləri ilə Ata vəsiyyətini yerinə yetirdi. Müzəffər Azərbaycan ordusu erməni vandallarına, daşnaqlara, əzəli və ədəbi düşmənlərimizə ağır zərbələr vurdu, torpaqlarımız işğaldan azad oldu. Hazırda böyük qayıdışın başlanğıcındayıq. İnşallah bütün istəklərimizə nail olacağıq.

***Nicat Yaqubov***
***Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor***

# Peyğəmbər xislətli sənətkar

Azərbaycanın milli təfəkkür tarixində mövcud olmuş ən parlaq simalardan biri də Üzeyir Hacıbəylidir. Olduqca zəngin, əbədiyaşar, çoxşaxəli yaradıcılığı və ictimai fəaliyyəti ilə bu dahi şəxsiyyət millətimizin mənəvi atalarından birinin səviyyəsinə yüksəlmək şərəfinə nail olmuşdur. Onun yaratdığı bütün incilər, istisnasız olaraq, doğulduqları ilk andan etibarən özlərinə əbədi həyat qazanmışlar. Hər sabah açılarkən səslənən himnimiz, bütün təntənəli tədbirlərin başlanğıcında simvolik olaraq ifa olunan "Koroğlu"nun üverturası və digər sayısız-hesabsız nümunələr əyani olaraq bunu sübuta yetirir. Üzeyir bəyin yaradıcılıq dünyası olduqca geniş və zəngindir. Ayrılıqda götürdükdə o, həm bəstəkar, həm dramaturq, həm jurnalist, həm alim və pedaqoq, həm ictimai xadim və nəhayət əsl mənada böyük insan, şəxsiyyət kimi məşhur ola bilərdi. Bütün bu keyfiyyətlərin toplu şəklində mövcud olması Üzeyir bəyi "seçilmişlər" in səviyyəsinə yüksəldir. Müqəddəs İlahi Kitab Qurani-Kərimdə dəfələrlə buyurulur ki, peyğəmbərlər və Allahın sevimli qulları Yaradan tərəfindən seçilir və hidayət olunur.

Əgər diqqət yetirsək, görərik ki, Dünya tarixində mövcud olmuş dahi şəxsiyyətlərin özləri kimi, adları və soyadları da nadirdir, az rast gəlinəndir, sanki məxsusi olaraq, fərqləndirici olsun deyə, seçilmişdir. Məsələn: Bax, Bethoven, Motsart..., o cümlədən Üzeyir bəy.

Bildiyimiz kimi, Qurani-Kərimdə Üzeyir peyğəmbərin adı və onun ibrətamiz əhvalatı rəğbətlə yad olunur (Əllamə Seyyid Məhəmməd Hüseyin Təbatəbai,"Əl-Mizan təfsiri", II cild, səh. 576-583). Güman edirəm ki, Üzeyir bəyin valideyinləri böyük peyğəmbərə ehtiram əlaməti olaraq bu adı öz övladına qoymuşlar. Nadir hallarda olur ki, hər qoyulan ad öz mənasına uyğunluğunu yaşatmış olsun. Lakin yuxarıda qeyd olunduğu kimi Üzeyir bəyin olduqca dəyərli keyfiyyətləri onun bu mübarək adı ləyaqətlə daşımasına səbəb olmuşdur. Üzeyir bəy, Nizami Gəncəvinin təbiri ilə desək kamil bir şəxsiyyət,dahi sənətkar olaraq,eyni zamanda həm humanist, həm də coşqun bir vətənpərvər olmuşdur. Onun müdrik siması hər zaman insanlara xoş bir ovqat təlqin edir.

Bu böyük sənətkarın əsərləri nə qədər milli olsa da, bir o qədər də bəşəridir.Hələ sağlığında onun əsərləri nəinki bütün Şərq aləmində, o cümlədən bütün dünyada sevilmiş və dillər əzbəri olmuşdur.

Həmişə düşünürəm ki, əcəba nədən qaynaqlanır Üzeyir musiqisinin sehri? Dərindən təhlil etdikdə aydın olur ki, adi sadəlik yox, dahiyanə sadəlik, orjinallıq, məntiqlilik, ruhu oxşayan, qəlbi riqqətə gətirən çalarlar uyuyur onun musiqisində. Üzeyir musiqisi hər hansı bir bayağılıqdan, təsadüfilikdən tamamilə xalidir. Sanki onun sənətində bir məsumluq vardır. Ona görə də millətindən, ictimai mənşəyindən asılı olmayaraq Üzeyir musiqisini dinləyən hər bir şəxs heyranlıq aləminə qapılır.

İndi bizim üçün adi bir tarixi fakta çevrilsə də, 23 yaşlı Üzeyir bəyin, heç bir ənənə görmədən "Leyli və Məcnun" operasını yaratması əslində təkcə ölkəmizdə deyil, bütün Şərq aləminin mədəni tarixində əsil bir inqilabi hadisə idi. Bu möhtəşəm ədəbi abidənin yaranması üç amilə əsaslanır: Uca dağ zirvələri qədər yüksəkdə duran Füzuli poeziyası, Azərbaycan türklərinin ən dəyərli milli-mənəvi sərvəti olan muğamların sonsuzluq fəlsəfəsi və dahi Üzeyir bəyin heç bir sərhədə sığmayan yaradıcı dühası. Düşünürəm ki, bu üçlüyün vəhdəti sayəsində ölməz, əbədiyaşar sənət əsərinin yaranması labüd olmuşdur. Üzeyir bəy Füzuli poeziyasına ömrü boyu böyük ehtiram və dərin rəğbət hissi ilə yanaşmışdır. Füzuli şeiryyətinin zənginliklərini, incəliklərini layiqli şəkildə mahir ustalıqla musiqi dili ilə canlandırılmışdır. Haqlı olaraq,xalq şairi Səməd Vurğun Üzeyir bəyi "Füzuli şeirinin bəstəkar qardaşı" deyə vəsf etmişdir.

"Leyli və Məcnun" operası əbədiyaşar sənət abidəsi olmaqla yanaşı son bir əsrdən artıq zaman kəsiyində ədəbi məktəb rolunu oynamışdır. Saysız-hesabsız görkəmli müğənnilərin yetişməsində, formalaşmasında bu operanın əvəzsiz rolu olmuşdur. Qısaca olaraq Üzeyir bəyin ilk sənət əsərinin mahiyyətindən, məziyyətlərindən bəhs etdik. Bütün bu deyilənləri Üzeyir bəyin istənilən hər bir sənət əsərinə şamil etmək olar. "Leyli və Məcnun" dan "Koroğlu" ya qədər davam etdirilən sənət yolu əsil intibah yüksəlişini əks etdirir. Son operası olan "Koroğlu" özündə millilikl ə bərabər bu dünyəvi janrın bütün incəliklərini böyük ustalıqla ehtiva edir. Məhz, elə bu səbəbdəndir ki, "Koroğlu" operası daha geniş arenalara yol açaraq bir çox xarici ölkələrin səhnələrində tamaşaya qoyularaq böyük uğur qazanmışdır.

Üzeyir bəyin operettaları haqqında qısaca ürək sözlərimi söyləmək istərdim. "Arşın mal alan" və " O olmasın, bu olsun" operettaları qədər populyarlıq qazanan sənət əsərini nəinki ölkəmizdə, Şərq aləmində, o cümlədən bütün dünyada tapmaq çətindir. Fikrimcə, dünya musiqi tarixində bu əsərlərin populyarlığı C.Bizenin " Karmen" operasının populyarlığı ilə müqaisə oluna bilər. Üzeyir bəyin hər iki operettasının həm səhnə, həm də film versiyaları bir-birinə nisbətdə öz orijinallığını yüksək səviyyədə qoruyub saxlayır və eyni dərəcədə sevilir. Bu əsərlərin möcüzəvi cəhəti ondan ibarətdir ki, məşhur paytaxt səhnələri ilə yanaşı, əyalət səhnələrində də hər zaman ehtiram və rəğbət hissi ilə tamaşaya qoyulur və dinləyicilərə heyranlıq aşılayır.

Üzeyir bəyin dahi Nizami Gəncəvinin sözlərinə bəstələdiyi "Sevgili Canan" və "Sənsiz" romansları yarandığı andan etibarən əbədiyaşarlıq qazanmışdır. Nizami lirikasının daxili ritmini böyük ustalıqla musiqi dili ilə canlandıran bu nümunələr hər səsləndikcə qəlbləri riqqətə gətirir.

Bu kiçik məqalə çərçivəsində Üzeyir bəyin bütün sənət nümunələrinin təhlilinə varmaq məqsədi güdülmür. Böyük sənətkarın yaradıcılığının hər bir guşəsi, hər bir nümunəsi haqqında kifayət qədər geniş tədqiqatlar aparılmış və düşünürəm ki, bundan sonra da aparılacaqdır.

Sadəcə olaraq dahi ustadın anadan olmasının 140 illik yubileyi ərəfəsində qəlbimin çırpıntılarını izhar etmək istəyini özümə mənəvi borc saydım.

Üzeyir bəyin müxtəlif janrlarda yaratdığı hər bir nümunə istisnasız olaraq əbədiyaşarlıq qazanmışdır. Məhz bu keyfiyyət onun əsərlərinin daima müasir qalmasının şərtləndirir. Müasirlik termini dövrümüzdə çox vaxt texniki üsüllardan istifadə olunması metodu ilə şərtləndirilir. Şəxsi düşüncəmə görə bu yalnış yanaşmadır. Müasirlik hər bir zaman kəsiyində sənət əsərinə münasibətdə dəyişməyən ehtiyac meyarı ilə ölçülür. Bu nöqteyi nəzərdən yanaşdıqda Üzeyir yaradıcılığın hər bir nümunəsi əbədiyaşar olduğuna görə bütün zamanlar üçün müasir olaraq qalacaqdır.

Üzeyir bəy milli təfəkkür tarixinin mənəvi atalarından biridir. Onun yaradıcılığı möhtəşəm bir ədəbi abidə olmaqla yanaşı həm keçmişdə, həm bu günümüzdə, həm də gələcəkdə nümunəvi məktəb rolunu qürurla, əzəmətlə daşımış, daşıyır və daşıyacaqdır.

Müqəddəs adını şərəflə, ləyaqətlə daşıyaraq yaşayıb, yaratmış peyğəmbər xislətli Böyük Üzeyirin ruhu şad olsun! Onun xatirəsi əbədi olaraq ehtiramla yad ediləcəkdir!

Onun parlaq nuru hər zaman bizi məsuliyyətlə çalışmağa, Vətən adına, sənət adına, ustad Üzeyir bəy adına layiqli olmağa sövq edəcəkdir!

***Yaşar Xəlilov***
***Naxçıvan MR-in Əməkdar incəsənət xadimi***

# Azərbaycanın bütövlüyünün rəmzi günü: 19-20 sentyabr 2023-cü il

Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən iki il ötür. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən və cəmi 23 saat çəkən hərbi əməliyyat zamanı Qarabağda qeyri-qanuni xunta rejimi ləğv olundu. Azərbaycan dövləti özünün suverenliyini tam təmin etdi. Düşmənin bir zamanlar qurduğu, yaratdığı, "Arsax" adlı qondarma dövlətçilik oyunları və müstəqillik xəyalları iflasa uğradıldı. Prezident cənab İlham Əliyev bir daha sübut etdi ki, heç bir qüvvə Azərbaycanın milli maraqlarının qarşısını ala bilməz.

Ölkə başçısı cənab İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində keçirilən paradda çıxışında bu barədə bildirib: "Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə, cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik. Eyni zamanda cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik".

Sentyabr ayının 19-da başlayan antiterror tədbirləri cəmi 23 saat 43 dəqiqə çəkdi. Əməliyyatın ilk dəqiqələrindən gedişat Azərbaycan Ordusunun ən yüksək və modern döyüş imkanlarına malik olduğunu göstərdi. Cəmi bir neçə saata düşmənin ön xətt və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri sıradan çıxarıldı. Hər günü bir şanlı tarix olan 44 günlük Vətən müharibəsində olduğu kimi, ildırımsürətli antiterror əməliyyatında da ordumuz yenidən möhtəşəm zəfər tarixi yazdı. Antiterror tədbirləri ordumuzun şəxsi heyətinin, əsgər və zabitlərimizin hərbi peşəkarlığının və vətənpərvərliyinin növbəti təsdiqi oldu.

Vətən müharibəsində olduğu kimi bu dəfə də düşmənin mövqeləri əlverişli və üstün idi. Dağlıq ərazi separatçılar üçün təbii istehkam rolunu oynayırdı. Amma nə gücləndirilmiş müdafiə qurğuları, nə coğrafi relyef ordumuzun qarşısını kəsə bilmədi. Əməliyyat zamanı düşmənin min nəfərdən çox canlı qüvvəsi, yüzlərlə hərbi texnikası məhv edildi. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontigenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrn 20-də günorta lokal xarakterli antiterror tədbirləri dayandırıldı.

Antiterror tədbirlərində Azərbaycan hərbiçiləri Vətən müharibəsində olduğu kimi vətənpərvərliyin və vətəni sevməyin nümunələrini yaratdılar. Müzəffər Ali Baş komandan İlham Əliyev bu barədə deyirdi: "Biz Silahlı Qüvvələrimizlə fəxr edirik. Onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir".

Bu əməliyyat zamanı 192 hərbiçimiz şəhidlik məqamına yüksəldi, 500-dən artıq hərbiçimiz yaralandı. Bu gün doğma Qarabağ bizim üçün həm də ona görə müqəddəsdir ki, o torpaqlara qəhrəman şəhidlərimizin qanı hopub.

Böyük qürur hissi ilə qeyd etməliyəm ki, Silahlı Qüvvələrimizin sıralarında xidmət edən naxçıvanlılar da Vətən müharibəsində olduğu kimi antiterror əməliyyatları zamanı da qəhrəmancasına döyüşdülər, həlak oldular, yaralandılar. Vətən müharibəsində 3 mindən artıq şəhidimiz, eləcə də onlarla Naxçıvandan olan şəhidlərimiz kimi bu diyardan olan 10 hərbiçimiz Qarabağda milli suverenliyimizin təmin edilməsi uğrunda antiterror döyüşlərində şəhidlik zirvəsinə ucaldı. Müstəqil, suveren Azərbaycanımızın hər yerində olduğu kimi, bu gün ulu diyarımız olan Naxçıvanda şəhidlərimizin hər birinin xatirəsi dövlətimiz tərəfindən əbədiləşdirilir. Onların ailələri, qazilərimiz hərtərəfli qayğı ilə əhatə olunur, xüsusi diqqət mərkəzində saxlanılır.

Antiterror əməliyyatlarında qazanılan bu tarixi zəfər Ulu öndər Heydər Əliyev yolunun, Prezident cənab İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin təntənəsinə çevrildi. Bir daha bu tarixi gerçəklik öz təsdiqini tapdı ki, xalqımız ümummilli lider Heydər Əliyevin ideyalarına söykənməklə, öz taleyini məhz İlham Əliyevə etibar etməklə böyük müdriklik və uzaqgörənlik nümayiş etdirib. Həm Vətən müharibəsində, həm də antiterror əməliyyatlarında qazanılan Zəfər onu göstərdi ki, Prezident İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addım Azərbaycanın milli maraqlarının həyata keçirilməsini, dövlətçiliyimizin güclənməsini, ölkəmizin beynəlxalq nüfuzunun artırılmasını təmin edib. Bu müharibə bir də onu göstərdi ki, heç bir qüvvə Azərbaycanı öz yolundan döndərə bilməz. Azərbaycan Rspublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi kimi: "Dünya birliyi, beynəlxalq aləm bizim Qələbəmizi və yeni razılıqları qəbul etmişdir və bu da özlüyündə tarixi hadisədir. Çünki sirr deyil ki, həm işğal dövründə, həm də müharibə dövründə Ermənistanı dəstəkləyən böyük dövlətlər bizə hər zaman böyük problemlər yaradırdı və yarada bilərdi. Bizim gücümüz, xalqımızın iqtidarla bir yerdə olması, Hərbi zəfərimiz, cəmiyyətdəki ovqat, vətənpərvərlik ruhu-bütün bu amillər bütün dünyaya göstərdi ki, hər kəs bizimlə hesablaşmalıdır və bizimlə hesablaşmayan, nəticədə, peşman olur."

*Səfiyar Abışov*
*Beynəlxalq Münasibətlər və Hüquq fakültəsinin müəllimi*

# SÖZÜN YOX, SƏSİN YAZARI – SVETLANA ALEKSİYEVİÇ

Cəsurluğun, qəhrəmanlığın, qorxmazlığın qadını, kişisi olmur. Bunun ən yaxşı göstəricilərindən olan əsərlərdən biri də 2015-ci ildə Svetlana Aleksiyeviçə "Nobel" mükafatı qazandıran "Müharibənin qadın olmayan üzü" adlı əsəridir. Svetlana Aleksiyeviç polifonik yazılarına və dövrümüzün iztirab və cəsarət abidəsini yaratdığına görə "Nobel"ə layiq görülüb. O, xırda şeylərin, kiçik hadisələrin böyük yazarıdır. İnsan həyatından çox, insan duyğularına abidə ucaldan yazar…

Tarixdə, demək olar ki, ilk dəfə müharibəni bütün çılpaqlığı ilə göz önünə gətirən yazıçı Svetlana Aleksiyeviç olub. Maraqlıdır ki, onun əsərlərini roman hesab etmək olarmı? Çünki əsərlərində yazıçının öz sözlərindən daha çox, müharibədə iştirak etmiş qadınların danışıqları var. Svetlana Aleksiyeviç sözün yox, səsin yazarıdır.

O, "Nobel" çıxışında deyir: "Flober deyirdi ki, o, qələm adamıdır, mən isə deyə bilərəm ki, qulaq adamıyam. Küçədə gedəndə qulağıma hansısa sözlər, ifadələr, nidalar dəyəndə həmişə düşünürəm: bir gör nə qədər roman itib gedir, nə zamanda, nə qaranlıqda izi qalır. İnsan həyatının bir hissəsi – şifahidir, onu ədəbiyyata qazandırmaq nəsib olmur bizə. Biz onu qiymətləndirmirik, o isə bizi heyrətləndirmir hələ. Məni məhz o yaxalayıb əsirinə çevirdi. İnsan danışığını sevirəm… Tək bir insan səsini sevirəm. Bu, mənim ən böyük eşqim və ehtirasımdır".

"Mən nə edirəm? Mən gündəlik hissləri, fikirləri, sözləri toplayıram. Öz zəmanəmin həyatını toplayıram. Mənə qəlbin, ruhun tarixi maraqlıdır. Ruhun həyatı. Məni kiçik insan maraqlandırır. Ona görə ki, kiçik insanı iztirabları böyüdür. Kiçik insanın özü mənim kitablarımda öz tarixçəsini danışır, öz tarixçəsilə birgə böyük tarixi də".

Bu da Svetlana Aleksiyeviçin jurnalist olan bir yazar olmasından qaynaqlanır. Əslində, bu əsərin əsas mövzusu müharibə deyil, qadındır. Elə bir qadın ki, düşmən əsgərləri belə inana bilmirdi ki, o, cəsur döyüşçü qadındır. İnana bilmirdilər ki, onları bir qadın öldürüb. "Müharibənin qadın olmayan üzü" əsərində II Dünya müharibəsində iştirak edən, müxtəlif işləri yerinə yetirən və daha sonra müharibənin əsiri olaraq yaşamağa davam edən qadınlardan bəhs edilir. Bəs o qadınlar orada nələr yaşadı? Orada olmaq onlar üçün asan idimi?

Əsəri oxuyan biri olaraq deyirəm ki, əsər insan psixologiyasına ciddi şəkildə təsir edir. Bir də düşünək ki, oradasan, bu hadisələri real şəkildə yaşayırsan, görürsən… Əsərdə müəllif orada iştirak edən qadınların müxtəlif vaxtlarda, yerlərdə, işlərdə yaşadığı hadisələri diqqətə çatdırır və bu yaşananlar bir qadın üçün yox, bir insan üçün o qədər dözülməzdir ki…

Svetlana Aleksiyeviçin Nobel nitqindən bir hissə: Deyə bilmərəm ki, həmişə qatlana bilmişəm. Dəfələrlə olub ki, insandan diksinmişəm və qorxmuşam, heyrət və ikrah duymuşam, eşitdiyimi unutmaq istəmişəm, xəbərsiz olduğum zamanlara dönmək istəmişəm.

Kitabda qeyd edilən məlumatlar insanın qanını dondurur. Bir ananın öz övladına qıyması, insanın öz yoldaşının ətini yeməsi, insanların doğranması, yandırılması… Bu bir insan üçün necə bir dəhşətdir, fikirləşə bilirsiniz? Burada tək ziyan çəkən insanlar deyil, təbiət, həmin təbiətin incisi olan heyvanlar belə ziyan çəkib…

"Bombardman vaxtı bir keçi də bizə qoşuldu. Bizimlə bir yerdə torpağa uzandı. Yanımızdaca uzandı və başladı çığırmağa. Bombardman başa çatdı, o, yenə bizdən ayrılmadı, elə istəyirdi ki, bizimlə bir yerdə olsun. Canlıdır axı, o da canından qorxur. Nə isə... Gedib çıxdıq bir kəndə, qarşımıza çıxan qadına dedik: "Götür bu keçini saxla!" Canını qurtarmaq istəyirdi..."

"Kəndi geri aldıq... Su axtarırdıq. Həyətlərdən birinə girəndə gözümüzə quyu sataşdı. Qıraqları taxta ilə hörülmüş quyu idi... Həyətdə güllə ilə vurulmuş ev sahibinin cəsədi qalmışdı... Yanında da it. Bizi görəndə başladı quyruq bulamağa, ora-bura qaçmağa. Onun nə etmək istədiyi sonra çatdı bizə - bizi evə çağırırdı... Onun arxasına düşüb getdik. Qapının ağzında ev sahibinin arvadı və üç uşaq yıxılıb qalmışdı. İt isə onların başının üstünü kəsdirib ağlayırdı. Əməlli-başlı ağlayırdı. İnsan kimi..."

Bəs onlar müharibədən sonra nə edəcəkdilər? Necə oranın təsirindən uzaqlaşa biləcəkdilər? Normal həyata dönmək onlar üçün asan olacaq?

Müharibə bitdi, amma onların içindəki müharibə heç vaxt bitmədi, bitməyəcək… Orada yaşadıqları ağrı, əzablar dinmədi, dinməyəcək… Onlar müharibədən sonra belə rahat yuxu yata bilmədilər. Müharibədən zahirən gəlsələr belə, ruhları orada qalmışdı. Heç vaxt o ruh müharibəni tərk edə bilməyəcəkdi. Elə indiki dövrdə Azərbaycan qaziləri də belədir. Onlar hələ də rahat yuxu yata bilmirlər. Yuxuda ikən sanki müharibə imiş kimi hisslər keçirirlər. II Qarabağ müharibəsinin bitməsindən bir neçə il keçsə də, müharibədən sağ qayıdan bütün əsgərlərimiz psixoloji cəhətdən hələ də müharibədədir.

Əsərdə göstərilir ki, bir çox insanlar orada iştirak edən qadınlarla qürur duysa da, bir çoxu onları qəbul edə bilmirdi. Və bunun səbəbi də müharibədə olmaları idi... Heç düşünmürdülər ki, onlar orada neçə-neçə igidi güllə altından qurtarıb, sağaldıb, onlara yemək bişirib, paltarlarını yuyub…

Onlar orda o qədər hadisə görüblər. Gözlərinin önündə ailələrini, sevdiklərini, yoldaşlarını itiriblər. Amma o qəhrəman qadınlar vicdanını heç vaxt itirməyibdir. Onlar orada yaralı olan düşmən əsgəri belə olsa, onları sağaltmaq istəyib, onlarla öz yeməklərini paylaşıb, hətta yemək qıtlığı olsa belə, onları öz əsgərlərindən seçməyib. Əsəri oxuyan hər kəsdə müharibəyə nifrət hissi yaranır…



Svetlana Aleksiyeviçin Nobel nitqindən: "Bu "bunlar", "onlar" sözləri mənə kitabın nə haqda olacağına eyham vurdu: müharibənin – qatillik olması haqda. Qadın yaddaşında necə qalması haqda".

Mənim fikrimcə, hər kəs bu əsərlə tanış olmalıdır. Çünki əsərdə müharibəni bütün orijinallığı ilə göz önünə sərmişdir. Elə bu kitabdan yenə bir hissəyə nəzərə yetirək.

"Biz gedirik…Bəs arxamızda kimlər qalır? Mən tarix müəllimiyəm… Mənim dövrümdə tarix dərsliyini düz üç dəfə dəyişiblər. Mən üç ayrı-ayrı dərslikdən öyrənmişəm tarixi…. Bizdən sonra nə qalacaq? Nə qədər ki sağıq, soruşun, öyrənin. Sonradan uydurmayın bizi. Soruşun… Mən bütün ömrüm boyu tarixdən dərs demişəm, ancaq mən dəqiq bilirdim ki, heç bir tarixi hadisəni sonuna qədər dəqiqliyi ilə bilmirik. Bütün yaşanmış hissləri. Bütün həqiqətləri…"

Belə aydın olur ki, əsər çox orijinal dildə yazılıb. Bununla bərabər, oxucunun əsəri sevməsinə əsas səbəb onun real həyat hadisələrini oxucuya onların dili ilə çatdırmasıdır. Bəli, müharibə əsərdə tam çılpaqlığı ilə təsvir olunub. Müəllif buna görə əsəri belə qələmə alıb ki, əsər öz dövründən sonra da müharibənin necə dəhşətli bir hadisə olduğunu oxucularına çatdırsın. Bəlkə belə olan halda insanlıq sülh üçün çalışar, sülhü qoruyar və müharibədən qaçınarlar.

*Ebru Bayramova*
*Filologiya ixtisası üzrə III kurs tələbəsi*

# Təhsildə rəqəmsallaşmanın perspektivləri və qarşıda duran vəzifələr

XXI əsrdə təhsil yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda tələbələrin bacarıq və kompetensiyalarının inkişafını da nəzərdə tutur. Müasir dövrdə təhsil sistemi yeni çağırışlarla üz-üzə qalmışdır. Qloballaşma, rəqəmsal texnologiyaların sürətli inkişafı, əmək bazarında dəyişən tələblər və ekoloji problemlər bu çağırışların əsas istiqamətlərini təşkil edir. Bu şəraitdə müəllimin rolu da dəyişmişdir. Əgər ötən əsrin müəllimi əsasən bilik daşıyıcısı və bilik ötürən şəxs kimi çıxış edirdisə, müasir müəllim artıq öyrənmə prosesinin təşkilatçısı, fasilitatoru və istiqamət verən vəzifəsini daşıyır. Müasir təhsilin əsas xüsusiyyətlərindən biri onun şəxslərə yönəlik olmasıdır. Bu yanaşma tələbələrin maraq və ehtiyaclarının öyrənilməsini və dərslərin bu ehtiyaclara uyğun təşkil edilməsini tələb edir. Digər mühüm cəhət isə rəqəmsal transformasiyadır. XXI əsrdə texnologiyaların sürətli inkişafı tədris prosesində də öz əksini tapmış, təhsil məkanında kompüterlər, planşetlər, 3D texnologiyalar vasitəsi ilə virtual laboratoriyalar və onlayn platformalar geniş tətbiq olunmağa başlamışdır. Bununla yanaşı, fənlərarası inteqrasiya da mühüm rol oynayır. Müasir dünyada problemlərin kompleks xarakter daşıması tələbələrin yalnız bir fənn çərçivəsində deyil, müxtəlif sahələr üzrə bilik və bacarıqlarını birləşdirərək öyrənməsini zəruri edir. STEAM yanaşması bu inteqrasiyanın ən uğurlu nümunələrindəndir. Nəhayət, təhsilin ən mühüm prinsiplərindən biri də ömürboyu öyrənmədir. XXI əsr insanı yalnız məktəb və universitet illərində deyil, bütün həyat boyu öyrənməyə açıq olmalıdır.

Müasir müəllimin rolu da ənənəvi modellə müqayisədə əhəmiyyətli dərəcədə dəyişmişdir. Müəllim artıq yalnız bilik ötürən deyil, həm də tələbələrin öyrənməsinə şərait yaradan moderator və fasilitator, fərdi inkişaflarını dəstəkləyən mentor və motivator, yeni texnologiyaları tətbiq edən innovator və öz fəaliyyətini daim təhlil edən və inkişaf etdirən tədqiqatçı kimi çıxış edir. Xüsusilə biologiya müəllimi üçün bu rollar daha genişdir: müasir laboratoriya imkanlarından istifadə etməklə təcrübələrin təşkili, ekoloji mövzularda sosial məsuliyyət şüurunun formalaşdırılması, sağlam həyat tərzinin təşviqi və biotexnologiyanın gündəlik həyatda rolunun izahı müəllimin əsas vəzifələri sırasına daxildir. Beləliklə, XXI əsrdə təhsil şagirdyönümlü, texnologiyaya əsaslanan və bacarıqlara fokuslanan bir prosesdir. Müəllimlər isə bu prosesin əsas aparıcı qüvvəsi olaraq yalnız bilik ötürən deyil, həm də bacarıq formalaşdıran mütəxəssis olmalıdırlar. Bu yanaşma biologiyanın tədrisini də daha aktual və müasir tələblərə cavab verən vəziyyətə gətirir. Müasir dövrdə rəqəmsal texnologiyalar həyatımızın bütün sahələrinə nüfuz edib. Xüsusilə də təhsil sistemi rəqəmsallaşmanın təsirini ən güclü hiss edən sahələrdən biridir. Onlayn dərslər, rəqəmsal kitabxanalar, interaktiv platformalar artıq təhsilalanların gündəlik öyrənmə prosesində mühüm rol oynayır. Bəs rəqəmsallaşmanın əsas üstünlükləri nələrdir?

- Məlumatın əlçatanlığı; Fərdi tədris imkanı; Vaxt və məkan sərhədlərinin aradan qalxması; İnnovativ metodlar; Virtual laboratoriyalar, 3D simulyasiyalar və s. Süni intellekt dəstəyi isə öyrənmə prosesini daha maraqlı və səmərəli edir.

Müasir biologiya müəllimi həm də innovator olmalıdır. Bu, dərsdə yeni metod və texnologiyaların sınaqdan keçirilməsi, şagirdlərdə maraq oyadan qeyri-ənənəvi üsulların tətbiqi deməkdir. Məsələn, hüceyrə bölünməsi mövzusu interaktiv simulyasiyalar vasitəsilə öyrədildikdə şagirdlər prosesi daha aydın təsəvvür edir. Həmçinin VR və AR tətbiqləri, mobil laboratoriyalar və rəqəmsal mikroskoplar müəllimin innovativ yanaşmasının nümunələridir. Bundan başqa, bio-



logiya müəllimi tədqiqatçı rolunu da daşıyır. Tədris metodlarını sınaqdan keçirmək, şagirdlərin nəticələrini təhlil etmək və əldə olunan nəticələri pedaqoji təcrübə ilə müqayisə etmək müəllimin elmi-tədqiqat fəaliyyətinin bir hissəsidir. Bu yanaşma həm də müəllimin özünüinkişafına xidmət edir, çünki pedaqoji təcrübələrin mütəmadi analizi təlim keyfiyyətini artırır.

Müasir dövrdə təhsilin əsas tendensiyalarından biri fənlərarası inteqrasiyadır. Ənənəvi tədris modelində fənlər bir-birindən asılı olmayaraq öyrədilirdi. Lakin XXI əsrin mürəkkəb problemləri göstərir ki, real həyat hadisələri bir fənnin çərçivəsində izah oluna bilməz. Buna görə də müasir pedaqoji yanaşmalar şagirdlərə müxtəlif bilik sahələrini birləşdirərək öyrənməyi öyrətməyə çalışır. Bu inteqrasiyanın ən aktual formalarından biri STEAM yanaşmasıdır. Fənlərarası inteqrasiyanın əhəmiyyəti biologiya fənnində xüsusilə nəzərə çarpır. Biologiya öz mahiyyətinə görə kimya, fizika, coğrafiya, informatika və hətta incəsənət fənləri ilə sıx əlaqəlidir. Məsələn, hüceyrə biologiyasını dərindən anlamaq üçün kimyəvi reaksiyaların, enerji çevrilmələrinin mahiyyətini bilmək vacibdir. Ekosistemlərin öyrənilməsi isə coğrafi biliklərlə və statistika metodları ilə bağlıdır. Bu baxımdan fənlərarası yanaşma yalnız dərs prosesini zənginləşdirmir, həm də şagirdlərin analitik və kompleks düşünmə bacarıqlarını inkişaf etdirir. STEAM yanaşması inteqrativ öyrənmənin daha sistemli forması kimi təhsil prosesinə daxil olur. Burada biologiya tədrisi təkcə elmi biliklərin öyrədilməsi ilə məhdudlaşmır, həm də texnologiya və mühəndislik elementləri ilə zənginləşdirilir. Məsələn, şagirdlərə fotosintez mövzusu keçilərkən yalnız nəzəri izah vermək əvəzinə, günəş enerjisindən istifadə edən kiçik eksperimental qurğular düzəltmək, işıq intensivliyinin bitkilərin böyüməsinə təsirini ölçmək və nəticələri qrafiklərlə təqdim etmək tapşırıla bilər. Bu cür fəaliyyətlər həm biologiyanı, həm də fizika, riyaziyyat və texnologiya biliklərini inteqrasiya edir.

Təhsildə rəqəmsallaşma yalnız texniki yenilik deyil, həm də yeni təfəkkür tərzi deməkdir. Əgər bu proses doğru planlanarsa, Azərbaycan təhsil sistemi yaxın illərdə daha çevik, şəffaf və beynəlxalq rəqabətə davamlı ola bilər. Nəticə olaraq, qeyd etmək lazımdır ki, rəqəmsallaşma təhsilin gələcəyini formalaşdıran əsas qüvvələrdən biridir. Əsas məsələ bu imkanlardan maksimum və səmərəli istifadə etmək, mühafizəkar yanaşmadan əl çəkib dövrün tələblərinə cavab verəcək təhsil sisteminin qurulmasıdır. Çünki "Təhsil müasir texnologiyasız artıq təsəvvür edilmir". Müasir dövrdə rəqəmsallaşma bütün sahələrə olduğu kimi təhsilə də güclü təsir göstərir. Onlayn dərslər, elektron kitabxanalar, süni intellekt dəstəyi – bütün bunlar artıq məktəblərin və universitetlərin gündəlik həyatına daxil olub. Bu, sadəcə texnologiya məsələsi deyil, həm də təhsil fəlsəfəsinin dəyişməsi deməkdir.

Rəqəmsallaşmanın gətirdiyi imkanlara daxildir:

- Fərdiləşmiş öyrənmə: "Bir sinif – bir proqram" yanaşması arxada qalır. Süni intellekt platformaları hər şagirdə fərdi tədris planı qurmaq imkanı yaradır.
- Sərhədsiz təhsil: Artıq Azərbaycanlı tələbə Finlandiyanın və ya Sinqapurun təhsil proqramına bir kliklə qoşula bilir.
- İnnovativ dərslər: Virtual laboratoriyalar və 3D simulyasiyalarla biologiya, fizika, kimya fənləri daha maraqlı və praktik hala gəlir.
- Məlumat bolluğu: Elektron kitabxanalar və açıq resurslar gənclərin elmi axtarışlarını asanlaşdırır.

Obrazlı desək: "Rəqəmsallaşma təhsilin coğrafiyasını genişləndirir, sinif otağını dünyanın hər yerinə daşıyır."

Rəqəmsallaşma böyük imkanlar açsa da, həllini gözləyən suallar da çoxdur:

1. Bərabərsizlik problemi: Hər bölgədə internet sürəti və texniki imkan eyni deyil.
2. Müəllim hazırlığı: Texnologiyanı dərsə tətbiq etmək üçün müəllimlər mütəmadi təlimlər almalıdır.
3. Milli kontent ehtiyacı: Xarici platformalar faydalıdır, amma Azərbaycan dilində və milli kurikuluma uyğun rəqəmsal resurslar strateji əhəmiyyət daşıyır.
4. Kibertəhlükəsizlik: Şagirdlərin şəxsi məlumatlarının qorunması və onlayn davranış qaydalarının formalaşdırılması vacibdir.
5. Uzunmüddətli strategiya: Rəqəmsallaşma yalnız texnika gətirməklə bitmir, pedaqoji yeniliklərlə birgə planlaşdırılmalıdır.

Bir məqamı da unutmaq olmaz ki: "Texnologiyanı əldə etmək, sinfə gətirmək asandır, amma onu dərsə düzgün inteqrasiya etmək pedaqoji peşəkarlıq, rəqəmsal bacarıqlar tələb edir".

*Zərövşən Babayeva*
*Pedaqogika üzrə elmlər doktoru*

# Yarpaqların məktubu




Payız sakit, səssiz gəlir… Onun gəlişi nə yaz kimi hay-küylü, nə də yay kimi coşğuludur. O bir qədər utancaq, bir qədər də təmkinli addımlarla həyət-bacanı, küçələri dolaşır. Sarı yarpaqlar havada uzun-uzadı fırlanıb torpağa qovuşarkən, insanın içində qəribə bir nisgil oyadır. Elə bil hər yarpaq bir ömür hekayəsini, hər külək də bir xatirəni pıçıldayır.

Elə günəş də payızda başqa cür doğur. Nə çox istidir, nə də soyuq, sadəcə işığı ilə insanı qucaqlayır. Bu işıq sanki qızılı rəngə boyanmış bütün yarpaqlardan süzülür, küçələri bəzəyir. Payızda günəş də, ay da, ulduzlar da düşüncəyə dalır. Onlar da təbiətlə birgə susur, onla da birgə seyr edir.

Payız rənglərin fəslidir. Rəssam təbiət əlini elə bil ən gözəl boyalara uzadır: Sarı, narıncı, qırmızı… Ağacların üzərindəki hər bir yarpaq təbiətin kətanına vurulmuş fırça izidir. Bu rənglər insanın qəlbinə də sirayət edir. Hər kəs payızda bir az daha çox düşüncəyə dalır, bir az daha çox kövrəlir.

Küləyin gətirdiyi yarpaq xışıltısı, yağışın damlardan süzülən damcıları bir musiqi kimidir. Amma o musiqini də yalnız dinləməyi bacaranlar eşidə bilir. Hər damcı həyatın ötəriliyindən danışır, hər külək insana zamanın sürətini xatırladır. Payızın sükutu da danışır əslində. Bu sükutun özündə gizli bir fəlsəfə, gizli bir hekayə var.

Payız bir az da tənhalıq fəslidir. Yağışlı havada pəncərə önündə oturub damcıların rəqsini izləmək, kənarda əsən küləyi dinləmək insanı özünə qapadır. Ancaq bu tənhalıq kədər gətirmir, əksinə, ruhu saflaşdırır. Elə bu fəsil insana öyrədir tənhalığın bir məktəb, susmağın bir hikmət olduğunu.

Bizim kəndlərdə payız tamam başqa ovqatla qarşılanır. Kəndli üçün bu fəsil zəhmətin bəhrəsini toplamaq zamanıdır əslində. Artıq bağlarda üzümlər yığılır, narların ən qırmızıları səbətlərə düzülür, ağacdan qoz-fındıqlar çırpılaraq yığılır. Təzə qoyulmuş turşunun qoxusu bütün həyəti bürüyür. Bu fəslin kənddə öz ahəngi, öz rəngi, öz bərəkəti var.

Hər düşən yarpaq bir ötən günü xatırladır. Hər əsən külək bir ayrılığın səsini gətirir. Ancaq hər bir son eyni zamanda yeni bir başlanğıcdır. Payız öyrədir ki, heç nə əbədi deyil, amma hər bitişdən sonra yeni başlanğıc var.

Bu fəslin fəlsəfəsi insana səbr və ümid verir. Təbiət necə ki, yazda yenidən oyanır, insan da hər qaranlıqdan sonra işığı tapır. Payızda sanki insanı düşünməyə çağırır: "Zəhmətin bəhrəsini aldınmı? Ümidlərini qoruya bildinmi? Yeni başlanğıca hazırsanmı?"

Payız insana həm tənhalığı sevdirməyi, həm də xatirələri yaşatmağı öyrədir. Hər küçə, hər ağac, hər damcı insanla danışır. Bu fəsil təbiətin qəlbindən süzülən məktubdur. Yarpaqlar kağız, küləklər isə sətirləri. O məktub bizə deyir ki, yarpaqlar torpağa qovuşanda, torpaq yeni həyatın toxumlarını cücərdir. Bəlkə də payızın ən gözəl dərsi budur, yarpaqlar torpağa düşəndə ölümü yox, sabah doğulacaq yazı pıçıldayır.

*Elnurə Cəfərova*
*Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

# Valideyn-övlad münasibətləri hüquqi və mənəvi müstəvidə

Deyirlər, qocalıq müdrikliyin sübh çağıdır. Çox təəssüf ki, bəzən bu sübh çağı illərlə qorunan isti və doğma ocaqda yox, "Ahıllar evi"ndə açılır. Oğul çiynində son mənzilə getmək istəyən valideyn niyə bu gün "Ahıllar evi"ndə həsrətlə övlad yolu gözləyir? Bəlkə, o da nə vaxtsa öz valideynlik və ya övladlıq borcunu layiqincə yerinə yetirməyib?! Böyük filosof-həkim İbn Sina qeyd edirdi ki,"valideynlərinizlə yaxşı rəftar edin ki, uşaqlarınız da sizinlə yaxşı rəftar etsin". Bəli, hər birimizə məhz inamımıza görə pay düşür. Xoşbəxtlik də insana öz inancına görə çatır. Sözün gücü isə bizim inamımızdan çox asılıdır.

Valideynlərə qayğı göstərmək cəmiyyəti yaşadan əsas dəyərlərdən biridir. Lakin bəzən yollar nədənsə, "Uşaq evləri"ndən "Ahıllar evi"nə aparır. Axı bizim min illərin dərinliklərindən süzülüb gələn və başqalarından fərqləndirən ailə dəyərlərimiz olub. Böyüklərə hörməti, kiçiklərə sevgini daşıyan müqəddəs ailə dəyərlərimiz... Bəlkə buna görə Fyodor Dostoyevski yazırdı: "Cəhənnəm insan ürəyində sevginin bitdiyi yerdir".

"Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünənine, həm bu gününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşmalıdır" – deyən Ulu Öndər Heydər Əliyev mənəviyyata sahibliyi xalqımızın əxlaqi və milli dəyərlərinə yiyələnməkdə görərək həqiqi vətəndaşlığı bu zəngin mənəviyyatımızın ümdə əxlaqı kimi dəyərləndirib. Əfsus ki, "ağsaqqallıq institutu" artıq tarixin tozlu arxivinə yola salınır. Volter isə qeyd edir ki,"yaşının müdrikliyinə sahib olmayan biri, yaşının bütün fəlakətlərini yaşayır".

Valideyn-övlad münasibətləri, ailə həyatının əsas sütunlarından biridir və uşağın psixoloji, emosional və sosial inkişafında böyük rol oynayır. Bu münasibətlər qarşılıqlı hörmət və anlayış, sevgi və qayğı üzərində qurulmalıdır. Amerikalı yazıçı Ann Brasharesin fikrincə, "Valideynlərin səni sevməyə məcbur olan yeganə insanlardır. Dünyanın geri qalanından isə bu sevgini qazanmalısan". Böyük yazıçı Fyodor Dostoyevski isə qeyd edirdi ki, "Uşaq dünyanın ən böyük səadətidir. Uşaqları sevən həyatı da sevər".

Valideyn-övlad münasibətləri qanuni və ya övladlığa götürmə əsasında yaranır. Bu münasibətlər hüquqi müstəvidə Azərbaycan qanunvericiliyində həm ailə, həm də uşaq hüquqları baxımından tənzimlənir. Əsas normativ sənədlər isə ölkəmizin Konstitusiyası, BMT-nin Uşaq Hüquqları Konvensiyası, Ailə qanunvericiliyi "Uşaq hüquqları haqqında" Qanun və digər normativ-hüquqi aktlardır.

Ölkə Konstitusiyasına əsasən cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəlib. Qanunvericiliyə və milli dəyərlərimizə əsasən hər bir valideyn uşaqların qayğısına qalmağa və onları tərbiyə etməyə borcludur. Bu borcun yerinə yetirilməməsi isə valideynlik hüquqlarından məhrumetmə ilə nəticələnir. Valideynlik hüquqlarını həyata keçirərkən isə valideynlər heç vaxt uşaqlarının mənəvi inkişafına, fiziki və psixi sağlamlıqlarına xələl yetirməməlidirlər.

Yuxarıda sadalananlar qanunun tələbidir. Mənəviyyatın və əxlaqın tələbi isə daha da dərindir. Sosial şəbəkələrdə böyüyən uşaqlar və onları buna məhkum edən valideynlər bunun ağrı və acısını hər zaman çəkəcəklər.

Gəlin, biz valideynlər, ilk növbədə isə, atalar haqqında xalqımızın təfəkküründə formalaşan dəyərlərə nəzər salaq. Atamız bizim ilk nümunəmizdir. Atalar müəllimlərin ən vacibidir. Onlar övladlarına təkcə bilik deyil, həm də həyatda uğur qazanmağı öyrədirlər. Bəli, ata həm oğlan, həm də qız övladı üçün ilk növbədə kişilik obrazını formalaşdırır. O, övladına təkcə sözü ilə deyil, həm də əməli ilə nümunə olur. Oğlanlar böyüyəndə atası kimi kişi olmaq istəyirlər. Unutmayaq ki, uşaq üçün ata onun həyatda söykənəcəyi ən güclü və ən mühüm dayaqdır. Ancaq çox təəssüf ki, bəzən ailələrin dağılması uşaqları bu təbii arzudan məhrum edir. Valideyn olmaq isə sevgi, fədakarlıq və səbr tələb edən böyük bir məsuliyyətdir və bizim illərlə təfəkkürümüzdə formalaşmış düşüncəyə görə, "Ata çinar kimidir, Meyvəsi olmasa da, kölgəsi yetər. Atan səni həmişə dəstəkləyən və gücləndirən qaya kimidir. Atalar əlləri ilə deyil, ürəkləri ilə edir. Ata-ana məhəbbəti evin təməlidir". Ancaq indi bu deyimlər deyəsən, sadəcə kitablarda qalıb, Bəzi atalar isə sadəcə aliment ödəməklə öz borclarını bitmiş hesab edirlər. Valideynlərin özləri öz obrazlarını övladlarının həyatında yaradırlar. K.Missin qeyd edir ki, "Həyat hekayəmiz bədən obrazımıza çevrilir". Bəli, kifayət qədər sevgi görməyən, təmas etməyən və ünsiyyət qurmayan uşaqların fizioloji olaraq da inkişafdan qaldığı artıq elmə də məlumdur. Yəni, uşaqların bədəni və ruhu sevildiyini və güvəndə olduğunu hiss etdikdə inkişaf edir. Yəni, onların ruhunun və bədəninin formalaşması və tənəzzülü duyğularla əlaqəlidir. Gəlin, övladlarımızı bu duyğudan məhrum etməyək.



Ailə qanunvericiliyimizə əsasən valideynlərin və uşaqların hüquq və vəzifələri qanunvericiliklə müəyyən olunmuş qaydada uşağın mənşəyinin təsdiq olunmasına əsaslanır. Nikahda olmayan şəxslərdən olmuş uşaqlar, valideynlərinə və onların qohumlarına münasibətdə, öz aralarında nikahda olan valideynlərin uşaqlarının malik olduqları hüquq və vəzifələri daşıyırlar. Bəli, qanunvericilik bu sahədə hər bir uşağın hüququnu müdafiə edir. Bəs nikahdan kənar doğulan uşaqların keçirdikləri mənəvi zərbələri nə əvəz edəcək?! Bu suallar isə bir insanın taleyinə də cavab axtarır.

İohann Volfqanq Höte qeyd edir ki, "Ana, ata yaxşı tərbiyə almışlarsa, uşaqlar da tərbiyəli olar". Uşaqlar isə ən çox valideynlərini təqlid edirlər. Ona görə də valideynlərin davranışları, danışıq tərzi və problemlərə yanaşması uşaqlar üçün birbaşa model rolunu oynayır. Bəzi fikir sahibləri isə qeyd edirlər ki, uşaqlar valideynlərindən çox zəmanələrinə bənzəyirlər. Cəmiyyət bu məsələdə həm irsiyyət nəzəriyyəsini, həm də mühiti qəbul edir. Bəzi valideynlər isə unudurlar ki, bu həyatda hər şeyin öz qiyməti var. Heç nəyi havayı almağa cəhd etməyin. Övladınıza xərclədiyiniz əmək və ya ömür bir gün sənin özünə xərclənəcək. Psixoloqlar qeyd edirlər ki, açıq və dürüst ünsiyyət, valideyn-övlad münasibətlərinin sağlam olmasının təməlində dayanır. Uşağın fikirlərini dinləmək, suallarına cavab vermək və hisslərini ifadə etməsinə imkan yaratmaq onun emosional inkişafına müsbət təsir göstərir.

Qanunvericiliyə əsasən 18 yaşına, yəni yetkinlik yaşına çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar. Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, onlarla birgə yaşamaq, öz valideynləri tərəfindən tərbiyə olunmaq, öz maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir. Bəli, uşaqlar valideyn sevgisini hiss etdikdə özlərini güvənli və dəyərli hiss edirlər. Bu, onların özgüvəninin inkişafına və sosial münasibətlərdə daha uğurlu olmasına kömək edən başlıca amildir.

Hər bir uşaq valideynləri, babaları, nənələri, qardaşları, bacıları və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir, həmçinin valideynlərinin nikahının pozulması və ya etibarsız sayılması, valideynlərin ayrı yaşaması uşağın hüquqlarına təsir etmir. Valideynlər ayrı yaşadıqda və ya müxtəlif dövlətlərdə yaşadıqda uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir.

Qanunla valideynləri ayrı yaşayan uşağın valideynləri ilə ünsiyyət hüququ vardır. Sürətli informasiyalaşma əsrində isə bəzən eyni evin içində onların bu hüququ təmin olunmur. Belə ki, normal ailə mühiti hesab olunan ailələrdə də, valideyn-uşaq ünsiyyətinin zəif olması bəzi hallarda uşaqların psixoloji narahatlığı ilə büruzə verir. Təəssüflər olsun ki, ünsiyyətsizlik xroniki hal alır və gələcəkdə daha ciddi fəsadlara gətirib çıxara bilər.

Həmçinin uşaq öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi hüququna malikdir. Yetkinlik yaşına çatana qədər tam fəaliyyət qabiliyyətli hesab edilən şəxslər öz hüquq və vəzifələrini, o cümlədən müdafiə hüququnu müstəqil həyata keçirirlər. Uşağın valideynləri (onları əvəz edən şəxslər) tərəfindən sui-istifadə etmə hallarından müdafiə olunmaq hüququ vardır.

Qanunvericiliyə əsasən uşaq ailədə onun maraqlarına toxunan istənilən məsələnin həlli zamanı öz fikrini bildirmək, habelə məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna malikdir. Onun maraqlarına zidd olan hallar istisna olunmaqla, 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır. Ailə Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda məhkəmə və ya qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə, habelə qərar qəbul edərkən 7 yaşına çatmış uşağın fikrini öyrənə və nəzərə ala bilər. Bütün hallarda valideynlər övladlarına nəzarət etməli, lakin onları boğmamalıdırlar. Müəyyən sərbəstlik tanımaq, uşağın məsuliyyət hissini inkişaf etdirər və müstəqil düşünməyi öyrədər.

Amerikalı bir yazıçı Lisa Wingate qeyd edir ki, "Uşaqlar Tanrının bəxş etdiyi ən böyük hədiyyə, ruhları isə əllərinə verilən ən ağır məsuliyyətdir. Onlarla zaman keçir! Onlarda Tanrıya inam yarat! Onların inam bəsləyəcəyi insan ol! Qocalanda etdiyin heç nə o qədər də əhəmiyyətli olmayacaq".

Qanunvericiliyə əsasən valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Uşaqlar yetkinlik yaşına çatdıqda, yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda, eləcə də yetkinlik yaşına çatmayan uşaqlar qanunvericiliklə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etdikdə valideynlərin bu fəsildə göstərilən hüquq və vəzifələrinə xitam verilir. Yetkinlik yaşına çatmayan valideynlər uşaqlarla birgə yaşamaq və onların tərbiyəsi ilə məşğul olmaq hüququna malikdirlər.

Qanunvericilikdə qeyd olunur ki, valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər və uşaqlarını tərbiyə etməyə borcludurlar. Valideynlər uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar. Uşaqlara sərhədləri göstərmək vacibdir. Amma qaydalar aydın və məntiqli olmalı, cəzalar isə təhqiramiz yox, öyrədici xarakter daşımalıdır.

Valideyn-övlad münasibətləri dini dəyərlərimizdə də özünə xüsusi yer tutub. Qurani-Kərimdə qeyd olunur ki, "Rəbbin yalnız Özünə ibadət etməyi və ana-ataya yaxşı davranmağı əmr etmişdir. Əgər onlardan biri və ya hər ikisi sənin yanında yaşlanarsa, onlara: "Uf!" belə demə, onları danlama! Onlara xoş söz söylə!". İslam peyğəmbəri həzrəti Məhəmməd (s.a.s) uşaqlara məhəbbət haqqında belə buyurur: "Uşaqları sevin və onlarla mərhəmətlə davranın. Onlara vədə və söz verdikdə əməl edin".

Valideynlər digər şəxslərlə müqayisədə öz uşaqlarının tərbiyəsində üstün hüquqlara malikdirlər. Çünki bu həyatda ata ciddiyyətini, ana nəvazişini əvəz edəcək heç nə yoxdur. Unutmayaq ki, evdə ata olmayanda həmişə bir şeylər əksik olur. Atanın rəftarı övlad üçün tərbiyə məktəbidir. İnsan xarakterinin bütün tərəfləri isə uşaqlara münasibətdə ortaya çıxır.

Türk ədəbiyyatının görkəmli nümayəndəsi Namiq Kamal qeyd edirdi ki, "Tərbiyə ananın qucağında başlayır. Hər danışılan söz uşağın şəxsiyyətinə qoyulmuş bir kərpicdir". Uşağın güvən dolu gələcəyi ata-ananın bugünkü diqqətində gizlidir. Unutmayaq ki, uşaqları bu dünyaya gətirən valideynlərin borcu onların maddi ehtiyaclarını ödəmək, böyütmək və təhsil verməkdir. Boşanma bizi bu məsuliyyətdən azad etmir. Bir ata-ana uşaqla maraqlandıqca uşaq özünü daha çox sevilən və dəyərli hesab edir. Uşaq üçün atanın səsi belə güvən deməkdir. Ata maraqlanırsa, uşaq özünü daha güvəndə hiss edir. Valideyn olmaq təkcə maddi təminat vermək deyil. Bəli, keçmişimizə daş atmayaq ki, gələcəyimiz bizi topa tutmasın. Bundan əlavə, valideynlər uşaqların əsas ümumi təhsil almasını təmin etməyə borcludurlar. Valideynlər uşaqların ümumi orta təhsil almasına qədər onların maraqlarını nəzərə almaqla təhsil müəssisəsini və təhsil formasını seçmək hüququna malikdirlər.

Dövlət valideynlərin bu hüquq və vəzifələrinə qanunda nəzərdə tutulmuş qaydada yalnız uşağın mənafeyi tələb etdiyi hallarda müdaxilə edə bilər.

Valideynlər uşaqların hüquq və mənafelərini müdafiə etməlidirlər. Valideynlər uşaqlarının qanuni nümayəndəsi kimi onları məhkəmələrdə, habelə hər hansı fiziki, hüquqi şəxslərlə əlaqədar hüquqlarını və maraqlarını buna səlahiyyət almadan müdafiə edə bilərlər.

Valideynlik hüquqları uşaqların mənafeyinə zidd həyata keçirilə bilməz. Valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər. Uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verilə bilməz. Valideynlik hüquqlarını həyata keçirərkən uşaqların hüquq və mənafelərinə ziyan vuran valideynlər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

Uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyət hüququna, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir. Uşaqlarla yaşayan valideyn uşağın fiziki, psixi sağlamlığına, onun əxlaqi inkişafına zərər yetirməyən digər valideynlə uşağın ünsiyyətinə mane olmamalıdır.

Baba, nənə, qardaş, bacı və digər qohumlar uşaqla ünsiyyət hüququna malikdirlər. Valideynlər (onlardan biri) uşağın yaxın qohumları ilə ünsiyyətinə etiraz etdikdə müvafiq icra hakimiyyəti orqanı valideynlərin (onlardan birinin) bu ünsiyyətə mane olmamağını tələb edə bilər.

*ardı 23-cü səhifədə*

Valideynlər öz valideynlik vəzifələrini yerinə yetirmədikdə, alimenti qəsdən ödəmədikdə, heç bir üzrlü səbəb olmadan uşağı doğum evindən və yaxud hər hansı sosial xidmət müəssisələrindən götürməkdən imtina etdikdə, valideynlik hüquqlarından sui-istifadə etdikdə, uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törətdikdə, xroniki alkoqol və narkomaniya xəstəsidirsə, uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə və uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət törətdikdə valideynlik hüquqlarından məhrum edilə bilərlər.

Valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşağa münasibətdə həmin uşaqla qohumluq faktına əsaslanan bütün hüquqlarını, o cümlədən Ailə Məcəlləsinə əsasən, uşaqdan təminat almaq, habelə uşaqlar üçün təyin edilmiş dövlət müavinəti almaq və imtiyazlardan istifadə etmək hüququnu itirirlər.

Məhkəmə valideynlik hüquqlarından məhrum etmədən uşağın mənafeyini nəzərə almaqla, valideynlərdən (onlardan birindən) uşağın alınması barədə qətnamə qəbul edə bilər. Valideynlik hüquqları məhdudlaşdırılan valideynlər uşağın tərbiyəsi ilə şəxsən məşğul olmaq, uşaqlı valideynlər üçün dövlət müavinətləri və imtiyazlarına olan hüquqlarından məhrum olurlar.

Valideynlərin uşaqlarını saxlamaq üçün aliment ödəmək vəzifəsi olduğu kimi, yetkinlik yaşına çatmış övladların da valideynlərini saxlamaq vəzifəsi var. Ailə qanunvericiliyinə əsasən, əmək qabiliyyəti olan yetkinlik yaşına çatmış övladlar maddi yardıma ehtiyacı olan əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa və onlara qayğı göstərməyə borcludurlar. Aliment ödənilməsi barədə saziş olmadıqda əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan valideynlər üçün aliment əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlardan məhkəmə qaydasında tutulur. Övladların hər birindən tutulan alimentin həcmi məhkəmə tərəfindən valideynlərin və övladların maddi vəziyyəti, ailə vəziyyəti və tərəflərin diqqətəlayiq digər maraqları nəzərə alınmaqla hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilir.

“Alimentin miqdarı müəyyən olunarkən məhkəmə, tələbin valideynlərin əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlarından hamısına, birinə və ya bir neçəsinə verilməsindən asılı olmayaraq, onların hamısını nəzərə almağa haqlıdır”. Valideynlərin öz valideynlik vəzifələrini yerinə yetirməməsi məhkəmə tərəfindən müəyyən olunarsa, uşaqlar əmək qabiliyyəti olmayan və maddi yardım ehtiyacı olan valideynlərini saxlamaq vəzifəsindən azad edilə bilərlər. Uşaqlar valideynlik hüquqlarından məhrum edilən valideynlərinə aliment ödəməkdən azad edilirlər.

Psixoloqlar qeyd edirlər ki, dörd yaşından aşağı olan uşaqların yaşadıqları travmalar bədənlərində depolanır və fiziki simptomlar (ağrı, sıxılma və s.) şəklində ortaya çıxır. Uşaq böyüdükdə eyni travmaya bənzər bir vəziyyətlə qarşılaşdıqda, həmin simptomlar yenidən meydana çıxır.

Ailə insanı ən yaxşı mühafizə edən sığınacaqdır. Ailə münasibətləri, xüsusilə qan qohumluğu ailə fərdlərini bir-birinə bağlayan ən güclü vasitədir. Bununla yanaşı, dünyada geniş yayılmış təcrübələrdən biri olan himayədar ailə qayğı modeli valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların qısa və ya uzun müddət ərzində dövlət nəzarəti altında ödənişli əsaslarla ailə mühitində böyüməsini nəzərdə tutur. Məqsəd həmin uşaqların ailə mühitində yaşamaları və inkişafına şərait yaratmaqdır. Ölkəmizdə də himayədar ailə modeli mövcuddur. Himayədar ailə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə əsasında yaranır.

Fyodr Dostayevski qeyd edirdi ki, “Hər kəs hər kəsin qarşısında hər şeyə cavabdehdir”. Valideynlər bilməlidirlər ki, sevgi və hörmət göstərilməyən məkanda uşaq üçün də yaşamaq mümkün deyil. Uşaq dünyanın ən böyük səadətidir. Çünki uşaqları sevən həyatı da sevər.

Bir söz adamından eştidiyim və hər bir övladın qəlbindən keçən bu minnətdarlıq sözləri ilə fikirlərimi bitirmək istəyirəm: “Sizin öyüd və nəsihətləriniz bu gün də mənim həyat yoluma işıq tutur. Əziz Ata və anam! Siz gecəmə ay, gündüzümə günəş oldunuz. Şükürlər olsun ki, Sizin kimi özəl bir Ata və Anaya sahibəm!”

*Faiq Səfərov*
*Naxçıvan Muxtar Respublikası*
*Prokurorluğunun şöbə rəisi,*
*baş ədliyyə müşaviri, Prokurorluğun fəxri işçisi*

# Azərbaycan mədəniyyət tarixinin tarixşünaslığına yeni töhfə - Hacıfəxrəddin Səfərlinin “Ordubad-Dövlət Tarixi Mədəniyyət Qoruğu” kitabı

Adında dünyanın bəzəyi ifadəsini möhürləmiş Naxçıvan diyarı özünün əsrarəngiz təbiəti ilə bərabər, tarixi-memarlıq abidələri ilə də zəngindir. Bu diyar orta əsr tacirlərinin, səyyahların qeydiyyatlarında özünəməxsus cəhətləri ilə yer almışdır. Naxçıvan bölgəsi daha çox islam dini memarlığı ilə bağlı abidələrlə zəngindir. Bunlara məscidlər, mədrəsələr, pirlər, xanəgahlar, təkkələr, türbələr və başqa bu kimi memarlıq abidələri daxildir. Təbii ki, haqqında bəhs edilən mədəniyyət inciləri özündə türk-islam memarlığı ilə əlaqədar naxışları, bədii tərtibatı, ən əsası isə epiqrafik nümunələri – kitabələri ilə xüsusi olaraq seçilir. Ərəb-fars dilli kitabələri özündə qoruyub saxlamış bu qəbildən olan tikililər sözsüz ki, daha çox diqqət çəkir, tədqiqatçılarda maraq oyadır.




Muxtar respublika ərazisində yerləşən, haqqında bəhs edilən abidələrin əsas tədqiqatçılarından olan, demək olar ki, ərazidə yerləşən türk-islam mədəniyyəti abidələrinin əsas tədqiqatçısı, Əməkdar Elm Xadimi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Hacıfəxrəddin Səfərli öz araşdırmalarında epiqrafik abidələrin açılışını vermiş, abidənin təyinatı ilə bağlı məsələlərə aydınlıq gətirmişdir. 600-dən artıq elmi əsərin, o cümlədən 50-yə yaxın monoqrafiyanın, kitabların, dərslik və metodik vəsaitin, ümumiləşdirici əsərin müəllifi olan professor Hacıfəxrəddin Səfərli öz oxucu auditoriyasına bu günlərdə yeni bir tədqiqat əsərini– “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğu monoqrafiyasını təqdim etmişdir. Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 fevral 2024-cü ildə “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında Sərəncam imzalamışdır. Təqdimatı edilən əsər müəllifin özünün də qeyd etdiyi kimi, Prezidentin Sərəncamından irəliyə gələn vəzifənin yerinə yetirilməsi istiqamətində atılmış bir addımdır. Zəngin maddi-mədəni irsə, maraqlı təbiətə, mehriban, gülərüz sakinlərə malik Azərbaycanın incisi hesab edilən Ordubad şəhəri ilə bağlı yazdığı monoqrafiyada müəllif şəhərin tarixi və mövcud olan memarlıq abidələri haqqında geniş məlumat vermişdir.

“Azərbaycanın incisi-Ordubad şəhəri” başlıqlı hissədə şəhərin coğrafi mövqeyi, adın toponimik izahı, orta əsr tarixçilərinin, səyyahların şəhərlə bağlı verdiyi məlumatlar şərh edilir. Ordubad şəhərinin salınması, bölgədə yerləşən qədim yaşayış məskənləri, arxeoloji abidələr, Cümə məscidi ərazisindən tapılmış kitabə, Ordubad şəhər qəbiristanlığında aparılmış tədqiqatlar oxucuların diqqətinə çatdırılır. Ordubad şəhərinin inkişafının bağlı olduğu Səfəvilər dövrü, həmçinin XVIII-XIX əsrlər tarixi haqqında qısa məlumatlar verilir. Adı çəkilən bölmədə Ordubad şəhərinin Sovet hakimiyyəti illərindəki vəziyyəti, muxtar respublika ərazisində bu gün olduğu kimi xeyli böyük və əhəmiyyətli şəhər kimi diqqət çəkməsi, ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi illərində “Ordubad Tarix-Memarlıq Qoruğu” statusu alması və digər mühüm hadisələr müəllif tərəfindən dəqiq faktlarla təqdim edilir.

Professor Hacıfəxrəddin Səfərli monoqrafiyada tarix-mədəniyyət abidələri haqqında məlumatları ayrı-ayrılıqda təqdim edir. Məscidlərlə bağlı toplanmış materiallar monoqrafiyada eyniadlı başlıqla – “Məscidlər” adı ilə öz əksini tapır. Bölmədə orta əsrlərdə Ordubadda yerləşən məscidlərin sayı ilə əlaqədar məlumat vermiş alimlərin qeydləri, məscidlərin yerləşdiyi məhəllələr verilir. Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən ən böyük ibadət ocaqlarından olan Ordubad Came məscidinin strukturu, kitabələri, o cümlədən Səfəvi şahı I Abbasın 1604-cü ildə verdiyi fərman, məscidin tikilmə tarixi və mövcud olduğu dövrdə müəyyən edilmiş təyinatı ilə bağlı məsələlər müəllif tərəfindən ətraflı şərh edilir.

Bəhs edilən bölmənin digər diqqətçəkən yazıları Ordubadın məhəllə məscidləri -I Mingis məscidi, II Mingis məscidi, III Mingis məscidi, IV Mingis məscidi, Təkeşiyi (Yəhya bəy) məscidi, Yuxarı Anbaras məscidi, Mirzə Əliməmməd məscidi, Hacı Məmmədsadıq məscidi, Qoşqar məscidi, Dübəndi məscidi, I Sərşəhər məscidi, II Sərşəhər məscidi, III Sərşəhər məscidi, Kürdətal məscidi, Hacı Məhəmmədəli məscidi, Qırxayaq məscidi, Üstürləngə məscidi, Nəhər başı məscidi və digərləri haqqında faktlarla izah olunan maraqlı məlumatlardır.

Yaxın və Orta Şərqdə əsas tədris müəssisələrindən olan mədrəsələr professor Hacıfəxrəddin Səfərlinin tədqiqatlarında əsas obyektlərdəndir. Təqdimatı keçirilən monoqrafiyada Ordubad şəhərində yerləşən mədrəsə də geniş şəkildə tədqiqata cəlb edilmiş, zəngin faktlarla elmi ictimaiyyətə və bu sahə ilə məşğul olan oxucu auditoriyasına təqdim edilmişdir. Mədrəsə ilə bağlı orta əsr qaynaqlarından verilən məlumatlar daha çox diqqəti cəlb edir.

Tədqiqatçı alim Ordubad şəhərində yerləşən maddi-mədəniyyət abidələrindən olan Qeysəriyyə bazarından monoqrafiyada ətraflı bəhs etmiş, binanın quruluşu, təyinatı, müxtəlif dövrlərdə istifadəsi, bərpası və mövcud vəziyyəti ilə bağlı məlumatları öz araşdırmalarına daxil etmişdir.

Naxçıvan bölgəsi orta əsrlərdən qalma maraqlı tikililərdən olan Buzxanalarla da diqqəti çəkməkdədir. Bu tikililər yay aylarında əhalinin buza olan tələbatının ödənilməsi üçün istifadə edilmişdir. Professor Hacıfəxrəddin Səfərli adı çəkilən tikililərə də öz araşdırmalarında yer vermiş, onlarla bağlı maraqlı faktlar söyləmişdir. “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğu monoqrafiyasında da müəllif Ordubad şəhərində yerləşən Buzxana haqqında məlumatı diqqətə çatdırır.

Monoqrafiyada Ordubad şəhəri üçün özünəməxsus olan maddi-mədəniyyət abidələri sırasında “Səqqaxana” və “Hamamlar”la bağlı araşdırmalar da yer almışdır.

Məlumdur ki, qəbiristanlıqlar islam aləmində müqəddəs yerlərdən biri kimi əhali tərəfindən əziz tutulur. Müsəlman Şərqində qəbiristanlıqlarda qəbir daşlarının müxtəlif motivli yazılarla, xüsusən müqəddəs Qurani-Kərimin bəzi ayələri ilə bəzədilməsi orta əsrlərdə geniş yayılmışdır. Tarixin bu dönəmlərində qəbir daşlarında mərhumun sənətini, məşğuliyyətini əks etdirən fraqmentlər epitafiya olaraq daşlara həkk edilmişdir. Təbii ki, bu abidələrdəki yazılar ərəb-fars dillərində yazılırdı. Haqqında bəhs edilən yazılı abidələrin tədqiqi də professor Hacıfəxrəddin Səfərlinin araşdırmaları sırasına daxildir. Ordubad ərazisində yerləşən qəbiristanlıqlar və bəzi mənsubların qəbirləri haqqında məlumatlar, həmçinin meyidxana ilə əlaqəli faktlar təqdim edilən elmi əsərdə geniş şəkildə diqqətə çatdırılır.

Orta əsrlər müsəlman Şərqinin, o cümlədən Azərbaycanın sosial-siyasi və ideoloji həyatında rol oynamış mərkəzlər olan xanəgahlar haqqındakı qeydləri, apardığı araşdırmalar professor Hacıfəxrəddin Səfərlinin elmi tədqiqat sahəsinin əsas tərkib hissəsi olduğundan monoqrafiyada bu tikililərlə, onların təyinatı ilə bağlı yazılara geniş verilmişdir. Müəllif həyatını Azərbaycanda islam fəlsəfəsi dünyagörüşünün formalaşmasına, sosial-siyasi, ideoloji məsələlərin inkişafına həsr etmiş şeyxləri, onların fəaliyyətlərini faktlarla öz əsərində təqdim etmiş, mənəvi-əxlaqi keyfiyyətləri ilə seçilən şəxslərin həyatına nəzər salmışdır.

Monoqrafiyada həmçinin Kəhrizlər, Əfqan qalası, Məbəd və Ordubad şəhərinin məşhur Çinar ağacları ilə bağlı məlumatlar da yer almışdır.

AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərlinin elmi fəaliyyəti, onun tədqiqata cəlb etdiyi mənbələr elm aləmində həmişə faktoloji zənginliyi ilə diqqət çəkmiş, bu gün də onun araşdırmaları aktuallığı seçilməkdədir. Bütün həyatını elmə, milli-mənəvi dəyərlərimizin yaşadılmasına həsr etmiş, görkəmli alimimizi elmi ictimaiyyətin, həmçinin geniş oxucu kütləsinin istifadəsinə təqdim etdiyi kitablar münasibətilə təbrik edir, ona can sağlığı arzulayırıq.

*Qadir Əkbərov*
*Tarix-filologiya fakültəsinin*
*dekan müavini,*
*tarix üzrə fəlsəfə doktoru*

# Müasir musiqidə xor sənətinin inkişafının əhəmiyyəti

Xor musiqisi əsrlər boyu insanların birgə musiqi yaratma ehtiyacının təzahürü kimi formalaşmış, müxtəlif dövrlərdə və mədəniyyətlərdə fərqli üslub və formalarla inkişaf etmişdir. Qədim dövrlərdə əsasən dini məqsədlərlə istifadə edilən xor musiqisi, zaman keçdikcə yeni janrlarla özünü göstərməyə başlamışdır. Bu, xor sənətinin müasir zamanda da əhəmiyyətinə diqqət çəkir. Təsadüfi deyil ki, bu haqda Pekarskaya İ. deyir:"Bu gün, XXI əsrdə xor musiqisinə və xor ifaçılığının dirçəldilməsi, populyar xarakter almağına maraq olduqca böyükdür".

Müasir dövr xor musiqisi yalnız klassik ənənə ilə məhdudlaşmır. Xor bəstəkarları əsərlərində sadəcə musiqi quruluşunu deyil, həm də seçilən mətnin mənasını, ritmini və poetik strukturunu nəzərə alırlar. Bəstəkar xor musiqisində insan səsinin təbii imkanlarını araşdıraraq müxtəlif vokal texnikalardan istifadə edir. Xor əsərlərində polifoniya, homofoniya, a cappella, xor və orkestrlə birlikdə üslub və texnikalar, forma rəngarəngliyi, janr müxtəlifliyinə tez-tez rast gəlinir. Bir çox bəstəkarın xor əsəri üçün faktura ilə diqqətli işləmək, kontrapunktdan istifadə etmək, homofonik və polifonik bölmələri növbələşdirmək səciyyəvidir ki, bu da musiqiyə həcm və daxili dinamika qazandırır. Bəstəkarlar xor əsərlərində tez-tez orijinal üsullara müraciət edir, xor əsərlərində təsvir olunan məzmunu zidd mövzular və kulminasiya nöqtələrinin köməyi ilə inkişaf etdirir.

Xor musiqisinin inkişafı texnoloji tərəqqi ilə də bağlı olmuşdur. Səsin müxtəlif texniki avadanlıqların köməyi ilə yazılması, gücləndirilməsi, məkanda yerləşdirilməsinin yeni üsulları meydana çıxmışdır. Bəstəkarlar aktiv şəkildə xor ansambllarının akustik imkanlarını tədqiq etməyə, rəngli tekstrua üçün səs materialından daha geniş faydalanmağa və eksperimentlər aparmağa başlamışlar.

Müasir dövrdə bəstəkarlar çoxsəsli vokal ansamblı kimi qəbul olunan xor anlayışının ənənəvi sərhədlərini aşmağa çalışırlar. Səs qeyri-adi efektlər-küy, nəfəs, artikulyasiya mənbəyi olaraq qəbul edilir. XX əsrin 60-cı illərindən sonra meydana gələn yeni təmayüllər xor musiqisinə güclü şəkildə nüfuz etməyə başlayır. Təkrar olunan quruluşlar, tez-tez baş verən dəyişmələr, mediativ xarakter bir çox xor əsərinin əsasına çevrilir. Xor musiqisi xalq musiqisi ənənələri ilə daha çox əlaqələndirilir. Bu, intonasiya, ritm, mətn, hətta ifa üslublarında da özünü hiss etdirir. Bunun da nəticəsində xor musiqisi daha da zənginləşir, rəngarəng xarakter alır.

Müsir günümüzdə akademik əsərlərlə birlikdə səs sahəsində aparılan istənilən eksperimentlə zənginləşən, dini, etnik məzmunu ilə xor sənəti musiqili ifadənin universal vasitəsi kimi öz mövqeyini qoruyur. Bu istiqamətdə hiss olunan inkişaf müxtəlif cəmiyyətlərdə musiqili fikrin kollektiv şəkildə ifadəsinin olduqca əhəmiyyətli olduğunu bir daha diqqətə çatdırır. Xor musiqisinin folklor, etnik ənənələrlə, caz, rok, elektron və ya pop musiqi ilə uzlaşdırılması onun daha böyük dinləyici kütləsi üçün əlçatan musiqi janrı olmağını təmin edir, sərhədlərini genişləndirir. Müasir dövrdə xor musiqisi yalnız musiqi növü deyil, sosial, pedaqoji, psixoloji və mədəni funksiyaları olan kompleks bir sənət sahəsidir. O, insanları birləşdirir, fərdlərin inkişafına yardım edir, mədəni irsi yaşadır və emosional təsir vasitəsi rolunda çıxış edir. Bu səbəbdən xor musiqisinin cəmiyyətdəki rolu daha da qiymətlidir, bu sənət təkamül edir və müasir bəstəkarların yaradıcılığında əsas yerlərdən birini tutur.

Bəstəkar yaradıcılığı müxtəlif musiqi janrları, üslublar və ifa tərkiblərini əhatə edən çoxşaxəli prosesdir. Bu yaradıcılığın mühüm istiqamətlərindən biri xor musiqisidir. Xor musiqisi bəstəkar üçün yalnız musiqi yazmaq imkanları baxımından deyil, həm də dərin emosional, fəlsəfi və estetik ifadə vasitəsi kimi mühüm rol oynayır. Ümumiyyətlə, insan səsi musiqidə ən təbii və emosional alət hesab olunur. Bəstəkar xor vasitəsilə söz və musiqini birləşdirərək insan duyğularını birbaşa ifadə edə bilər. Səsin rəng çalarları, dinamik imkanları və ahəngdarlığı əsərə xüsusi dərinlik və ruh verir.

Müasir dövrdə xor musiqisi bəstəkar yaradıcılığında həm texniki, həm də estetik baxımdan zəngin və çoxşaxəli janr olmaqda davam edir. İnsan səsinin təbii gücü, çoxsəsliliyin kompleksliyi, söz və musiqi vəhdəti, milli və bəşəri dəyərlərin musiqi ilə ifadəsi xor musiqisini bəstəkar üçün əvəzsiz janra çevirir. Bəstəkarın sənət dünyasında xor əsərləri onun musiqi düşüncəsinin zirvəsi, bəzən də cəmiyyətdə ictimai və mənəvi rolunun ən güclü ifadə forması olur. Təbii ki, hər bir xalqın özünəməxsus milli cəhətlərin xor əsərlərində ifadəsi bəstəkar üçün əsl yaradıcılıq problemi və həlli yetişdirir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında xor musiqisi heç bir zaman aktuallığını itirməmiş, xor musiqisinin müxtəlif janrları bəstəkarlar üçün hər zaman əsl yaradıcılıq mənbəyi olmuşdur.



Azərbaycan bəstəkarlarının xor əsərlərində milliliyin ifadəsi xalq musiqisi və muğam elementlərindən istifadə olunmağında özünü nümayiş etdirir. Xor musiqisi, xüsusilə xalq mahnılarının xor üçün işlənməsi, muğam elementlərinin uyğunlaşdırılması və ya milli müəlliflərin mətnlərinə bəstələnən xor əsərləri vasitəsilə bəstəkarın öz milli kimliyini ifadə etməyi üçün geniş imkan yaradır. Bu, həm də milli musiqi irsinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyətə malikdir. Mühüm olan bu yaradıcılıq prosesi öz başlanğıcını XX əsrin 30-cu illərindən götürmüşdür. Bu işdə isə özünün fədakar əməyi ilə Ü.Hacıbəylinin rolu danılmazdır. 1936-cı ildə fəaliyyətə başlayan flarmoniyanın nəzdində eyni vaxtda Ü.Hacıbəylinin rəhbərliyi altında Dövlət Xalq Xoru yaradılmışdır. O, xor repertuarı üçün yeni nümunələrin yaradılması sahəsində böyük iş görmüş, daha çox xalq mahnıları əsasında işləmələr etmişdir.

XX əsrin 80-ci illərindən sonra Azərbaycan musiqisində, o cümlədən xor sənətində baş verən dəyişikliklər və yeniliklər həm ictimai-siyasi hadisələrlə, həm də musiqi estetikası və texnikasında müşahidə olunan qlobal tendensiyalarla sıx bağlıdır. SSRİ-nin bir dövlət kimi süqutundan sonra formalaşan yeni ictimai mühit bəstəkarların dünyagörüşünə, mövzu seçimlərinə və musiqi dilinə təsirsiz ötüşməmişdir. Bu dövr Azərbaycan xor musiqisinin inkişafında yeni mərhələni təşkil edir. Əsərlərdə tematik və janr müxtəlifliyi artır, musiqi dili daha çox fərdi və eksperimental xüsusiyyətlər qazanır. Ənənəvi xor texnikalarına müasir yanaşmalar əlavə olunur, yeni kompozisiya metodlarından istifadə olunur. XX əsrin sonu Azərbaycanda vüsət alan azadlıq hərəkatı bəstəkar yaradıcılığında xor musiqisinə də yeni yanaşmanı şərtləndirir. Müasir Azərbaycan bəstəkarları xor əsərlərində milli musiqi dilinə əsaslanmağa davam edir. Muğam intonasiyaları, aşıq musiqisinin melodik quruluşu və xalq musiqisinə məxsus ritmik modellər xor musiqisinin əsas estetik dayaqları rolunda çıxış edir. Bununla yanaşı, bəstəkarlar bu elementləri müasir harmonik və polifonik dil ilə birləşdirərək orijinal musiqi nümunələri yaradırlar.

Müasir xor əsərlərində müxtəlif mövzulara yer verilir. Bu mövzular arasında aşağıdakılar xüsusilə seçilir:

Milli vətənpərvərlik mövzuları – Qarabağ müharibəsi, şəhidlərin xatirəsi, vətən sevgisi kimi ideyalar bəstəkarların əsas ilham mənbəyidir. Bu mövzular həm xalqın emosional ruhunu əks etdirir, həm də musiqi vasitəsilə milli birlik və həmrəyliyin təbliğinə xidmət edir.

Dini və fəlsəfi motivlər – Sovet dövrünün sonlarından başlayaraq dini-mistik mətnlərə maraq artmışdır. Əsərlərdə Quran ayələri, sufi poeziyası, klassik şairlərin (Nəsimi, Nizami, Füzuli) dərin fəlsəfi məzmunlu şeirlərinə müraciət olunur.

Humanist və ümumbəşəri dəyərlər – Sülh, tolerantlıq, insan sevgisi kimi ideyalar müasir bəstəkarların xor əsərlərində əksini tapır. Bu əsərlər həm Azərbaycanda, həm də beynəlxalq səhnələrdə uğurla səsləndirilir.

Müasir dövrdə Azərbaycan bəstəkarlarının yaradıcılığında xor musiqisinin əsas cəhətlərindən biri janr rəngarəngliyidir. Bu haqda S.Quliyeva qeyd edir: "Azərbaycan bəstəkarlarının xor musiqisində XX əsrin sonu və XXI əsrin əvvəllərində əsas fərqləndirici cəhət janr rəngarəngliyinin modifikasiyasıdır". Bu, müxtəlif həcmli xor əsərlərində zəngin ideya məzmununa malik fərqli mövzuların işlənməsini yetişdirir.

Müasir dövrdə xor musiqisi təkcə konsert səhnələri ilə məhdudlaşmır. Bəstəkarlar xor janrının müxtəlif formalarında əsərlər yaradırlar.

Kantata və oratoriyalar-Ənənəvi forma olsa da, bu janrda müasir texnikalarla zənginləşdirilmiş monumental əsərlər yaranır.

Akapella xor miniatürləri-Lirizm və incə poetik duyğulara əsaslanan kiçik formalar geniş yayılır.

Kamera xor musiqisi-Kiçik tərkibli xorlar üçün yazılmış mürəkkəb polifonik əsərlər meydana gəlir.

Eksperimental əsərlər-Səhnə hərəkəti, işıq effekti və səs dizaynı ilə birgə təqdim olunan xor kompozisiyaları bədii yaradıcılıqda böyük vüsət alır.

Müasir musiqili məkanda Azərbaycan xor sənəti özünəməxsus musiqi dili, texniki imkanlarla inkişaf etdirilir. Azərbaycan bəstəkarları bır sıra musiqi texnikalarından geniş istifadə edirlər. Onların xor əsərlərində polifoniya və poliritmiya - müxtəlif səs qatlarının bir vəhdətdə işlənməsi, musiqiyə dərinlik və dinamizm verir. Atonallıq və modalizm-klassik tonallıqdan uzaqlaşmaqla, bəstəkarlar fərqli emosional vəziyyətlər yaratmağa nail olurlar. Aleatorika və improvizasiya elementləri-bəzi əsərlərdə ifaçılara müəyyən azadlıq verilir, bu da musiqinin canlı və təbii səslənməsinə şərait yaradır. Elektro-akustik elementlər-xüsusilə gənc bəstəkarlar xor musiqisində elektronik səslərdən və effektlərdən daha çox istifadə edirlər.

Bütün qeyd olunanlar onu göstərir ki, Azərbaycan müasir xor sənətinin inkişafı milli musiqi irsinin qorunması və dünyaya tanıdılmasında əsas vasitələrdən biridi. Bu sənət növü yalnız musiqi baxımından deyil, həm də gənc nəslin estetik tərbiyəsində, vətənpərvərlik ruhunun aşılanmasında və mədəni kimliyin formalaşmasında əvəzsiz rol oynayır. Müasir xor kollektivləri xalq musiqisi ənənələrini yeni ifadə vasitələri ilə birləşdirərək, Azərbaycan musiqisinin zənginliyini nümayiş etdirir və onun beynəlxalq səviyyədə təqdiminə töhfə verir.

Ümumiyyətlə, müasir dövr Azərbaycan bəstəkarlarının xor yaradıcılığı zəngin, çoxşaxəli və dinamik inkişaf edən bir sahədir. Bu sahədə milli musiqi kökləri ilə yanaşı, dünya musiqi mədəniyyətinə inteqrasiya prosesi də müşahidə olunur. Xalq ruhunu yaşadan, müasir texnikalarla zənginləşdirilən xor əsərləri Azərbaycan musiqisinin mühüm istiqaməti olaraq yüksəlişini davam etdirir. Xor sənətinin inkişafı milli-mənəvi dəyərlərin yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyət kəsb edir.

*Validə Hüseynova*
*"Orkestr alətləri və dirijorluq kafedrasının dosenti*

## Cəbhədən məktublar göndərən əsgər....

Dünən çox yorğundum, nəysə cızırdım,
Masa arxasında, əlim çənəmdə.
Sanki taleyimi özüm yazırdım,
Nə yalan söyləyim, həm də yuxulu.
Saralmış məktuba sataşdı gözüm...
O məktub bir nəfər, bir ünvanındır,
Cəbhədən məktublar göndərən əsgər...
Əvvəllər yazsaydın Böyük Vətəndən,
Yəqin ki, yazardın Neftdən, kənddən.
İndiysə yazırsan: "Cib telefonumu
Sevdiyim xanıma əmanət göndər..."
Cəbhədən məktublar göndərən əsgər.
Necə yazım axı, bugün yeddidə
"Vağzalı" səsiylə ailə qurubdu.
Telefonun masamda, elə saralmış
Məktubla yanaşı sakit durubdu.
Şam işığındayam, şam da əriyir,
Mən də xəcalətdən sözlər seçirəm.
Masaya tökülən şam qırıntısı,
Mənim ürəyimlə yarışan gecə.
Şimşək parıltısı, göy taqqıltısı
Mənim ürəyimi keçirsə əgər,
Bir mərmi, bir silah sıx ürəyimdən...
Cəbhədən məktublar göndərən əsgər.
Göndər, qoy arabir oxuyum səni,
Oxuyum soyuqdan donan gözləri,
Oxuyum: "Atəşdən qorxmuram!" – deyən,
Duanı zireh tək əyninə geyən
Anadan, atadan nigaran əsgər...
Göndər, qoy arabir oxuyum səni:
Oxuyum Şuşanı, lap Qarabağı.
Oxuyum əlinə titrəklik verən,
Arabir yuxumda gördüyüm dağı...
Cəbhədən məktublar göndərən əsgər,
Mən isti yerimdə, sən dağ başında,
Dodaqlar çatlayıb, qrov qaşında.
İndi dağdır bəlkə tək sirdaşında,
Cəbhədən məktublar göndərən əsgər.
Düzdür, mürəkkəb axır bəzən vərəqdən,
Oxuya bilmirəm səni, nə edim?..
"Sərt"in əvəzinə "dərd" oxuyuram,
Sən "Tox" yazırsan, "Yox" oxuyuram,
Barut əvəzinə gül qoxuyuram...
Bəlkə də qorxuram sənin yerinə...
Anadan, atadan nigaran əsgər.
Gözlərim yavaşca açılır, nədir?
Deyəsən, yuxudan oyanıram mən.
Deyəsən, yuxumdan sağollaşmısan...
Nə savaş səsi var, nə də ki, barut,
Nə atəş səsləri, nə də ki, səngər...
Hələlik, di, gecən xeyirə qalsın,
Cəbhədən məktublar göndərən əsgər...

*Rafiq Təhməz*

# Qloballaşan dünyada tərcümə: Dillərarası körpü

XXI əsr sürətlə dəyişən texnologiyalar, informasiyanın seli və mədəniyyətlərin bir-birinə qarışdığı dövrdür. Bu gün dünyanın istənilən nöqtəsində baş verən hadisə saniyələr içində başqa ölkələrdə də əks-səda doğura bilir. Belə bir şəraitdə insanlar arasında əlaqəni təmin edən əsas vasitələrdən biri dillərdir. Lakin bu dillərin çoxluğu və müxtəlifliyi kommunikasiya baxımından həm üstünlükdür, həm də çətinlik. Bu çətinliyin həlli isə tərcümə ilə mümkündür. Tərcümə artıq sadəcə söz çevirmək deyil – bu gün o, qloballaşan dünyanın dillərarası körpüsüdür. Hər bir dil özündə bir xalqın düşüncə tərzini, tarixini, dünyagörüşünü və yaşam tərzini əks etdirir. Bu səbəbdən tərcümə sadəcə texniki bir fəaliyyət deyil, həm də mədəniyyətlərarası dialoqun açarıdır. Məsələn, ədəbi tərcümələr sayəsində Azərbaycan oxucusu ingilis poeziyasını, Fransanın fəlsəfəsini və ya Latın Amerikasının realizmini yaxından öyrənə bilmərik.

Tərcümə olmasaydı, Şekspir, Tolstoy və ya Dostoyevski kimi dahi yazarların əsərləri yalnız öz dillərində qalıb, bəşəri dəyərlərə töhfə vermək imkanını itirərdi. Bu gün dünya sürətlə dəyişir və sərhədlər get-gedə daha da silinməyə başlayır. Artıq bir kliklə uzaq ölkələrlə əlaqə qurmaq, müxtəlif mədəniyyətlərlə tanış olmaq mümkündür. Bütün bu proseslərdə isə bir vacib sahə var ki, bəzən onun əhəmiyyəti unudulur: Zaman var idi ki, bir dilin içində yaşamaq kifayət edirdi. Lakin bu gün dünya bir klik qədər yaxındır. Müxtəlif ölkələr, mədəniyyətlər, xalqlar və fərdlər bir-biri ilə daha sıx təmasdadır. Belə bir dövrdə tərcümə sadəcə sözləri bir dildən digərinə çevirmək deyil, anlamaq, anlaşmaq və əlaqə qurmaq üçün körpü salmaq deməkdir. Qloballaşmanın sürətlə getdiyi bir zamanda tərcümə artıq təkcə ədəbiyyat və sənədlərlə məhdudlaşmır. O, sosial ədalət, təhsil, informasiya hüququ və mədəni dəyərlərin qorunması kimi bir çox sahələrdə həyati əhəmiyyət daşıyır. Tərcüməni bəzən yalnız texniki proses kimi düşünürük: cümlə cümlənin yerinə qoyulur, söz sözlə əvəz olunur. Lakin əslində tərcümə mədəniyyətlərin, dünyagörüşlərin və düşüncə sistemlərinin qarşılıqlı əlaqəsini təmin edir.

Əcnəbi tələbələr, iş adamları, turistlər, miqrantlar – hər biri üçün düzgün tərcümə həyati əhəmiyyət daşıyan məsələdir. Həkim qəbulunda, məhkəmə prosesində və ya sadə bir məlumat bildirişində belə, kiçik tərcümə səhvi ciddi problemlərə səbəb ola bilər. Məhz buna görə də ixtisaslaşmış tərcümə daha çox məsuliyyət tələb edir və düzgün tərcümənin önəmini üzə çıxarır.

Bir sıra tərcümə proqramları həyatımızı asanlaşdırsa da, tərcüməçinin işi öz əhəmiyyətini itirmir. Unutmamalıyıq ki, dil, təkcə, söz deyil, həm də duyğudur, mədəniyyətdir. Bunu isə hələlik yalnız insan tərcüməçilər dəqiq ötürə bilir. Xüsusilə də, ədəbi, hüquqi və ya tibbi sahələrdə peşəkar tərcümə vacibdir.

Statistik faktlara diqqət yetirdikdə görürük ki, UNESCO-nun məlumatına görə, bu gün dünyada təxminən 7000 dil danışılır. Lakin elm, texnologiya və beynəlxalq münasibətlər sahəsində əsasən 10-a yaxın dil istifadə olunur. Məsələn, Avropa Komissiyasının 2021-ci il araşdırmasına görə, Avropa İttifaqı ölkələrinin vətəndaşlarının 62%-i yalnız bir dildə sərbəst danışa bilir. Yəni bu insanların əksəriyyəti başqa dildə olan məlumatları ancaq tərcümə vasitəsilə əldə edə bilirlər.

Netflix platformasında subtitr və dublyajla yayımlanan serialların izlənmə statistikası göstərir ki, tərcümə olmasaydı, bir çox milli mədəniyyətlər bu qədər geniş auditoriyaya çatmazdı. Məsələn, Koreya serialları dünyanın 100-dən çox ölkəsində məhz tərcümə vasitəsilə populyarlıq qazanıb. Tərcümə bu gün cəmiyyətin hər bir sahəsində özünü göstərir:

Təhsil: Xarici dillərdə olan dərs vəsaitlərinin, elmi məqalələrin və texniki biliklərin tərcüməsi tələbələrin və müəllimlərin inkişafı üçün vacibdir.




Səhiyyə: Tibbi sənədlərin, reseptlərin və müalicə protokollarının doğru tərcüməsi xəstənin həyatı üçün önəm daşıyır.

Hüquq: Miqrantların, sığınacaq axtaranların və əcnəbi vətəndaşların hüquqlarının qorunması üçün sənədlərin və qərarların düzgün tərcüməsi vacibdir.

İnformasiya: Xəbər agentlikləri, beynəlxalq təşkilatlar və dövlət qurumları məlumatları çoxdilli təqdim etməsə, dünya xəbərləri yalnız bir neçə dil sahibinə çatardı.

Tərcümə mədəniyyətlərin bir-birinə “qulaq asma”sına imkan yaradır. Biz Qabriel Qarsia Markesi ispan dilində yazmadığı üçün deyil, onu tərcümə edənlər olduğu üçün tanıyırıq. Eyni şəkildə Nizaminin, Füzulinin, Cəlil Məmmədquluzadənin əsərləri tərcümə vasitəsilə digər xalqlara tanıdılır. Bu, yalnız bir mədəniyyətin tanıdılması deyil, həm də bir xalqın dünya ilə danışa bilməsi, öz səsini eşitdirməsi deməkdir.

Texnologiya tərcümənin köməkçisi, yoxsa rəqibidir? Son illər texnologiyanın inkişafı ilə tərcümə proqramları (məsələn, Google Translate, DeepL) gündəlik həyatımızda geniş istifadə olunur. Hətta süni intellektin iştirakı ilə yazıların avtomatik çevrilməsi də mümkündür. Bu proses sürət və əlçatanlıq baxımından faydalıdır. Lakin bu texnologiyalar konkret mənanı çevirməklə yanaşı, mədəniyyətin və niyyətin daşınmasında çox zaman aciz qalır. Məsələn, bir zarafatın, bir atalar sözünün və ya incə bir ironiyanın düzgün anlaşılması üçün insan duyumu və mədəni bilik tələb olunur – bu isə hələ ki, yalnız insan tərcüməçilərdə mövcuddur.

Texnologiyanın sürətli inkişafı tərcüməyə yeni imkanlar qazandırsa da, insan faktorunu arxa plana ata bilməz. Avtomatik tərcümə sistemləri yalnız ilkin mərhələdə faydalı ola bilər, amma dərin məna, üslub, emosiya və mədəni özəlliklər kimi incəliklər yalnız insan tərcüməçisinin zəhməti ilə qoruna bilər. Qloballaşma bizi birləşdirir, lakin dillər bizi hələ də ayırır. Bu fərqlər arasında körpü salmaq üçün tərcüməçilər və tərcümə fəaliyyəti vacibdir.

Kiçik və azsaylı xalqların dillərində olan əsərlərin tərcüməsinə dövlət dəstəyi artırılmalıdır. Tərcüməçilərin etik və peşəkar hazırlığı qlobal miqyasda gücləndirilməlidir. Texnologiya insan tərcüməçini əvəz etmək üçün deyil, daha yaxşı nəticə üçün onunla əməkdaşlıq etməlidir. Bir zamanlar bir dil bilməklə yaşamaq kifayət edirdi. Lakin bu gün bu mümkün deyil, müxtəlif ölkələr, mədəniyyətlər, xalqlar və fərdlər bir-biri ilə daha sıx təmasdadır. Belə bir dövrdə tərcümə sadəcə sözləri bir dildən digərinə çevirmək deyil, anlamaq, anlaşmaq və əlaqə qurmaq üçün körpü salmaq deməkdir.

Dünyanın qloballaşması ilə paralel olaraq, yerli mədəniyyətlərin və dillərin qorunması məsələsi də aktuallaşır. Tərcümə bu balansın qorunmasında mühüm rol oynayır - bir tərəfdən dünya ilə inteqrasiyanı təmin edir, digər tərəfdən milli kimliyi və mədəni dəyərləri tanıdaraq onların itməsinin qarşısını alır. Xüsusilə kiçik dillər və azsaylı xalqlar üçün tərcümə onların mədəni mövcudluğunu beynəlxalq aləmdə təmin edən yeganə vasitə ola bilər.

Tərcüməçi hər iki dilin daşıyıcısı olaraq, yalnız dil bilgisi deyil, həm də mədəniyyətlərarası empatiya və məsuliyyət hissinə malik olmalıdır. O, oxucu və müəllif, keçmiş və indiki zaman, doğma və yad dünya arasında bir vasitəçi, bir körpü rolunu oynayır.

Azərbaycan üçün bu prosesin önəmi ikiqatdır: həm dünya mədəniyyətinə açılmaq, həm də öz zəngin ədəbiyyatımızı və mədəni dəyərlərimizi dünyaya tanıtmaq baxımından. Bu gün Azərbaycan yazıçılarının əsərlərinin xarici dillərə çevrilməsi, beynəlxalq ədəbiyyat festivallarında təmsil olunmağı, eyni zamanda dünya klassiklərinin dilimizə orijinaldan tərcüməsi – bütün bunlar ölkəmizin qloballaşma şəraitində mədəni varlığını qoruyub saxlamaq və möhkəmləndirmək istiqamətində atılan mühüm addımlardır.

Tərcümə həm yerli, həm də qlobal kontekstdə eyni dərəcədə vacibdir. Yerli səviyyədə o, milli mədəniyyətin və ədəbiyyatın dünya ictimaiyyətinə təqdim olunmasında, Azərbaycanın öz sözünü deməsində əvəzsiz vasitədir. Qlobal miqyasda isə tərcümə insanları bir-birinə yaxınlaşdırır, fərqli dillərdə danışan insanlara eyni masada oturub fikir mübadiləsi aparmağa imkan verir. Bu baxımdan tərcümə sadəcə dilləri deyil, insanları və ideyaları birləşdirən körpüdür.

Bununla belə, tərcümə prosesi özü də çağırışlarla üz-üzədir. Mədəni təhriflər, kontekstin itməsi, vasitəçi dillərdən tərcümə zamanı yaranan yanlışlıqlar kimi problemlər ciddi nəticələr doğura bilər. Bu səbəbdən tərcümə sahəsi mütləq peşəkarlıq, məsuliyyət və etik yanaşma tələb edir. Peşəkar tərcüməçilər sadəcə dili bilən şəxslər deyil — onlar iki mədəniyyət arasında düşünən, hiss edən və uyğunlaşdıran vasitəçilərdir.

Ali təhsil müəssisələrində peşəkar tərcüməçilərin hazırlanması məsələsi xüsusi önəm daşıyır. Naxçıvan Dövlət Universitetində Tərcümə ixtisasının açılması isə bu sahədə mühüm bir addım olaraq qiymətləndirilə bilər və təkcə region üçün deyil, ümumilikdə, Azərbaycan üzrə tərcüməçilik sahəsinin inkişafına dəyərli töhfə verir.

Naxçıvan Dövlət Universitetinin bu ixtisas üzrə maddi-texniki bazası, təcrübəli müəllim heyəti və müasir texnologiya və tədris proqramları gələcək tərcüməçilərin keyfiyyətli təhsil almasına zəmin yaradır. Burada tələbələr təkcə dil öyrənmir, həm də tərcümə nəzəriyyəsi, tərcümə etikası, şifahi və yazılı tərcümə texnikaları üzrə dərin biliklər əldə edirlər. Bu da onların gələcəkdə istər dövlət, istərsə də özəl sektorda rəqabətə davamlı mütəxəssislər kimi fəaliyyət göstərmələrinə imkan verir.

Tərcümə ixtisasının regionda açılması həm də dil və mədəniyyətlərarası tədrisə marağın artmasına səbəb olur. Gənclər arasında dil öyrənməyə olan motivasiya yüksəlir, multikultural düşüncə inkişaf edir və bu da birbaşa olaraq cəmiyyətin intellektual və mədəni səviyyəsinə müsbət təsir göstərir. Bundan əlavə, yerli ədəbiyyat nümunələrinin xarici dillərə, dünya ədəbiyyatının isə Azərbaycan dilinə keyfiyyətli şəkildə tərcümə olunması üçün bu ixtisasda yetişən mütəxəssislər potensial resurs olaraq formalaşırlar.

Naxçıvanın geosiyasi mövqeyi və beynəlxalq əlaqələrinin artan intensivliyi fonunda tərcüməçilərə olan tələbat da artmaqdadır. Universitetdə bu ixtisasın mövcudluğu bu ehtiyacların qarşılanmasına, həmçinin regional əmək bazarının keyfiyyətli kadrlarla təmin olunmasına xidmət edir.

Azərbaycan kontekstində tərcümə sahəsinin inkişafı ölkənin dünyaya inteqrasiyası baxımından strateji əhəmiyyət daşıyır. Milli dəyərlərimizin, ədəbiyyatımızın və düşüncə tərzimizin dünya ictimaiyyətinə düzgün və keyfiyyətli şəkildə təqdim olunması üçün tərcüməyə xüsusi önəm verilməlidir. Həm tərcüməçi hazırlığı, həm normativ baza, həm də bu sahəyə dövlət dəstəyi sistemli şəkildə inkişaf etdirilməlidir. Çünki bu sahədə atılan hər bir addım həm də Azərbaycanın beynəlxalq imicinə, mədəni nüfuzuna, intellektual gücünə xidmət edir.

***Tehranə Xudaverdiyeva***
***filologiya üzrə fəlsəfə doktoru,***
***“İngilis dili və tərcümə” kafedrasının***
***baş müəllimi***

# Azərbaycan ədəbiyyatında daş kulturu

Azərbaycan poeziyasında tez-tez rast gəlinən simvolik obrazlardan biri də “daş”dır. İstər şifahi xalq ədəbiyyatında, istərsə də yazılı ədəbiyyatda bu simvolik obrazın müxtəlif məna çalarlarını aydın görə bilirik. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında “daş” obrazı müxtəlif zamanlarda və janrlarda fərqli məna daşıyıb. Bu obraz bədii ədəbiyyatda yalnız simvolik məna kimi deyil, real məna da kəsb edir. Daş obrazı ədəbiyyatda “möhkəmlik”, “əzm”, “dəyanət”, “səbir”, eyni zamanda “qəlbsizlik” və “soyuqqanlılıq” kimi mənalarda işlənir. Mifoloji cəhətdən araşdırsaq, əsasən, nağıl və əfsanələrdə daşlar bəzən müqəddəs, bəzən də lənətlənmiş varlıq kimi təsvir olunur. Bundan əlavə son dövr yazıçı və şairlərimiz “daş” obrazını daha çox “biganəlik” və “sakit müqavimət” şəklində qələmə alıb bədii ədəbiyyatda işlədiblər. Məhz bunun nəticəsidir ki, bu obraz qarşıya təzadlı fikirlər qoyur. Daş obrazı yaşadığımız dövrün abu-havasını, ədəbi-bədii və ictimai-siyasi iqlimini şərtləndirir. Daş məhz qədim dövrdən başlayaraq hətta bu gün də ibadət, inam, dinə tapınma motivi daşıyır. Dini ibadət məkanlarında 7 ədəd daşı üst-üstə qalayaraq arzuların, istəklərin reallaşması inamını buna misal göstərmək olar. Yəni, din motivləri baxımından daşa inam daha güclüdür.

Azərbaycan ədəbiyyatında bir çox şairlər və yazıçılar “daş” obrazını yaradıcılığında geniş şəkildə işlətmiş, bu obrazın çox dərin mənalarını gah açıq şəkildə, gah da sətiraltı ifadələrlə izahını vermişdir. Bu cür şairlərdən biri də Məmməd Arazdır. Məmməd Arazın yaradıcılığında daş obrazı və ya mövzusu digər yazıçı və şairlərlə müqayisədə daha çox geniş və rəngarəng mənalar, çeşidli mətləbləri ifadə edir. Məmməd Arazın şeir dünyası sanki ədəbiyyatımızın “daş zəmisidir” desək, daha doğru olar. Məmməd Arazın aşağıdakı bəndində daş obrazının hansı mənada işləndiyini təhlil etməklə bunu daha aydın şəkildə görmək mümkündür:

Tarix əlifbası daşdan başlanır,
Əl dəydi yumşalır, göyərir indi.
Başdı – daş olubdu, daşdı – baş olub,
Bunları seçmək də hünərdi indi.

“Tarix əlifbası daşdan başlanır” – bu misra ilə şair tariximizin qədimliyini diqqətə çatdırır. “Daş” obrazı burada 2 mənada düşünülə bilər. 1-ci mənada daş kitabələrə, yazılı abidələrə işarə edir, digər mənada isə simvolik olaraq xalqımızın keçmişdəki çətin və dözümlü həyatını göstərir.

“Əl dəydi, yumşalır, göyərir indi” – bu misrada isə şair demək istəyir ki, zaman keçdikcə daş olan tarix insan əli ilə yumşalır və canlanır. Burada “əl dəymək”yəni, “araşdırmaq”, “yenidən qiymətləndirmək” kimi başa düşülə bilər. “Göyərmək” isə “dirilmək”, “həyat qazanmaq” deməkdir. Yəni daş kimi sərt olan tariximiz və keçmişimiz bu gün yenidən araşdırılır və qiymətləndirilir.

“Başdı – daş olubdu, daşdı – baş olub” misrasında əslində antitezadan istifadə edilib. “Baş” liderlik anlamında, “daş” isə hərəkətsiz, sərt obyekt kimi göstərilir. Şair burada dəyişən dəyərlərin pozulmasına işarə edir. Yəni şair söz oyunundan istifadə etməklə şeirə güclü emosional təsir gücü vermişdir. Bu təsvir vasitəsi də şeirin bədii təsir gücünü artırır.

Sonda isə şair bu qarışıq, ziddiyyətli vəziyyətdə həqiqəti, doğrunu, dəyərləri ayırd etməyin mürəkkəb və çətinliyini, bunun artıq hünər, yəni böyük bacarıq tələb etdiyini deyir, “Bunları seçmək də hünərdi indi”. Yəni həqiqəti, düzü yalandan və saxtadan ayırd etmək asan deyil.

Əslində, bu bənddə Məmməd Araz tarixə baxışını, müasir dövrdə dəyərlərin dəyişməsi ilə bağlı fikirlərini, düşüncələrini daş obrazı timsalında poetik dillə ifadə etmişdir. Bundan əlavə, görkəmli şairimiz Əliağa Kürçaylının “Daşlar” şeirində də bu obraz təzadlar şəklində özünü göstərir. Ədəbiyyatımızda daş obrazı “yaşamaq, yaratmaq” mənaları kəsb etdiyi kimi, ölümlə də əlaqələnə bilər. Aşağıdakı bənddə bunu daha aydın şəkildə görmək mümkündür:

Daş insan oğlunun evi, otağı,
Öləndə buz rəngli məzarı olub.
Daşlar dəyirmanda elin dayağı,
Heykəldə bir xalqın vüqarı olub.

“Daş insan oğlunun evi, otağı”, bu misrada daşın ilkin anlamı göstərilir. İnsan tarix boyu daşdan ev və qalalar tikib. Burada daşın yaşamaq, yaratmaq, qurmaq funksiyaları öz əksini tapıb. Yəni bu funksiyaları xarakterizə edir. Daş burada başlanğıc nöqtəsidir.

“Öləndə buz rəngli məzarı olub”, burada isə daş ölüm şəklində simvolizə edilib. Məzar daşı şəklində göstərilir ki, məzar daşları və baş daşları insanın son mənzilinin simvoludur. “Buz rəngli” ifadəsini işlətməklə isə şair daşın soyuqluğunu, ölümün səssizliyini və sükutunu vurğulayır. Həyatın başlanğıcından ölümünə kimi daş insanın yoldaşıdır.

“Daşlar dəyirmanda elin dayağı”, Bu misrada isə daşlar artıq cəmiyyətin simvolu kimi göstərilir. Dəyirman daşı elin çörəyini verən daşdır. Daş burada elin dirəyi və dayağı şəklində simvolizə edilir.

“Heykəldə bir xalqın vüqarı olub”, Burada isə artıq daş mədəniyyət və qürur simvoluna çevrilib. Yəni daş bu misrada yaddaşın, kimliyin, qürurun daşıyıcısıdır.

Əliağa Kürçaylı bu bənddə daş obrazı vasitəsilə insan həyatının bütün mərhələlərini izah edib:

- Doğum – Yaşam – Ölüm
- Fərdi həyat – İctimai rol – Tarixi yaddaş.

Daş obrazı yalnız nəzmlə yazılan əsərlərdə deyil, nəsr yaradıcılığında da müxtəlif mənalarda işlənir. Məsələn, İsa Hüseyn Muğannanın “İdeal” əsərində bu məqamı vurğulaya bilərik. Əsərdə daşlaşma motivləri özünü qabarıq şəkildə göstərir. Daşlaşma burada insanın ruhən donması, vicdan və hisslərini itirməsi kimi təqdim olunur. Bu obraz insanın mənəvi süqutunu, cəmiyyətin sərtləşməsini simvolizə edir. Qəhrəmanlar bəzən daşlaşmış məfhumlarla, yəni hissiz ideallar, zorla qəbul etdirilən qaydalarla qarşılaşırlar. Bu əsərdə daş obrazı həm də müqavimət, möhkəm iradə kimi də ifadə oluna bilər. Əsl ideal insan qətiyyətli və dəyişməz insandır, yəni “ideallı insanlar daş kimidir” də deyə bilərik.

Bunlardan başqa, Adil Həsənoğlunun “Daşlaşmış haray” poeması daş obrazının ən yaxşı üslubu məqamlarını göstərən əsərlərdən biridir:

Gülləyə tuş gələni var,
Köksü çoxdan yaralıdı.
Yeri, yurdu olur daşın,
Bilməlisən haralıdı.
Daş var, göydən yerə yağıb
Zülm ərşə dayananda.
Daş var, yerdən atılıb
Göyə inam azalanda.

Bu poemada daş haqqında məlum informasiyalar, demək olar ki, daha dərin qatlara enir. “Daş var, göydən yerə yağıb zülm ərşə dayananda” misrasında daş, fikrimizcə, ədalət simvoludur. Daşın göydən yerə yağması Tanrının, haqqın cəzası kimi göstərilir. Haqsızlıq çoxaldıqda Allahın cəzası kimi daş gəlir. Ümumiyyətlə, bu haqda məlumat və deyimlər dini və mifoloji mənbələrdə də var. Məsələn, Lut qövmünə göydən daş yağması.

“Daş var, yerdən atılıb göyə inam azalanda”, bu misrada isə daş ümidsizlik şəklində ifadə olunur. Burada yazıçı deyir ki, insanlar ümidini itirdiyi an daş atırlar. Bu obraz bu misrada Tanrıdan cavab gözləməyən bir xalqın, fərdin etirazı kimi ifadə edilib.

Poemada digər bir misra var ki, bu daha çox diqqəti cəlb edir: “Daş var – hələ doğulmayıb”. Yəni gələcəkdə sinəmizə nə vaxtsa qoyulacaq daş hardasa var, amma biz onu tanımırıq. Daş heyrətin ilk şahididir. “Doğulmayan” daş yalnız gələcək zamanlarımızda qarşımıza çıxan hadisələrlə əlaqələndirə bilər. Xülasə, poemanın süjeti şairin anasının qəbirüstü daşından başlayır. Başlanğıcda bu küləkdirmi, qasırğadırmı, bilinmir, amma ananın adı, soyadı yazılmış daşı yerə salır. Bundan sonra şair həmin daşı evə gətirir ki, ustaya düzəltdirsin. Daş düzələnə qədər isə Qarabağ müharibəsi başlayır. Mənfur erməni daşnaqları dədə-baba torpaqlarımızı işğal edirlər. Ananın qəbri isə adsız-ünvansız düşmən tərəfdə qalır, ad, soyad yazılmış başdaşı isə bizim tərəfdə, şairin evində. Hətta şair poemada bildirir ki, “qorxuram ananın qəbrini tapa bilməyəm”. Əlbəttə, bu sadəcə söz gəlişi deyilir. İnsanın Vətən torpağında anasının qəbri itə bilməz. Ə.Vahid demiş, ananın da ünvanı, yeri elə Vətəndir. Əsas məsələ evdə qalan adı, soyadı yazılmış ananın başdaşıdır. Demək, həmin daş ruh, həyat, ölüm, müharibə, mənəviyyat və əxlaqdır. Ananın adı, soyadı yazılmış o daş nə vaxt o məzarın üstə qoyulacaqsa, o zaman birdəfəlik müharibə də bitəcəkdir. Şair poemada yalnız qəbirüstü daşdan yox, başqa daşlardan da bəhs edir. Bu daşları isə dünya üçün “gözəllik”, “sağlamlıq” simvolu hesab edir. Şair əsərdə Brilyant, Süleyman, Mirvari, Zümrüd, Almaz, Topaz daşlarını işğal olunmuş rayonlarımızın adı ilə əlaqələndirir. Məsələn, Şuşa – Brilyant, Laçın – Süleyman daşı, Kəlbəcər – Mirvari, Ağdam – Zümrüd, Cəbrayıl – Almaz, Zəngilan – Topaz daşları ilə səciyyələnir.

Ən gözəl fikirlərdən biri kimi Adil Cəmilin daşlar haqqında yazdığı şeirini nümunə göstərmək olar:

Deməyin ki, bu daş
Damarında qan işləməz
Daş urzalı, urvalıdır —
Daşsız dəyirman işləməz.

Yuxarıdakı misralarda daş obrazı həm simvolik, həm də məcazi mənalarda işlədilib. “Damarında qan işləməz” misrasında daşın hərəkətsiz, cansız görünməsinə baxmayaraq, onun iç dünyasında həyat və güc ola biləcəyi fikri ilə ziddiyyət qurulur. Bu daşın əslində qiymətli və güclü olduğunu göstərir. “Daş urzalı, urvalıdır” misrasında daşın nəsillərə, dəyərlərə bağlı bir varlıq olduğu ifadə olunur. Bu daşa hörmət və dəyər verildiyini göstərir. Bərəkət rəmzi olaraq simvollaşdırılır. “Daşsız dəyirman işləməz” misrasında isə daşın gündəlik həyatda, xüsusən də əmək və təsərrüfat işlərində nə qədər vacib və funksional olduğunu vurğulayır. Yəni daş praktik həyatda əvəzedilməzdir.

Adil Cəmilin daş haqqında şeirinin digər bəndlərində də fikirlər cürbəcürdür. Aşağıdakı bənddə daşın hansı mənada simvollaşmağına diqqət yetirək:

Yaman gündə sipər olub
Bu torpağın bürcü, daşı.
Həsrət çəkən iki qəlbi
Qovuşdurub elçi daşı.

Birinci misrada daşın qoruyucu, möhkəm və dayanıqlı olduğu vurğulanır. Çətin zamanlarda, yəni yaman gündə daş bir sipər, yəni qalxan rolunu oynayır. Burada daş xalqın, torpağın, vətənin qoruyucusu kimi təsvir edilir. “Bu torpağın bürcü, daşı” misrasında daş torpağın dayağı və dayağı olan əsas hissə kimi təqdim olunur. Bürc sözündə qala, möhkəmlik, müdafiə anlamları var. Yəni daş torpağın təməlidir, qoruyucu sütunudur. “Həsrət çəkən iki qəlbi qovuşdurub elçi daşı” misralarında isə daşın birləşdirici və barışdırıcı rolda olduğu bəllidir. “Elçi daşı” ifadəsi qədim adətlərə əsaslanır – elçilik zamanı elçilərin oturduğu daş simvolik olaraq sülhü, sevgi birliyini və niyyətin ciddiliyini təmsil edir. Şair, ümumiyyətlə, bu və ya digər bəndlərdə həm vətənə bağlılığı, həm də insani duyğuları ifadə edir.

*Aysu SALMANOVA*
*Azərbaycan dili və ədəbiyyatı*
*müəllimliyi IV kurs tələbəsi*

## SƏN VƏ MƏN...

Dənizdəki daşların içini bilmək
istəsən,
Sahildəki qumlara bax.
Hər ovuc qum bir daş
parçasıdır.
Qum və daş...
Buz suyun yaralar almış halıdır,
Su hələ cavandır,
Buz hər şeydən halıdır...
Buzun içini bilmək istəsən,
Axıb gedən sulara bax.
Su və buz...
İçində od gəzdirir
Yaşıl ağaclar,
Özündən kəsir özünü,
Özündən yandırır özünü,
İllər boyu bəsləyir közünü.
Yaşıllar dönüb boz olur.
Yaşıl və boz...
Bu adla bürünmüşəm bu
bədənə,
İçindəki mənəmmi, sanırsan?
Tüstün çıxmırsa,
Nə bilsinlər, yanırsan?
İçimdəkini bilmək istəsən,
güzgüyə bax.
Bax... Sən və mən...

Gülay Tahirli

Baş redaktor:
Şəhla Şirəliyeva
shshahla36@gmail.com

**Ünvan:** AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ 1967 NAKHCHIVAN STATE UNIVERSITY

Qeydiyyat № 330
Sifariş № 373
**Tiraj 350**

Dizayner:
SAHİLƏ ABBASOVA
“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.